**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**HƏMİDƏ RÖVŞƏN qızı CƏFƏROVA**

# B.NETANYAHO HÖKUMƏTİNİN FƏLƏSTİN SİYASƏTİ

**İxtisaslaşma: HSM – 060211 – Regionşünaslıq**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

**Elmi rəhbər: _________________________**
*A.Ş.ŞAHMURADOV*
*Tarix elmləri üzrə fəlsəfə doktoru*, dosent

**Bakı – 2017**

# MÜNDƏRİCAT

**GİRİŞ.................................................................................................................3-8**

**I FƏSİL. FƏLƏSTİN-İSRAİL MÜNAQİŞƏSİNİN MEYDANA GƏLMƏSİ VƏ TƏNZİMLƏNMƏSİ PROSESİ.....................................................................................................9-25**

1.1. Fələstin-İsrail münaqişəsinin səbəbləri və dinamikası.................................................................................................9-19

1.2. 1996-cı ilədək olan dövrdə Fələstin-İsrail münaqişəsinin tənzimlənməsi prosesi.........................................................................................................19-24

**II FƏSİL. 1996-1999-CU İLLƏRDƏ İSRAİLİN FƏLƏSTİN SİYASƏTİ...............................................................................................25-44**

2.1 B. Netanyahonun yeni xarici siyasət konsepsiyası və Fələstin məsələsi........25-36

2.2 Uay Memorandumu…..........................................................................36-44

**III FƏSİL. FƏLƏSTİN PROBLEMİ B. NETANYAHO HAKİMİYYƏTİNİN İKİNCİ DÖVRÜNDƏ**.........................................................................45-74

3.1 2010-cu ildə Vaşinqtonda ABŞ- İsrail və İsrail-Fələstin danışıqları............ 45-53

3.2 “Buludlu sütun” əməliyyatı.......................................................................53-61

3.3 2013-2016-cı illərdə B. Netanyaho hökumətinin Fələstin siyasəti.................62-74

**NƏTİCƏ..........................................................................................................75-77**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.............................................77-86**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Yaxın Şərq regionunda uzun müddətdir davam edən ərəb-İsrail münaqişəsi günümüzədək öz ədalətli həllini tapmamışdır. Şübhəsiz ki, münaqişənin tənzimlənməsi istər regionun, istərsə də beynəlxalq münasibətlərin inkişafına öz müsbət töhfəsini verə bilər. Bu baxımdan, region ölkələrinin, xüsusilə də, İsrail və Fələstin Muxtariyyatının həyata keçirdikləri siyasətin, dünyanın aparıcı dövlətlərinin buna münasibətinin, baş verən proseslərin beynəlxalq münasibətlərə təsirinin öyrənilməsi zərurət olaraq ortaya çıxır.

1996-1999-cu illərdə və 2009-cu ildən hal-hazıradək İsrailin baş naziri olan B.Netanyaho regionda gedən proseslərdə öz mövqeyi ilə seçilən liderlərdəndir. Fələstin-İsrail münaqişəsinin nizamlanması prosesində B.Netanyaho bir çox məsələlərdə öz sələflərindən seçilir və müəyyən anlarda ifrat sərt mövqe tutur. Bu da, münaqişənin həllini çətinləşdirən amillərdən biri kimi qiymətləndirilə bilər. B.Netanyahonun Fələstin-İsrail münaqişəsinə münasibətdə həyata keçirdiyi siyasətin müxtəlif aspektlərdən tədqiq olunması müraciət olunan mövzunun aktuallığına dəlalət edən amillərdəndir.

Fələstin məsələsi İsrailin xarici siyasətinə, regional və beynəlxalq nüfuzuna birbaşa təsir edir. İsrailin qonşu ərəb dövlətləri ilə münasibətinə, bir çox müsəlman dövlətləri tərəfindən tanınmasına, ABŞ-la siyasi əlaqələrinə ciddi təsir edən amillərdən biri də, məhz Fələstin siyasətidir. B.Netanyahonun tez-tez danışıqlar prosesindən yayınması onun ABŞ-la münasibətlərinə də təsir etmişdir. İstər Bill Klinton, istərsə də Barak Obama Fələstin probleminin həll edilməsi üçün çalışan Amerika prezidentləri olmuşlar. Sülh tərəfdarı İ.Rabin və Ş.Peresi sağçı B.Netanyahonun əvəz etməsi istər münaqiənin həll edilməsinə, istərsə də ABŞ-İsrail münasibətlərinə təsirsiz ötüşmədi. Barak Obamanın prezident seçilməsindən az sonra B.Netanyahonun ikinci dəfə baş nazir seçilməsi problemi yeni müstəviyə gətirdi. Bir çox siyasi şərhçilər hər iki liderin hakimiyyəti illərini İsrail-ABŞ münasibətlərinin ən gərgin dönəmi adlandırırlar. Bunu nəzərə alaraq qeyd etmək olar ki, B.Netanyahonun

Fələstin siyasətinin araşdırılması onun hakimiyyəti illərində İsrail-ABŞ münasibətlərinə aydınlıq gətirməyə də müəyyən mənada imkan verir.

Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında siyasi, iqtisadi və mədəni sahələrdə yaxın münasibətlər qurulmuşdur. Hər iki dövləti yaxınlaşdıran amillərdən biri də, onların, həll olunmamış münaqişələrin mövcud olduğu regionlarda yerləşmələridir. Şübhəsiz ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bir çox cəhətlərinə görə ərəb-İsrail münaqişəsindən fərqlənir. Buna baxmayaraq, beynəlxalq hüquq prinsiplərinin tətbiqində meydana çıxan problemlər, ikili standartlar hər iki münaqişə üçün xarakterikdir. Bu baxımdan, mövzunun öyrənilməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması səbəblərini, burada iri dövlətlərin ədalətsiz mövqeyinin əsas rol oynadığını üzə çıxarmaq üçün də müəyyən əhəmiyyətə malikdir.

**Problemin öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı ingilis, türk, azərbaycan və rus dillərində mövcud olan ədəbiyyatlardan, qəzet və jurnallardan, internet resurslarından və rəsmi sənədlərdən istifadə edilmişdir. Fələstin-İsrail münaqişəsinin tarixi, yaranma səbəbləri və dinamikasına həsr olunmuş əsərlər də tədqiqat zamanı daim diqqət mərkəzində olmuşdur. Bu əsərlərə misal olaraq, D.V.Kuzneçev (15), İ.Zvyaqelskaya (14), İ.Rabinoviç (78) və başqalarının tədqiqatlarını göstərmək olar. Magistrlik dissertasiyasının yazılması zamanı J. Quigleyin “Altıgünlük müharibə və İsrailin özünümüdafiəsi: preventiv müharibənin hüquqi əsaslarının öyrənilməsi” (77), P.Lahavın “1956-cı il Süveyş böhranı və onun nəticələri: Konstitusiyaların müqayisəli təhlili, Güc tətbiqi, Diplomatiya və Beynəlxalq Münasibətlər” (57) əsərlərindən istifadə olunmuşdur. Bu əsərlərdə 1956-cı il və 1967-ci il ərəb-İsrail müharibələrinin baş vermə səbəbləri, onların gedişatı, nəticələri və beynəlxalq münasibətlər sisteminə təsirləri haqqında qeyd olunmuşdur.

Ərəb-İsrail münaqişəsinə həsr olunmuş əsərlər sırasında A.Doutinin “İsrail/Fələstin”(37), M.Gilbertin “İsrail: Tarix” (43) əsərlərini də qeyd etmək olar. Sionizmin yaranması və İsrail Dövlətinin qurulmasında onun rolu barədə isə Benzion

Netanyahonun “Sionizmin baniləri” (69) və Teodor Herzlin “İsrail tarixi”(46) əsərlərində məlumatlar yer almışdır.

Neil Loxerinin “Benyamin Netanyahonun qarşısıalınmaz yüksəlişi” (63) əsəri B.Netanyahonun həyatına, onun hakimiyyəti illərinin və siyasətinin öyrənilməsinə həsr olunmuşdur. Bill Klintonun “Mənim həyatım” (33) əsərində isə Uay Memorandumunun imzalanmasına, İsraillə münasibətlərə xüsusi yer verilmişdir. Bu əsərlərdə yer almış faktiki materiallardan iş prosesində geniş istifadə olunmuşdur.

Tədqiqat prosesində BMT TŞ tərəfindən qəbul edilən qətnamələrin təhlilinə də xüsusi yer ayrılmışdır.

İstifadə olunmuş materiallar arasında dövri mətbuat və İnternet resursları da əhəmiyyətli yer tutur. Bu sırada İsrail Dövlətinin Xarici İşlər Nazirliyinin saytını, Haaretz qəzetinin elektron variantını, Jerusalem Post saytını və s. göstərmək olar.

Sadalanan materiallarda həm münaqişənin yaranma səbəbləri, həm də hazırkı vəziyyəti barədə bəhs olunur. Bu da problemin öyrənilməsində, müvafiq qeydlərin aparılması prosesində faydalı olmuşdur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi 1996-2016-cı illərdə Netanyahonun birinci və ikinci hökümətinin Fələstin-İsrail münaqişəsinə yanaşması, bu istiqamətdə atdığı addımlar və bu siyasətin regional və beynəlxalq münasibətlərə təsirini öyrənməkdən ibarətdir.

Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- Münaqişənin meydana gəlməsi və inkişaf mərhələlərini öyrənmək;
- B.Netanyaho hökumətinin xarici siyasətinə Fələstin məsələsinin təsirini təhlil etmək;
- B.Netanyahonun hakimiyyəti illərində əldə edilmiş razılaşmaların icra səviyyəsinə aydınlıq gətirmək;
- ABŞ-ın dəstəyi ilə keçirilən danışıqların nəticəsini təhlil etmək;
- “Buludlu sütun”, “Qoruyucu sərhəd” anti-terror əməliyyatlarının münaqişənin gərginləşməsində rolunu müəyyənləşdirmək;

– B.Netanyaho hökümətinin Fələstinlə bağlı apardığı siyasətin İsrailin xarici dövlətlərlə əlaqələrinə, onun regional və beynəlxalq nüfuzuna təsirini tədqiq etmək.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Tədqiqat işi hazırlanarkən istifadə olunan metodlar sırasında induksiya metodunu qeyd etmək olar. Bu metodun tətbiqi ilə B.Netanyahonun hakimiyyəti dövründə İsrail Dövlətinin xarici siyasətinin, xüsusən də, Fələstin Muxtariyyatı ilə münasibətlərinin araşdırılması əsasında müəyyən ümumiləşmələr aparılmışdır. Həmçinin, xüsusi nəticələrə əsaslanan deduksiya metodundan da istifadə olunmuşdur. Eyni zamanda, analiz və sintez metodu vasitəsilə Yaxın Şərqdə sülh prosesi öyrənilməşdir. Müqayisəli metoddan istifadə edərək Benyamin Netanyahonun hər iki hakimiyyəti dövründə yürütdüyü siyasətin təhlili aparılmışdır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Benyamin Netanyahonun birinci və ikinci hakimiyyəti illərində Fələstin-İsrail münaqişəsinin tənzimlənməsi prosesi təşkil edir.

**Tədqiqatın predmeti.** B.Netanyaho hökumətinin Fələstin siyasətinin İsrailin qonşu ərəb dövlətləri, o cümlədən, ABŞ, Rusiya kimi iri dövlətlərlə münasibətlərinə təsiri, əldə edilmiş razılaşmaların tətbiq edilməsi, sülh danışıqları, onların əhəmiyyəti və nəticələri, İsrailin təhlükəsizliyi üçün vacib olan anti-terror əməliyyatlarının aparılması, 2013-2016-cı illərdə münaqişənin gərginləşməsinə gətirib çıxaran yaşayış məskənlərinin genişləndirilməsi ilə bağlı məsələlər tədqiqat işinin predmetinə daxildir.

**Dissertasiyanın xronoloji çərçivəsi.** Tədqiqat işi xronoloji cəhətdən 1996-2016-cı illəri əhatə edir.

**Dissertasiyanın elmi yeniliyi.** Azərbaycanda ərəb-İsrail münaqişəsi ilə bağlı müəyyən məsələlər araşdırılsa da, hazırkı baş nazir Benyamin Netanyahonun Fələstin siyasəti ilk dəfədir ki, ayrıca tədqiq olunur. Tədqiqat işinin elmi yeniliyi sırasında aşağıdakıları qeyd etmək olar. B.Netanyaho hökumətinin fəaliyyətinin Yaxın Şərq sülh prosesində yeni, fərqli bir mərhələ olduğu göstərilmişdir. Bəzi hallarda,

B.Netanyaho hökumətinin Fələstinlə sülh danışıqlarında süni maneələr yaratması fikri irəli sürülmüşdür.

**Dissertasiyanın elmi və praktiki əhəmiyyəti.** Dissertasiya işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri Benyamin Netanyaho hökumətinin xarici siyasətində Fələstin məsələsinin gələcəkdə də öyrənilməsinə imkan yaradır.

Yazılmış tədqiqat işi İsrailin regionda və beynəlxalq münasibətlər sistemində nüfuzunun araşdırılmasında açar rolunu oynaya bilər. Həmçinin, dissertasiya işi əsasında Benyamin Netanyaho hökumətinin münaqişənin həlli istiqamətində gördüyü tədbirlər və Fələstin probleminin hazırki vəziyyəti haqqında gələcəkdə tədqiqatların aparılması da mümkündür.

Tədqiqat işində yer alan materiallar və əldə edilmiş nəticələr dərs vəsaitlərinin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası**.Magistrlik dissertasiyasının əsas müddəaları, müəllifin dərc olunmuş, aşağıda göstərilmiş məqalə və tezislərində öz əksini tapmışdır:

1. Cəfərova H. Fələstin-İsrail münaqişəsinin müasir İsraildə emiqrasiya proseslərinə təsiri // Dünya azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş illik konfransdakı məruzələrin tezisləri.Slavyan Universiteti, 2015.
2. Cəfərova H. Fələstin-İsrail münaqişəsi // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-ci ildönümünə həsr olunmuş illik konfransdakı məruzələrin tezisləri. Azərbaycan Dillər Universiteti, 2016
3. Cəfərova H. Fələstin – İsrail münaqişəsində pozuculuq elementləri // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-ci ildönümünə həsr olunmuş illik konfransdakı məruzələrinin tezisləri. Azərbaycan Dillər Universiteti, 2017
4. Cəfərova H. Fələstin-İsrail münaqişəsinin meydana gəlmə səbəbləri // ADU-nun Elmi xəbərləri, cild 2, nömrə 3, 2017 – çapdadır
5. Cəfərova H. 2013-2014-cü illərdə İsrail- Fələstin danışıqları // Beynəlxalq münasibətlərin aktual problemləri, Bakı 2017 – çapdadır.

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası “Giriş”, üç fəsil, yeddi paraqraf, “Nəticə” və “İstifadə olunmuş ədəbiyyat siyahısı”ndan ibarətdir.

# I FƏSİL. FƏLƏSTİN–İSRAİL MÜNAQİŞƏSİNİN MEYDANA GƏLMƏSİ VƏ TƏNZİMLƏNMƏSİ PROSESİ

## 1.1. Fələstin–İsrail münaqişəsinin səbəbləri və dinamikası

Yarım əsrdən çox müddətdir davam edən və kökləri XIX əsrin sonlarına gedib çıxan Ərəb–İsrail münaqişəsi Yaxın Şərqdə gərginlik ocağı olaraq qalır. İsrail Dövləti və ona qonşu ərəb ölkələri arasındakı münasibətlər, Fələstin münaqişəsi beynəlxalq münasibətlərə ciddi təsir göstərir.

Yəhudilərin Qüdsə qayıtmaq arzusu, tarix boyu yaşadıqları bütün yerlərdə üzləşdikləri ayrıseçkiliklər XIX əsrdə siyasi sionizm hərəkatının meydana gəlməsinə səbəb oldu. Qüdsdə yerləşən müqəddəs Sion dağının adını daşıyan bu hərəkatın ideoloqlarına görə antisemitizmdən xilas yəhudilərin qədim vətənləri olan Fələstinə qayıtmaqları ilə mümkündür.

Sionizm hərəkatının banilərindən olan vyanalı qəzet müxbiri Teodor Herzl (1860–1904) və hərəkatın digər tərəfdarları Leo Pinsker, Maks Nordau, Vladimir Jabotinski hesab edirdilər ki, dünyaya səpələnmiş bütün yəhudilər öz əcdadlarının yaşadıqları və dünya yəhudilərinin "mənəvi və milli mərkəzi" olan Fələstində toplaşmalıdırlar və məhz burada yəhudi dövləti qurulmalıdır. Onlar iddia edirdilər ki, yəhudi dövləti yəhudi xalqını xilas edəcək və məşhur ingilis yazıçısı Georq Elliotun deyimi ilə "Şərq despotizmi arasında azadlıq mayakı olacaq" [69, 8].

Teodor Herzl Sionist hərəkatının təşkilata çevrilməsində başlıca siyasi qüvvə oldu. O, 1896–cı ildə nəşr etdirdiyi "Yəhudi Dövləti" kitabında "Yəhudilər öz dövlətlərini qurmaq istəyirlər və onlar öz dövlətlərini quracaqlar. Biz sonda öz torpaqlarımızda azad insan kimi müstəqil yaşayacayıq və sülh içində öz evimizdə həyatdan köçəcəyik. Dünya bizim azadlığımızla müstəqil olacaq, bizim sərvətimizlə zənginləşəcək, bizim böyüklüyümüzlə yüksələcək" qeyd edirdi [46, 49]. Bu kitab tez bir zamanda müxtəlif dillərə tərcümə edildi və bununla da sionizm bütün dünyanın

diqqət mərkəzinə gətirilmiş oldu. 1897–ci il avqustun 29–da Bazeldə keçirilən ilk sionist konqresində Dünya Sionizm Təşkilatının əsası qoyuldu. Bu hərakatın məqsədi "yəhudi xalqı üçün Fələstində ictimai hüquqla təmin olunan ocağın yaradılması" idi [37, 38].

Bu tarixi hadisədən sonra, 29 dekabr 1901–ci ildə sionist təşkilatının rəhbərliyi altında, iri sahibkarların maliyyə dəstəyi ilə yəhudilərin Fələstində daimi yaşamalarını və torpaq sahələri əldə etmələrini təşkil etmək üçün Yəhudi Milli Fondu təsis edildi. Fələstinə köçən yəhudilər yerli ərəblərin torpaqlarını satın alır, burada öz kənd təsərrüfatı icmalarını –kibbutzları qururdular [15,8]. Beləcə, Fələstin ərazisinə tarixə Aliyə adı ilə düşmüş, hərfi mənası ivri dilindən tərcümədə "yüksəliş" mənasını verən, yəhudilərin İsrail torpağına köçünü nəzərdə tutan prosesin başlanğıcı qoyulmuş oldu.

1904–cü ildə Teodor Herzlin ölümündən sonra sionizm hərəkatının ən önəmli liderlərindən olan Xaim Veysman "Yəhudi ocağının" salınmasında böyük dəstəyin Britaniyadan gələcəyinə inanırdı və bu məqsədlə David Lloyd Georg, Artur James Balfur və Ser Herbert Samuel kimi ingilis liderlərlə yaxınlaşdı [5, 99-163]. Sonda istədikləri nəticə əldə olundu və 1917–ci il noyabrın 2–də, yəhudi tarixində önəmli yerlərdən birini tutan Balfur bəyannaməsi meydana gəldi. Bəyannamədə deyilirdi: "Zati Alilərinin Hökuməti Fələstində Yəhudi xalqı üçün milli ocağın salınmasına razılıqla yanaşır və bu məqsədə çatmaq üçün bütün səylərdən istifadə edəcək; lakin nəzərə alınmalıdır ki, bununla Fələstində yaşayan qeyri–yəhudilərin mülki və dini hüquqlarının pozulması nəzərdə tutulmur. Bu bəyannaməni Sionist Federasiyasının diqqətinə çatdırsanız, sizə minnətdar olaram" [25]. Balfur bəyannaməsi ilə ingilislər həm yəhudilərin, həm də ərəblərin maraqlarını təmin etməyə çalışırdılar. Yəhudilər üçün ocağın salınmasına yardım edilməli, həm də ərəb və digər yerli xalqların haqları tanınmalı idi.

San–Remoda keçirilən konfransda (19–26 yanvar 1920–ci ildə) Antantanın Ali Şurası Fələstin üzərində mandatın Böyük Britaniyaya verilməsi barədə qərar qəbul etdi. Qərar 1922–ci il iyunun 24–də Millətlər Cəmiyyəti tərəfindən də təsdiqləndi.

İngilis idarəetməsi və Balfur bəyannaməsi Fələstinə yəhudi köçlərinin sayının artmasına səbəb oldu.

Artan yəhudi köçləri, gələn yəhudilərin yerlərdə daha çox torpaq əldə etmələri, Britaniya hökumətinin sionistlərlə əməkdaşlığa daha çox üstünlük verməsi və idarəetmədə yəhudilərə dəstək verməsi ərəblərin haqlı etirazına səbəb olurdu və bu da öz növbəsində 1920–1939–cu illərdə ərəblərin üsyanlarına gətirib çıxartdı. Geniş ərəb kütlələri ingilis mandat rejiminin ləğv edilməsinə, Fələstinə müstəqilliyin verilməsinə, sionistlərin ölkədə mövqelərinin möhkəmlənməsinə, yəhudilərin immiqrasiyasına və yeni torpaqların əldə edilməsinə qarşı çıxış edirdilər.

Ərəb üsyanlarının araşdırılması məqsədi ilə İngiltərə hökuməti tərəfindən komissiyalar təşkil edilmişdi. Ser U.Şou tərəfindən təşkil edilmiş ilk komissiyanın 1930–cu ilin martında nəşr etdirdiyi hesabatında qeyd edilirdi ki, ərəblərin narazılığı yəhudi immiqrasiyası nəticəsində torpaqlarının yəhudilər tərəfindən satın alınmaları və bununla da, Fələstində yəhudilərin dominantlıq təşkil etmələri ilə bağlıdır və təklif olunurdu ki, Britaniya hökuməti 1925–1926–cı illərin kütləvi yəhudi axınının təkrarlanmaması üçün qeyri–yəhudi əhali ilə immiqrasiya məsələlərində məsləhətləşməlidir [87].

Lord Pillin rəhbərliyi ilə 1936–cı il noyabrın 11–də isə başlamış növbəti komissiyanın 1937–ci il hesabatında bildirilir ki, yaranmış vəziyyəti aradan qaldırmaq üçün mövcud mandat ləğv edilməli, Fələstində ərəb və yəhudi dövlətləri yaradılmalı, Qüds, Betlehem və Nazarət üzərində Böyük Britaniya mandatlığı və Hayfa, Akre və Tiberiya üzərində isə müvəqqəti idarəçiliyi qurulmalıdır [73, 504].

Yaranmış vəziyyət artıq əvvəlki tək sionistlərin xeyrinə deyildi. Bunu İngiltərə hökumətinin "Ağ Kitab" – larından da görmək olardı. 1939–cu ilin mayında nəşr edilmiş sonuncu "Ağ Kitab"da on il ərzində ərəb və yəhudilərin maraqlarının bərabər səviyyədə təmin olunacağı vahid müstəqil dövlətin yaradılacağından və dövlət qurulanadək mövcud olacaq keçid dövründə Fələstin əhalisinin öz ölkələrinin hökumətinin təşkilində iştirak edə biləcəklərindən bəhs edilirdi. İlkin mərhələdə 25000, növbəti beş il ərzində isə on min yəhudi immiqrantın Fələstinə köçməsinə

icazə verilməli və yəhudilər tərəfindən ərəb torpaqlarının satın alınmasına isə qadağa qoyulmalı idi [97, 7-11]. Sənədə əsasən, Britaniya hökuməti Balfur bəyannaməsi ilə yəhudi xalqı qarşısında öz üzərinə götürdüyü öhdəliklərdən imtina etmiş olurdu. Buna cavab olaraq, Britaniya hökumətinə təzyiq göstərmək məqsədilə sionistlər ingilislərə qarşı mübarizəyə başladılar və eyni zamanda yəhudilərin qeyri–qanuni aliyəsi Aliya Bet (təxminən 100000 nəfər) baş verdi.

Avropada faşist Almaniyası tərəfindən törədilən qırğınlar zamanı 6 milyon yəhudinin öldürülməsi (Holokost), sağ qalmış yəhudilərin Fələstinə pənah gətirməsi, yerli ərəblərlə toqquşmaların baş verməsi, sionistlər tərəfindən terror aktlarının törədilməsi müharibədən sonra yəhudi məsələsini gündəmdə saxlayırdı. Mandat rejiminə qarşı artan etirazları artıq idarə etmək iqtidarında olmayan Britaniya hökuməti məsələni 2 aprel 1947–ci ildə Birləşmiş Millətlər Təşkilatına ötürdü. Elə həmin ilin may ayında çağırılan BMT Baş Assambleyasının xüsusi sessiyasında BMT-nin 11 üzv dövlətindən–Avstraliya, Kanada, Çexiyaslovakiya, Qvatemala, Hindistan, İran, Hollandiya, Peru, İsveç, Uruqvay və Yuqoslaviyadan–ibarət Fələstin məsələsi üzrə Xüsusi Komissiyasının (UNSCOP) yaradılması qərara alındı. Sentyabrın 3–də isə iki plan irəli sürüldü [103] :

1. Azlığın təklifi – Müstəqil Fələstin Federal Dövləti – Ərəb Dövləti və Yəhudi dövlətini özündə birləşdirəcək və 3 illik keçid dövründən sonra yaradılacaq. Həm ərəblərə, həm yəhudilərə, həm də digər xalqların nümayəndələrinə vahid Fələstin vətəndaşlığı veriləcək. Qüds paytaxt olacaq;
2. Çoxluğun təklifi – İqtisadi Birlikdə bölünmə – 1 sentyabr 1947–ci il tarixindən etibarən iki illik keçid dövründə Fələstin ərazisi müstəqil Ərəb və Yəhudi dövlətlərinə, həmçinin, Qüds şəhərinə bölünəcək. Müvafiq olaraq, hər bir dövlətin öz vətəndaşlığı olacaq. İki dövlət arasında iqtisadi birlik qurulacaq. Qüds Şəhəri isə BMT-in rəhbərliyi altında Beynəlxalq Qəyyumluq Şurasının idarəçiliyinə veriləcək.

Sionistlər çoxluğun təklifini dəstəkləsələr də, Fələstin ərəbləri və qonşu ərəb dövlətləri hər iki planı rədd etdilər, Fələstində hər hansı yəhudi dövlətinin var

olmasına qarşı çıxdıqlarını və bunu beynəlxalq xəyanət kimi qəbul elədiklərini bəyan etdilər.

İki ay boyunca davam edən müzakirələrin ardından 33 lehinə, 13 əleyhinə və 11 bitərəf səs olmaqla, 1947–ci il noyabrın 29–da BMT Baş Assambleyasının 181 (II) saylı qətnaməsi qəbul edildi. Qətnaməyə əsasən, 1948–ci ilin oktyabrın 1–dən gec olmayaraq, ərəb və yəhudi dövlətləri qurulmalı; Fələstin 8 hissəyə bölünməli, 3 hissə ərəb dövlətinə, 3 hissə yəhudi dövlətinə, 7–ci hissə olan Yaffa yəhudi ərazisi kimi ərəb anklavına verilməli; 8–ci hissə olan Qüdsdə isə BMT Qəyyumluq Şurası tərəfindən idarə olunan beynəlxalq rejim formalaşdırılmalı idi [101]. Bunu faiz nisbətində qeyd etməli olsaq qurulacaq ərəb dövlətinə 43%, yəhudi dövlətinə 56%, Qüdsə 1% düşürdü [27].

Ərəblər və yəhudilər arasında toqquşmaların davam etdiyi bir dövrdə BMT TŞ Baş Assambleyanın Fələstin məsələsinə həsr olunmuş ikinci xüsusi sessiyası çağırılır. 16 aprel–14 may aralığında keçirilən sessiyanın sonunda Britaniya hökuməti Fələstin üzərində 28 il davam edən mandatından imtina etdiyini bəyan etdi və elə həmin gecə birtərəfli şəkildə Tel–Əviv Muzeyində Yəhudi Liderlərin Müvəqqəti Dövlət Şurası tərəfindən müstəqil yəhudi dövləti olan–İsrail Dövlətinin əsası qoyuldu. 181 saylı qətnaməyə əsaslanaraq, qurulan yeni dövlətin Müstəqillik haqqında Bəyannaməsi ilk Baş Nazir David Ben Qurion tərəfindən oxundu və imzalandı. “Eretz İsraildə yəhudi xalqı yarandı. Burada onun mənəvi, dini və siyasi siması formalaşdı... Güclə öz ölkəsindən qovulmuş xalq olduqları bütün ölkələrdə ona sadiq qaldılar, doğma torpaqlarına qayıdacaqları günə və orada siyasi müstəqillik qazanacaqlarına daim ümid bəslədilər... Yeni dövlət azadlıq, ədalət və sülhə əsaslanacaq. Dinindən, irqindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına bərabərlik verəcək... ” [36].

1948-ci ildə müstəqilliyini elan etdikdən sonra Misir, İordaniya, Suriya, Livan və İraq İsrailə hücum etdilər. Bu, ilk Ərəb–İsrail müharibəsi idi.

Müharibə üç mərhələdə davam etdi. Birinci mərhələdə üstünlük (1948-ci il 15 may-11 iyun) ərəblərin xeyrinə idi və onlar Negev səhrasını ələ keçirdilər. İkinci

(1948-ci il 8 iyul–18 iyul) və üçüncü mərhələlərdə (1948-ci il 15 oktyabr – 1949-cu il 20 iyul) İsrail ərəb ordusunu məğlub edərək Negev səhrasını geri almış, Qaliley və Qərbi Qüds üzərində nəzarəti ələ keçirmişdi. Qəzza Misirin, İudeya, Samariya, İordan çayının Qərb Sahili və Şərqi Qüds isə İordaniya Krallığının tərkibinə keçdi [6, 35]. İsrail 1949–cu ildə fevralın 24–də Misirlə, martın 23–də Livanla, aprelin 3–də İordaniya ilə və iyulun 20–də Suriya ilə atəşkəs haqqında sənəd imzaladı . İsrailin İraqla sərhəddi olmadığı üçün onunla sənəd imzalanmadı [4].

Müharibə nəticəsində Fələstin ərəblərinin böyük bir hissəsi öz torpaqlarından didərgin düşdü. Yəhudilərdən qorxaraq öz yurdlarını tərk edən və qonşu ərəb dövlətlərinə sığınan Fələstin ərəblərinin sayları barədə dəqiq rəqəm söyləmək mümkün deyil. Qərb Sahilində və Qəzza bölgəsindəki qaçqın düşərgələrinə sığınanların sayı 950.000–ə nəfərə çatırdı. Yaranmış vəziyyəti aradan qaldırmaq üçün BMT Baş Assambleyasının üçüncü sessiyasında (11 dekabr 1948) 194 saylı qətnamə qəbul edildi və Türkiyə, Fransa və ABŞ-dan ibarət Barışdırıcı Komissiyanın yaradılması qərara alındı. Öz evlərinə qayıtmaq istəyən qaçqınlara icazə verilməli, qayıtmaq istəməyənlərə isə öz mülklərinə dəyən zərərin qarşılığında kompensasiya ödənilməli idi [23]. Buna baxmayaraq, qətnamə həyata keçirilmədi, bu da fələstinli qaçqınlarla bağlı böhranın yaranmasına gətirib çıxartdı.

Növbəti müharibə Süveyş kanalı ilə bağlı oldu. Süveyş Kanalı həmişə iri dövlətlərin maraqlarının toqquşduğu məkan olmuşdu. Misir birinci ərəb-İsrail müharibəsindən sonra Əqəbə körfəzini və Süveyş Kanalını İsrail gəmiləri üçün bağlamışdı.

1954–cü ildə Misirin prezidenti seçilən Camal Əbdül Nasir həm şərq bloku, həm də qərb bloku ilə münasibətləri normal saxlamağa çalışırdı. Buna görə də Nil çayı üzərində Assuan bəndinin tikintisinin ABŞ və Britaniya hökumətləri tərəfindən maliyyələşdirilməsinə (1955–ci il dekabrın 16-sı) razı oldu. Eyni zamanda, şərq blokuna daxil olan Çexoslovakiyadan külli miqdarda silah əldə etdi [44]. Çexoslovakiya ilə əməkdaşlığa etiraz edən ABŞ 1956–cı il iyulun 19-da

maliyyələşdirməni dayandırdığını bildirdi. Maliyyələşdirmə problemi ilə üz–üzə qalan Nasir hökuməti Süveyş kanalının milliləşdirildiyini elan etdi.

Məsələ ilə bağlı BMT TŞ`da müzakirələr aparılsa da, kompromissə gəlinməsi mümkün olmadı. Böhran getdikcə dərinləşirdi.

Böyük Britaniya və Fransa hökumətlərinin bu böhranda ayrıca maraqları da vardı. Böyük Britaniya regionda itirilmiş nüfuzunu bərpa etməyə çalışırdı, Fransa isə Misirin Əl-Cəzirə ilə əlaqələrinə son qoymaq istəyirdi. Misirə qarşı mübarizə üçün İsrailə müraciət olundu. Bu da təsadüfi deyildi. İsraillə Misir arasında müharibədən sonra münasibətlər gərgin idi. Nasir İsraili məhv edəcəyini dəfələrlə vurğulamışdı. Bundan narahat olan İsrail müttəfiqlik təklifini qəbul etdi.

1956–cı ilin oktyabrın 22–də keçirilən Böyük Briyaniya, Fransa və İsrail arasında keçirilən üçtərəfli görüşdə hücum planı işlənib hazırlandı. Parisdə hazırlanmış, Londonda qəbul edilmiş plana əsasən, İsrail Sinay yarımadasına hücum etməli, Böyük Britaniya və Fransa isə yaranmış vəziyyətdən narahatlıq bəhanəsi ilə sülhü bərpa etmək üçün müharibəyə qoşulmalı idilər [57].

Döyüşlər oktyabrın 29–dan 30–na keçən gecə başladı. Bir neçə gün ərzində Sinay yarımadası İsrail tərəfindən işğal edildi. Vəziyyətə müdaxilə edən SSRİ dərhal işğalın dayandırılmasını tələb etdi, əks halda Misirə dəstək olaraq, müttəfiqlərə qarşı müasir raketlərdən istifadə edəcəyi barədə hər bir ölkəyə bəyanat göndərdi. Nəhayət, noyabrın 6-da Süveyş kanalı zonasında hərbi əməliyyatlar dayandırıldı, noyabrın 7-də isə BMT Baş Assambleyası Misir ərazisindən orduların çıxarılmasına nəzarət üçün Beynəlxalq Qüvvələrin formalaşdırılması barədə 1001 (ES–I) saylı qətnamə qəbul etdi [24].

Süveyş böhranından sonra İsrailin Misir və Suriya ilə sərhədində toqquşmalar oldu. Toqquşmaların intensiv xarakter almasında İordaniya və Suriya ərazisinə yayılmış Fələstin Milli Azadlıq Hərəkatı təşkilatının partizanlarının da rolu az olmamışdı.

1967–ci ilin əvvəllərindən başlayaraq, Suriya–İsrail sərhədindəki hərbsizləşdirilmiş bölgə ilə bağlı gərginlik artırdı [77]. Aprelin 7–də İsrailə məxsus

traktorun Suriya tərəfindən vurulması və İsrailin buna qarşılıq olaraq havadan hücumlara keçməsi gələcək müharibənin başlaması üçün bəhanə oldu.

Mayın 15–də Misir ordusunun Sinaya daxil olması yerli əhali arasında təşvişə səbəb oldu. Ölkədəki ictimai və siyasi həyatı gərginləşdirməmək üçün İsrail hökuməti ölkə ərazisində qismən səfərbərlik elan etdi [12]. Mayın 18–də Mavi dəbilqəlilərin Misir ərazisindən çıxarılmasından sonra mayın 20–də İsrail, 21–də isə Misir hökumətləri ölkə ərazisində ümumi səfərbərlik elan etdilər.

BMT Baş Katibi U Tanın Misirə səfəri və ABŞ, SSRİ, Fransa və Böyük Britaniyanın vasitəçilik cəhdləri vəziyyəti dəyişmədi.

1967–ci il iyunun 5–də səhər saat 07:10-da müharibə başladı [30]. İyunun 7–də Sinay, iyunun 8-də isə Şərqi Qüds və İordan çayının Qərb Sahili İsrail ordusu tərəfindən işğal edildi. Qolan təpələrinin İsrail silahlı qüvvələri tərəfindən tutulmasından sonra , atəşkəsin qüvvəyə minməsi ilə "Altı günlük müharibə" sona çatdı [22].

1967–ci ilin noyabrın 22–də BMT TŞ tərəfindən Altı günlük müharibə ilə bağlı qəbul edilən 242 saylı qətnaməyə əsasən, İsrail son münaqişədə işğal etdiyi torpaqlardan öz ordularını geri çəkməli, regiondakı bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyi tanınmalıdır [84].

1967–ci il müharibəsindən sonra bölgədə "nə sülh, nə müharibə vəziyyəti" yarandı. Nəticədə, Misirlə İsrail arasında 1968–ci ildən 1970–ci ilədək davam edən "Taqətdən salma müharibəsi" başladı. Açıq döyüşlərin olmadığı bu müharibədə sülhün əldə edilməsi üçün dəfələrlə, böyük dövlətlərin iştirakı ilə görüşlər keçirilmiş, təkliflər irəli sürülmüşdü. Nəhayət, 1970–ci il avqustun 7–də ABŞ–ın vasitəçiliyi ilə İsrail Misirlə, 8–də isə İordaniya ilə arasında atəşin dayandırılması və danışıqlara başlamaq haqqında razılığa gəldi.

1973–cü il oktyabrın 6–da başlamış Məhşər Günü savaşı əvvəlki müharibələrdən fərqlənirdi. Birincisi, bu müharibədə ərəblərin əsas məqsədi 1967–ci il müharibəsində itirdikləri torpaqları geri qaytarılmaq idi. İkincisi isə, İsrail

hökuməti ilk dəfə olaraq kəşfiyyat orqanlarının verdikləri məlumatı doğru təfsir edə bilməyib qəfil hücumla üz–üzə qalmışdı.

Misirdə Nasirdən sonra hakimiyyətə gələn Ənvər Sədat özünün və Misirin nüfuzunu gücləndirməkdən ötrü [89] İsrailin işğal etdiyi Sinay yarımadası və digər torpaqları geri almaq üçün Suriya və İordaniya ilə danışıqlara başladı. 1973–cü ilin yanvarından başlayaraq aparılan danışıqların sonunda, oktyabrın 6–da yəhudilərin Yom Kippur bayramı ilə əlaqədar tətildə olduqları bir vaxtda iki cəbhədən İsrail üzərinə hücuma keçmək barədə qərar qəbul olundu.

Müharibə oktyabrın 6-da başladı. Müharibənin ilk günlərində ərəb ordusu müvəffəqiyyətə nail olsa da, oktyabrın 14–dən etibarən İsrail ordusunun əks hücumu nəticəsində geri çəkilmək məcburiyyətində qaldı. Döyüşlərin gedişatında ABŞ İsrailə, SSRİ də öz növbəsində ərəb müttəfiqlərinə hava körpüsü vasitəsi ilə hərbi yardım göstərirdilər.

Oktyabrın 22–də BMT TŞ-da 338 saylı qətnamə qəbul edildi. Qətnaməyə əsasən, döyüşən tərəflər 12 saat ərzində atəşi və bütün hərbi əməliyyatları dayandırılmalı, atəşkəs əldə edildikdən sonra isə 242 saylı qətnaməni tətbiq etməli idilər [85].

Oktyabr müharibəsindən sonra ABŞ dövlət katibi Henry Kissincer "məkik diplomatiyası"dan istifadə edərək, 1974–cü ilin yanvarında Misirlə, mayda isə Suriya ilə İsrail arasında razılaşmanın imzalanmasına nail oldu. Bununla kifayətlənməyən Kissincerin səyləri nəticəsində 1979–cü ildə Sinay yarımadasının Misirə qaytarılması ilə nəticələnən Kemp–Devid müqaviləsi imzalandı.

XX əsrin 60-cı illərində İordaniyada iordan ərəbləri və buradakı fələstinlilər arasında toqquşmalar get–gedə artmağa başlamışdı. 1970–ci il sentyabrın 27–də Nasirin müdaxiləsi ilə Fələstin və İordaniya arasında sülh müqaviləsinin imzalanmasına baxmayaraq, FƏTH üzvləri İordaniyanı tərk edərək, qonşu Livan ərazisində yerləşməyə başladılar. Bu da gələcəkdə Livanı Fələstin ərəbləri ilə İsrail arasında mübarizə məkanına çevirdi. Bundan narazı olan Livanın xristian əhalisi

fələstinlilərin ölkə ərazisindən qovulması üçün geniş silahlı qruplaşmalar formalaşdırmağa başladılar.

1978–ci ilin martında FAT üzvləri tərəfindən Hayfa–Qüds yolunda törədilən toqquşmadan sonra İsrail öz ordularını Cənubi Livan ərazisində yerləşdirdi.Bununla bağlı BMT TŞ tərəfindən qəbul edilən 425 saylı qətnaməyə əsasən, İsrail Livan ərazisini tərk etsə də, nəzarəti tam əldən vermədi.

1982–ci il iyunun 6–da müdafiə naziri Ariel Şaronun rəhbərliyi altında "Qalileyə sülh" əməliyyatı keçirildi. Əməliyyat başlandıqdan sonra İsrail ordusu Beyruta qədər irəlilədi. Növbəti günlərdə Beyrutun bombalanması istər İsrailin daxilində, istərsə də dünyada, xüsusən də ən böyük müttəfiqi olan ABŞ-da narazılıqla qarşılandı.

Bəşir Cmayelyanın 1982-ci il sentybarın 14–də öldürülməsini bəhanə edərək, İsrail ordusu sentyabrın 16–dan başlayaraq üç gün ərzində Fələstin qaçqınlarının yaşadıqları Sabra və Şatila düşərgələrində qətliam törətdi. Təxmini hesablamalara görə, insan itkisinin sayı 700–dən 3500–ə qədər olmuşdu. Bundan sonra "Sabra və Şatila qəssabı" ləqəbini [41] almış Ariel Şaron vəzifəsindən istefa verdi. 1983–cü ildə İsraillə Livan arasında sülh müqaviləsinin imzalanmasına baxmayaraq, o, parlament tərəfindən ratifikasiya olunmadı.

Müharibə nəticəsində İsrail ordusunda nizamsızlıq hökm sürməyə başladı, hökumətdən Baş nazir Menaxem Begin və müdafiə naziri Ariel Şaron istefa verdilər, ölkə daxilində və xarici ölkələrdə İsrail əleyhinə nümayişlər keçirildi.

Qeyd olunanları ümumiləşdirərək Ərəb–İsrail münaqişəsinin bu qədər müddət davam etməsinin səbəblərini aşağıdakı kimi səciyyələndirmək olar:

- Siyasi sionizm güclənərək dövlətin qurulmasında əsas təkanverici qüvvə oldu;
- İsrail Dövlətinin qurulması üçün yəhudilərin Fələstin torpaqlarına köçləri təşkil olunurdu, bu da yerli xalq arasında etirazlarla qarşılanırdı;
- Böyük Britaniyanın yəhudiləri dəstəkləmələrinə etiraz olaraq Fələstin ərəbləri üsyan qaldırırdılar;
- 1948-ci il müharibəsindən bu yana 4 milyona yaxın fələstinli qaçqın düşmüş və qonşu ərəb dövlətlərində yerləşdirilmişlər. BMT TŞ, eləcə də, BA tərəfindən

qətnamələrin verilməsinə baxmayaraq, İsrail Dövləti bu qətnamələrə əməl etmir [96];

- Nasist Almaniyası tərəfindən törədilmiş Holokostdan sonra yəhudilər aralarında mövcud olan fikir ayrılıqlarını bir kənara qoyaraq, fiziki xilas üçün olsa belə Sionizmin əsas prinsipi olan Yəhudi Dövlətinin qurulmasının vacibliyini qəbul etdilər [37, 86]. Avropada mövcud olan antisemitizm qarşısında Yəhudi məsələsinin kökündən həll edilməsi və yəhudi dövlətinin qurulması müharibədən sonrakı əsas məsələlərdən biri oldu. Harry Truman bu məsələyə münasibətini bildirərkən qeyd edirdi: "Hitlerizmin yəhudi qurbanlarının taleyi məni şəxsən narahat edən məsələ idi. Öz irqinə, rənginə və ya dininə görə təqib edilən insanların fəlakətindən hər zaman narahat olmuşam. Almaniyada Yəhudilərə qarşı Nasistlərin törətdikləri vəhşiliklər bütün dövrlərin ən qorxunc cinayətlərindən biridir.Hitler Almaniyasının soyqrımından xilas olmuş qurbanların ağır vəziyyəti Qərb sivilizasiyası üçün bir çağırışdır və mən Prezident olaraq bu məsələnin həlli istiqamətində əlimdən gələni edəcəm. Verilən təkliflərdən biri də milli Yəhudi ocağının qurulmasıdır." [107, 132].

## 1.2. 1996–cı ilədək olan dövrdə Fələstin–İsrail münaqişəsinin tənzimlənməsi prosesi

Fələstin ərəblərinin İsrail hökumətinin siyasətinə dinc etirazı olan İntifada dünyanın diqqətini Fələstin məsələsinə yönəltdi. İsrailin iğtişaşları yatırmaq üçün istifadə etdiyi sərt metodlar FAT-a dünyada olan münasibəti dəyişdirdi. O, danışıqlar tərəfi kimi qəbul edilməyə başladı. İsrailin İordan çayının Qərb Sahili və Qəzza bölgəsində apardığı siyasətə cavab olaraq, BMT TŞ 605, 607, 608, 636 və 641 saylı qətnamələri qəbul etmiş, AİB isə İsraillə gömrük tariflərinin endirilməsi, 70 mln dollar dəyərində kreditin verilməsi və azad ticarət haqqında sənədlərin ratifikasiyası prosesini dondurmuşdu.

1988–ci il iyulun 31–də İordaniya kralı Hüseyn İordan çayının Qərb Sahilinin idarəçiliyini FAT-a verdi [54] və bundan sonra, noyabrın 15–də Fələstin Milli Şurasının Əl–Cəzairdə keçirilən növbədənkənar sessiyasında, BMT Baş Assambleyasının 181 saylı qətnaməsi (29.11.1947) əsasında Fələstin Dövlətinin yaradıldığı elan olundu. Paytaxtı Qüds, prezident isə Yasir Ərafat təyin edildi [16].

Fələstinin dövlət elan edilməsindən sonra, başda Baş Nazir İshaq Şamir olmaqla, İsraildə hakimiyyətə gələn Likud partiyasının Fələstinə münasibəti dəyişmədi, əksinə FAT-ın bu addımı “dünya ictimaiyyətinin fikrini yayındırmaq” olduğu kimi dəyərləndirildi.

Fələstin dövlətinin yaradılmasını bəyan etməklə İsrailin dövlət kimi mövcudluğunu qəbul edən Yasir Ərafat 1988–ci il dekabrın 13–14–də BMT Baş Assambleyasındakı tarixi çıxışında terrorun bütün növlərindən geri çəkildiklərini bəyan etdi [102]. Bunun ardınca ABŞ FAT-la danışıqlara başladığını elan etdi.

ABŞ-da Buş administrasiyası hakimiyyətinin ilk illərində sülh danışıqları prosesinə başlamaq məqsədilə İsrailə təzyiqlər etdi və nəticədə, 1989–cu ilin mayında İshaq Şamirin 4 bənddən ibarət sülh planı işıq üzü gördü. Planda ərəb dövlətləri İsraili tanımağa, düşmənçilik və boykotu danışıqlar və əməkdaşlıqla əvəz etməyə dəvət olunur, həmçinin, Samariya, İudeya və Qəzza bölgəsi ərəbləri arasında seçkilərin keçirilməsinin mümkünlüyü qeyd edilirdi [104].

1989–cu ilin iyununda Misir prezidenti Hüsnü Mübarək, dekabrında isə ABŞ dövlət katibi Ceyms Beyker tərəfindən Fələstin–İsrail münaqişəsinin tənzimləməsi üçün təkliflər planı irəli sürüldü, lakin hər hansı bir konkret nəticə əldə etmək mümkün olmadı. Belə ki, Şamir planı İsrail hökuməti tərəfindən qəbul edilsə də, ümumilikdə danışıqlara başlamaq ideyası ölkədə xəyanət kimi qiymətləndirilmişdir. H. Mübarəkin təklifləri də Misirdə müsbət reaksiya ilə qarşılanmamışdı, Beyker planından isə Fələstin tərəfi imtina etmişdi.

XX əsrin son onilliyində dünyada gedən proseslər Fələstin–İsrail münaqişəsindən də yan keçmədi. Artıq SSRİ-nin böhran vəziyyətində olması, beynəlxalq münasibətlər sistemində qüvvələr balansının ABŞ-ın xeyrinə dəyişməsi

bu münaqişəyə də öz təsirini göstərdi. İraqın Kuveyti işğal etməsi, Fələstinin Səddam Hüseyn rejimini dəstəkləməsi Fələstinə olan xarici dəstəyin zəifləməsinə gətirib çıxarmışdı. Fələstinin Səddamı dəstəkləməsi ona, həmçinin, ərəb dövlətlərindən gələn maliyyə dəstəyini də azaltmışdı. Eyni zamanda İsrail İraqın ona qarşı kimyəvi silahdan istifadə edə biləcəyindən narahat idi. İsraildə isə, SSRİ`nin dağılmasından sonra baş vermiş növbəti Aliya nəticəsində işsizlik və sosial problemlər ortaya çıxmışdı.

İraq müharibəsindən qələbə ilə çıxan ABŞ artıq əsas diqqətini Fələstin–İsrail münaqişəsinin həllinə yönəltmişdi. 1991–ci il martın 6–da Corc Buş (George H.W.Bush) Konqresdəki çıxışında Yaxın Şərq münaqişəsinin BMT çərçivəsində, TŞ`nın 242 və 338 saylı qətnamələri əsasında təzimlənməli olduğunu bildirmişdi [32]. ABŞ dövlət katibi Ceyms Beykerin regiona ardıcıl səfərləri nəticəsində və ərəb dövlətlərinin razılığı ilə 1991-ci il oktyabrın 30–da Madriddə konfransın çağırılması qərara alındı. Konfransda Fələstin nümayəndələri İordaniya nümayəndə heyətinin tərkibində iştirak edirdi. İsrail Dövlətini baş nazir İshaq Şamir, ərəb dövlətlərini xarici işlər nazirləri, Fələstini isə Abdel Şafi, Xanan Aşraui, Feysal Hüseyni təmsil edirdilər[99]. Fələstin tərəfi konfransdakı fəaliyyətini birbaşa FAT ilə koordinasiya edirdi. Feysal Hüseynin özü Fələstin nümayəndə heyətinin FAT-la əlaqəsini “faksla siyasət” adlandırırdı [17]. Noyabrın 4–dək davam edən konfransda sülh prosesini ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində davam etdirmək barədə razılıq əldə olundu. Növbəti çoxtərəfli görüşün Moskvada keçiriləcəyi qərara alındı.

Silahlanma və regional təhlükəsizlik, qaçqınlar məsələsi, regional iqtisadi inkişaf, su resurslarından istifadə, ətraf mühit məsələlərinin müzakirəsi ilə bağlı yaradılmış işçi qruplar 1992–ci il 28–29 yanvar tarixində Moskvada toplaşdılar. Çoxtərəfli görüşlər çərçivəsində müəyyən inkişafa nail olunsa da, beynəlxalq münasibətlər sistemində gedən proseslər ümumi siyasi tənzimləməyə təsir edirdi. İşçi qrupların fəaliyyəti bir il davam etdi və ciddi nəticələr əldə olunmadı. Onların fəaliyyəti 2000–ci ilin yanvar ayında bərpa olundu.

Madrid konfransından sonra İsrail–İordaniya–Fələstin, İsrail–İordaniya, İsrail–Suriya, İsrail–Livan formatında keçirilən ikitərəfli görüşlər başladı, lakin tərəflərin bir–birlərinə güzəştə getmək istəməməsi çətinlikləri qaçılmaz edirdi. İsrail tərəfi Fələstinin öz müqəddəratını təyin etmə hüququnu tanımır, Fələstin tərəfi isə, öz növbəsində, İsrailin güzəştə gedəcəyinə inanmırdı. Livan BMT TŞ`nın 425 saylı qətnaməsinə əsasən, onun İsrail tərəfindən işğal olunmuş ərazilərindəki qüvvələrin çıxarılmasını, İsrail isə Livan ərazisində yaranmış Hizbullah və digər anti-İsrail qruplaşmaların ləğv edilməsini tələb edirdi. İsrail qoşunları Livanı 2000–ci ildə tərk etdilər. Digər tərəfdən, Suriya ilə münasibətlərdə Qolan təpələrinin İsrail tərəfindən Suriyaya qaytarılması müqabilində sülh müqaviləsinin imzalanacağının mümkünlüyü bildirilirdi. İkitərəfli görüşlər çərçivəsində yalnız İordaniya ilə münasibətlərin bərpa edilməsi mümkün olmuşdur. 1992–ci ildə ABŞ-ın vasitəçiliyi ilə başlayan danışıqlar 1994–cü il oktyabrın 26-da sülh müqaviləsinin imzalanması ilə başa çatdı, faktiki olaraq, İsrailin İordaniya ilə müharibə vəziyyətinə son qoyuldu.

Madrid konfransı tam uğurla nəticələnməsə də, sülhə nail olma yolunda atılan ilk addım oldu. “Torpaq əvəzinə sülh” prinsipini meydana gətirən tərəflər gələcək sülh prosesi üçün əsas yaratmış oldular.

Sülh prosesinin tənzimləməsində növbəti mərhələ Oslo danışıqlarıdır. Burada ilk olaraq FAT lideri Yasir Ərafat və 1992-ci ildə İsrailin baş naziri seçilmiş İshaq Rabinin 9 sentyabr tarixinda bir-birlərinə ünvanladıqları məktublar qeyd olunmalıdır. Hər iki lider qarşı tərəfi tanıdıqlarını və danışıqlara başlamağa qərar verdiklərini qeyd edirdi [50]. Bu hadisəyə qədər Norveçdə 1993-cü ilin yanvarından avqustunadək yeddi aylıq bir dönəmi əhatə edən gizli danışıqlar prosesində Prinsiplər haqqında sənədin ilkin variantı hazırlanmışdı. Nəhayət, sentyabrın 13–ü 1993–cü ildə Vaşinqtonda İshaq Rabin və FAT lideri Yasir Ərəfat arasında ABŞ prezidenti Bill Klintonun iştirakı ilə “Prinsiplər haqqında bəyannamə” (və yaxud “Müvəqqəti idarəetmənin təşkili haqqında prinsiplər bəyannaməsi”) imzalandı. Bəyannamədə Qərb Sahili və Qəzza bölgəsində Fələstin Muxtariyyatının qurulması, təhsil, mədəniyyət, səhiyyə, sosial təminat , vergi və turizm sahələrində ona səlahiyyətlərin

verilməsi, 5 illik müvəqqəti özünü idarəetmə sisteminin yaradılması nəzərdə tutulurdu. Bununla yanaşı, sənəddə Qüdsün statusu, qaçqınlar, yəhudi yaşayış məntəqələri barədə məsələlərə toxunulmurdu. Qüdsün statusu ilə bağlı İsrail tərəfinin mövqeyi dəyişməz olaraq qalırdı [64].

İqtisadi əlaqələr üzrə Protokol və yaxud Paris Protokolu 29 aprel 1994-cü ildə İsrail və FAT arasında imzalanıb. Protokola əsasən, Fələstin Muxtariyyatı Qərb Sahili və Qəzzada Valyutanın İdarə edilməsi sistemini formalaşdıra bilərdi. Bu sistem Fələstin Muxtariyyatının rəsmi maliyyə və iqtisadi məsləhətçisi funksiyasını daşımalı idi. Hər iki tərəf öz vergi siyasətini müstəqil şəkildə müəyyənləşdirməli idi. Müqavilənin müsbət tərəflərindən biri də tərəflər arasında sərbəst şəkildə işçi mübadiləsinin aparılmasının mümkünlüyü barədə qeydin olması idi. Buna əsasən, hər iki tərəf öz şərtləri daxilində işçilərin sərbəst hərəkətini təmin etməli idi. İsrail Milli Sığorta Qanununa əsasən, öz ərazisində çalışan fələstinlilərin əməyini sığortalamalı idi. Eləcə də, bəzi istisnalarla kənd təsərrüfatı məhsullarının gömrükdən rahat keçməsinə, habelə idxal vergisindən azad edilməsinə şərait yaradılacaqdı. Protokolda həmçinin turizm , sənaye və sığorta sektoru ilə bağlı bəndlər də yer almışdı [75].

Oslo 1 danışıqları çərçivəsində 1994-cü il mayın 4-də Qahirədə Qəzza və İerixon haqqında razılaşma imzalandı. Razılaşmaya əsasən, İsrail sənədin imzalanmasından sonrakı üç həftə ərzində ordularını Qəzza və İerixondan çıxarmalı, daxili və xarici təhlükəsizliyi təmin etmək üçün hərbi qüvvələrini öz yaşayış məntəqələri daxilində yerləşdirməli, Qəzza və İerixon üzərində Fələstin muxtariyyatını tanımalı, yəhudi yaşayış məntəqələrinin sərhədləri boyunca nəzarəti öz əlində saxlamalı, iqtisadi əlaqələr isə Paris protokolu çərçivəsində tənzimlənməli idi. Fələstin muxtariyyatı 24 nəfərdən ibarət orqan tərəfindən idarə olunmalı idi. Bu orqan icraedici səlahiyyətlərə malik olmalı idi [21].

1995-ci il 28 sentyabrda Vaşinqtonda FAT və İsrail arasında Rusiya, ABŞ, Norveç, İordaniya, Misir və Aİ-dən olan nümayəndələrin vasitəçiliyi ilə Osloda danışıqlar keçirilmiş və ikinci “Qərb Sahili və Qəzza bölgəsi üzrə Müvəqqəti

razılaşma" imzalanmışdı (Oslo II). Razılaşmaya əsasən Qərb Sahili üç hissəyə bölünürdü [1] :

- A zonası – həm mülki, həm də təhlükəsizlik məsələləri Fələstin Muxtariyyatının səlahiyyətinə keçirdi. Buraya Qərb Sahilinin 4%-i, o cümlədən, Cenin, Kəlkiliyə, Tulkarem, Vifleyem, Ramallah, Nablus şəhərləri daxil idi.
- B zonası – mülki nəzarət Fələstin muxtariyyatına, təhlükəsizlik məsələləri isə İsrailə aid idi. Bura 25% ərazi daxil edilirdi.
- C zonası – A və B zonalarına daxil olmayan ərazilər üzərində İsrail nəzarəti saxlanıldı, lakin bu ərazilər tədricən Fələstin Muxtariyyatının səlahiyyətinə verilməli idi. Bura İsrail üçün strateji əhəmiyyət daşıyan ərazilər daxil idi.

Müqaviləyə əsasən, Fələstinin 82 nəfərdən ibarət icraedici orqanı yaradılmalı, bu oqran Qərb Sahili, Qüds və Qəzza bölgəsinin əhalisi tərəfindən seçilməli idi. İsrail ordu qüvvələri 18 ay ərzində bu əraziləri tərk etməli, Fələstin tərəfinin nəzarətinə keçən bölgələrdə təhlükəsizliyin təmin edilməsi üçün polis qüvvələri yaradılmalı, hər iki tərəf bir-birinə münasibətdə terror, cinayət və düşmənçilik aktlarından əl çəkməli və buna qarşı mübarizə aparmalı idi [49].

İstər Fələstin, istərsə də İsrailin daxilində Oslo anlaşmalarına qarşı çıxan qüvvələr var idi. 1994-cü ilin fevralında Hebronda qatı dindar Barux Qolştaynın 29 fələstinlinin qətlə yetirməsi, ultra sağçılar və ultra-dindarların etiraz aksiyaları, HƏMAS və İslam Cihadı kimi terrorçu təşkilatların öz terror fəaliyyətlərini davam etdirmələri razılaşmalara əsasən nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsini getdikcə ləngidirdi. 1995-ci il noyabrın 5-də baş nazir İshaq Rabinin, Fələstinlə danışıqları qəbul etməyən dindar-fanatik Yigal Amir tərəfindən öldürülməsindən sonra hakimiyyətə gələn Şimon Peres 1996-cı il seçkilərində məğlub oldu və sağçı düşüncəli, eyni zamanda danışıqlara qarşı çıxan Likud partiyasının lideri Benyamin Netanyahonun hakimiyyətə gəlməsindən sonra danışıqlar prosesi yeni mərhələyə qədəm qoydu.

# II FƏSİL. 1996-1999-CU İLLƏRDƏ İSRAİLİN FƏLƏSTİN SİYASƏTİ

## 2.1. B.Netanyahonun yeni xarici siyasət konsepsiyası və Fələstin məsələsi

1996-cı ildə İsraildə keçirilən seçkilərdə sağ meyilli Benyamin Netanyahonun hakimiyyətə gəlməsi ilə Yaxın Şərqdə Fələstin-İsrail münaqişəsinin həlli prosesi yeni müstəviyə daxil oldu. Baş nazir İshaq Rabinin 1995-ci il noyabrın 5-də qatı dindar Yigal Amir tərəfindən öldürülməsindən sonra hökumətin başına keçən Şimon Peresin yürütdüyü siyasət İsraildə narazılıqları daha da artırdı. İ.Rabinin sülh yaratma kursunu davam etdirən Ş.Peresə qarşı istər Likud partiyasının tərəfdarları, istərsə də ümumilikdə sülh prosesinə qarşı çıxanların nümayişləri davam edirdi. HƏMAS tərəfindən törədilən aramsız terror aktları İsraildə ictimai rəyi Likud partiyasının xeyrinə dəyişmişdi və Ş.Peres vəziyyəti öz lehinə dəyişmək üçün terrora cavab olaraq Livan sərhədlərində "Üzüm qəzəbi" əməliyyatına başladı, lakin əməliyyat istənilən nəticəni vermədi. Beynəlxalq təzyiq nəticəsində İsrail öz mövqelərindən geri çəkilməli oldu. Likud da, öz növbəsində, hökuməti kənar təsirlərə müqavimət göstərməməkdə və ekstremist qüvvələrə "yaşıl işıq" yandırmaqda günahlandırdı. Bütün bunlar növbədənkənar seçkilərə gətirib çıxartdı.

Hələ İ.Rabinin dövründə seçki sistemində edilən dəyişikliyə görə hər bir İsrail vətəndaşı ayrı-ayrılıqda iki səs hüququndan istifadə edərək, həm siyasi partiyanı, həm də baş naziri seçməli idi. Seçkilərdə əsas namizədlərdən olan Likud təmsilçisi Benyamin Netanyaho İsrailin götürmüş olduğu beynəlxalq öhdəlikləri, o cümlədən, Oslo müqavilələrini yerinə yetirəcəyini bildirsə də, sülh prosesinin qarşılıqlılıq prinsipi əsasında, "təhlükəsizlik müqabilində sülh" tezisinə əsaslanacağını önə sürmüşdür. Seçki öncəsi nümayişlərdə dini partiya üzvlərinin, habelə keçmiş SSRİ

məkanından aliyə nəticəsində gəlmiş immiqrantların, sefarad yəhudilərin B.Netanyahoya açıq dəstəyi hiss olunurdu.

Seçkilər 1996-cı il may ayının 29-da keçirildi. İlkin nəticələrdə Ş.Peres irəlidə olsa da, Baş nazir postuna keçirilən birbaşa səsvermədə B.Netanyaho səslərin 50.4%-ni toplayaraq (Ş.Peres 49.5%) qalib oldu [43].

İsrail Dövlətinin 9-cu Baş naziri, "Bibi" ləqəbi ilə tanınan Benyamin Netanyaho 1949-cu il oktyabrın 21-də Tel-Əvivdə revizionist sionist və tarixçi Benzion Netanyahonun ailəsində ikinci övlad olaraq dünyaya gəlmişdir. İlk təhsilini Qüdsdə almış B.Netanyaho 14 yaşında ikən ailəsi ilə birlikdə ABŞ-ın Filadelfiya ştatına köçür və təhsilini burada davam etdirir. İsrailə bağlılığı onun 1967-ci il "Altı günlük" müharibə zamanı doğma vətəninə qayıtmasına, öz hərbi öhdəliklərini yerinə yetirməsinə səbəb oldu. Burada o, İsrail Silahlı Qüvvələrinin xüsusi elit dəstəsi olan Sayeret Matkalda xidmət etmiş və bir neçə əhəmiyyətli əməliyyatlarda, o cümlədən, Ben-Qurion hava limanında Sabena Airlines hava şirkətinə məxsus təyyarənin girovdan xilas edilməsində iştirak etmişdir.

Altı illik hərbi xidmətin ardından ABŞ-a qayıdan B.Netanyaho təhsilini Massaçusets Texnologiyalar İnstitutunda davam etdirir. Arxitektura sahəsində bakalavr, İdarəetmə sahəsində isə magistr dərəcəsi almaqla yanaşı, Harvard Universitetində siyasi elmlər üzrə də təhsil alır.

1976-cı il Entebbe əməliyyatı zamanı böyük qardaşı Yonatanı itirən B.Netanyaho terrorizmlə birgə mübarizə üçün 1979-cu ildə Qüdsdə, 1984-cü ildə isə Vaşinqtonda iki beynəlxalq konfrans təşkil edir. Hər zaman qardaşının xatirəsinə layiq olmağa çalışması məhz onun gələcək siyasi karyerasının formalaşmasına təsir etmişdir.

1982-1984-cü illərdə İsrailin ABŞ-dakı səfirliyində səfir Moşe Arensin müavini, 1984-1988-ci illərdə isə BMT-dəki nümayəndəliyində səfir qismində çalışır. BMT-dəki fəaliyyətini bitirdikdən sonra isə İsrailə qayıdan Benyamin Netanyaho Likud partiyasından Knessetin üzvü seçilməklə siyasi arenaya daxil olur [28]. Güclü natiq,

aktiv debatçı B.Netanyaho İsrailin nüfuzunun gücləndirilməsində əsas rollardan birini oynamışdır [63].

1993-cü il martın 25-də Likud partiyasının rəhbəri və Baş nazir vəzifəsinə namizədi təyin edilmişdi. O dövrkü Baş nazir İshaq Rabinə qarşı əsas müxalifət qüvvələrini formalaşdıran B.Netanyaho ilk dəfə 1996-cı ildə İsrailin Baş naziri seçilmişdir.

Knessetdə Avoda partiyasının 34, Likudun 32 yer tutmasına baxmayaraq, B.Netanyaho öz ətrafında koalisiya formalaşdıra bildi. B.Netanyahonun koalisiyasına Yahadut ha-Torah, ŞAS, Rusiyadan İmmiqrantlar Partiyası, Natan Şaranski tərəfindən idarə olunan İsrail ba-Aliya, mərkəz yönümlü Üçüncü Yol Partiyası daxil oldular. Yeni hökumət Knessetdə 66 yer əldə etdi. Demək olar ki, əsas yerlər məhz Likud partiyasının nümayəndələrinə verildi. David Levi Baş nazirin müavini və xarici işlər naziri, İshaq Mordexay isə müdafiə naziri təyin edildi.

Yeni Baş nazirin siyasi xətti sələfi Ş.Peresdən fərqlənirdi. Ş.Peres İ.Rabinin başlatdığı və özünün memarı olduğu sülh prosesini davam etdirəcəyini bildirsə də, B.Netanyaho Fələstin məsələsində tələsmirdi. Özünün Knesset üzvlərinə ünvanlandığı ilk çıxışında (18 iyun 1996-cı il) B.Netanyaho siyasi kursunun əsas istiqamətlərini açıqlamışdı. Yeni hökumət sülh və təhlükəsizliyə yanaşmasında yeni yol müəyyən etmişdir. B.Netanyaho bildirirdi ki, sülh hər şeydən öncə İsrail və onun vətəndaşlarının təhlükəsizliyinə əsaslanmalıdır. Təhlükəsizlik məsələlərində heç bir güzəştə getməyəcəyini bildirən yeni nazir, qonşu dövlətlərlə real sülhə nail olmağın əsas şərtini, məhz terrorla mübarizə üzrə götürülmüş öhdəliklərin icra edilməsində görürdü [20].

Fələstin torpaqlarının tarixi olaraq İsrailə məxsus olduğu fikirini dəstəkləyən B.Netanyahonun siyasi düşüncələrində Vladimir Jabotinskinin təsiri hiss olunmaqdadır. Sionizmin revizionist qoluna mənsub V.Jabotinski İordan çayının hər iki sahili və Qüdsün də daxil olduğu İsrail torpaqlarında Yəhudi dövlətinin qurulması ideyasını dəstəkləyirdi, bu ideyanın gerçəkləşdirilməsi uğrunda hərbi müdaxiləni və millətçiliyi məqbul hesab edirdi. Eretz İsrailin parçalanmasını nəzərdə tutan bütün

müqavilələrə qarşı çıxan Likud partiyası Qüdsün bölünərək həm İsrailin, həm də Fələstinin paytaxtı olması ideyasını qəbul etmirdi [74].

B.Netanyaho bu siyasi xəttə hakimiyyəti illərində sadiq qalmışdı. Bunu seçki öncəsi çıxışlarında da xüsusi olaraq vurğulamışdı. "İsrail xalqının Eretz İsrail yaratmaq hüququ daimi və ayrılmazdır... Yaşayış məskənlərinin salınması barədə qərar ləğv edilməyəcək və onların genişləndirilməsi fəaliyyəti davam edəcək… "Likud" höküməti tərəfindən fələstinlilərə imkan yaradılacaq ki, muxtariyyət çərçivəsində öz şəxsi məsələlərini müstəqil şəkildə həll etsinlər. Xarici əlaqələr, təhlükəsizlik və digər məsələlərin həlli İsrailin nəzarəti altında qalacaq. "Likud" höküməti müstəqil Fələstin dövlətinə qarşı çıxacaq... Vahid və bölünməz Qüds İsrailin əbədi paytaxtı qalacaq... Qüdsdəki FAT və Fələstin Administrasiyasına məxsus digər qurumlar bağlanacaqdır. Qolan təpəlikləri İsrailin suveren hissəsi kimi qalacaq" [8, 13].

ABŞ-a ilk səfəri zamanı Konqress qarşısında çıxış edərkən qonşu ərəb dövlətləri ilə münasibətlərdə davamlı sülhün bir gün üçün deyil, əbədi olaraq təmin edilməsinin vacibliyini vurğulayan B.Netanyahoya görə, sülhün üç əsas sütunu mövcuddur. Bunlardan ilki, əvəzi olmayan təhlükəsizlikdir, Fələstin hakimiyyəti başda olmaqla, digər ərəb dövlətləri İsrailə qarşı terror fəaliyyətini dayandırmalı, terrorla mübarizə aparmalıdırlar. İkinci sütun qarşılıqlılıqdır. Sülh müqaviləsinin imzalanması qarşılıqlı hörmətə əsaslanan münasibətlərin başlanğıcı olmalıdır, götürülmüş öhdəliklərin tanınması və icrasına hər iki tərəf riayət etməlidir. Nəhayət, sülhün üçüncü sütunu isə demokratiya və insan hüquqlarıdır. İnsan hüquqlarına hörmət edən ölkələr öz qonşularına düşmən münasibət bəsləməməlidirlər. Çıxışında Qüds məsələsinə də toxunan B.Netanyaho, Qüdsün ikinci dəfə bölünməsinə yol verməyəcəyini bildirdi [91].

B.Netanyaho hökumətinin xarici siyasətinə gəldikdə isə, öncə də qeyd etdiyimiz kimi, Baş nazirin əsas devizi "təhlükəsizlik müqabilində sülh" idi. İstər Fələstin, istərsə də digər ərəb dövlətləri ilə münasibətdə qarşılıqlılıq prinsipinə dayanan yeni xarici siyasət konsepsiyasında əsas yerlərdən birini məhz təhlükəsizlik məsələləri

tuturdu. Əvvəlki hökumət tərəfindən əldə olunan razılaşmalara İsrailin əməl etdiyi kimi, ərəb dövlətlərinin də əməl etməli olduğu qeyd olunurdu. Yalnız bu halda danışıqların davam etdirilməsi mümkün hesab olunurdu.

Likud partiyasının platformasında İsrailin xarici siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. İsrailin xarici siyasəti onun təhlükəsizlik maraqlarına cavab verməli, sülhə və iqtisadi inkişafa nail olmalıdır. Xüsusi əhəmiyyət verilən istiqamətlərdən biri də, ABŞ-la münasibətlərin davam etdirilməsi idi. İordaniya və Misir kimi qonşu ərəb dövlətləri ilə qurulmuş əlaqələrin inkişaf etdirilməsi Xarici İşlər Nazirliyi qarşısında duran əsas vəzifələrdən biri olmuşdu. Ərəb dövlətləri tərəfindən tanınmaya nail olunması üçün Mərakeş, Tunis və digər Körfəz dövlətləri ilə münasibətlərə xüsusi diqqət ayrılmalı idi. Rusiyanın dünya miqyasında önəmini və Yaxın Şərqdə maraqlarını nəzərə alaraq, onunla və MDB dövlətləri ilə əlaqələrin genişləndirilməsi əsas prioritetlər sırasına salınmışdır. Avropa İttifaqı, Asiya dövlətləri, Avstraliya kimi dövlətlərlə də ticarət, hərbi və mədəni sahədə əməkdaşlıqlar inkişaf etdirilməli idi [62].

Yaxın Şərq probleminin tənzimlənməsində vacib rollardan birini oynayan ABŞ üçün B.Netanyaho heç də asan müttəfiq deyildi. Onun hakimiyyəti illərində sülh prosesi durğunluq dövrünə keçdi və öz əvvəlki dinamikasını itirdi. Bu da fələstinlilər arasında radikalizmin artmasına gətirib çıxartmışdı.

ABŞ-dan asılılığı azaltmağa çalışan B.Netanyaho İ.Rabin və Ş.Peres hökumətlərinin götürdükləri öhdəliklərdən geri çəkiləcəyini açıq-aşkar bildirirdi. Prezident Bill Klintonla Ağ Evdəki görüşü zamanı Qüdslə bağlı güzəştə getməyəcəyini və Hebrondan İsrail qüvvələrini geri çəkməyəcəyini bildirməsindən sonra bu şəhərdə başlayan nümayişlər sülh prosesinin yekun mərhələyə keçməsinə mane olurdu. Bu, həm ərəb dövlətlərinin narazılığına səbəb olurdu, həm də sülhün əldə olunması üçün çalışan ABŞ hökumətini də narahat edirdi. Bu səbəbdən B.Netanyahoya təzyiqlər getdikcə artırdı. 1996-cı ilin sentyabrında Ağ Evə növbəti səfər zamanı prezident Bill Klintonla görüşdə Hebrondan geri çəkilmə məsələsi ilə yanaşı , fələstinli fəhlələrin İsrailə girişi və işlə təmin olunmaları, həmçinin, Suriya

ilə dondurulmuş danışıqların yenidən bərpa olunma imkanları barədə də müzakirələr aparıldı, lakin təəssüf ki, təzyiqlərə baxmayaraq, Hebron məsələsi ilə bağlı razılığa gəlinməsi mümkün olmadı.

Sentyabrın 24-də heç bir xəbərdarlıq edilmədən Əl-Aqsa məscidinin qərb divarından tunelin açılması istər ərəb dövlətlərinin, istərsə də ABŞ rəhbərliyinin narazılığına səbəb oldu. ABŞ Dövlət Departamentinin mətbuat katibi Nikolas Berns tərəfləri vəziyyəti daha da çətinləşdirməməyə və bu cür yeni məsələlərin yaradılmasından çəkinməyə çağırdı.

1996-cı ilin sonlarına qədər davam edən ABŞ, İsrail və Fələstindən ibarət üçtərəfli görüşlər, nəhayət, 1997-ci ilin yanvarında öz nəticəsini verdi. Yanvarın 17-də protokol imzalandı. Protokola əsasən, Hebron şəhəri H-1 (Fələstin nəzarəti) və H-2 (İsrail nəzarəti) zonalarına bölünməli, uyğun olaraq 80% Fələstinə, 20% İsrailin nəzarətinə verilməli və H-2 zonasındakı yəhudilərin təhlükəsizlik məsələləri İsrailin məsuliyyətində qalmalı idi. İsrail 10 gün ərzində H-1 zonasından öz ordularını geri çəkməli idi. Oslo danışıqlarının bir hissəsi kimi Hebronda İsrail ordusunun yenidən yerləşdirilməsi və şəhərin bölüşdürülməsi, aramsız terror aktlarının davam etməsi nəticəsində qeyri-müəyyən vaxta təxirə salınmışdı. 1996-cı ilin sentyabrında, tunelin açılışı ilə bağlı yaranan böhrandan sonra, prezident B.Klinton öz xüsusi elçisi Denis Rossu tərəfləri razı salması üçün regiona danışıqlara göndərmişdi. “Hebron protokolu sülh prosesinin çox kiçik bir hissəsi idi, lakin ilk dəfə idi ki, B.Netanyaho və Y.Ərafat birlikdə razılığa gələ bilmişdilər. Dennis Rossun hər iki tərəflə həftələrlə davam edən görüşləri, Kral Hüseynin və Varren Kristoferin (ABŞ dövlət katibi) təzyiqləri danışıqların baş tutmasına gətirib çıxartdı. Yaxın Şərqdə hər zaman belədir: nəyəsə nail olmaq istəyirsənsə təzyiq edə bilən hər kəsi işə cəlb etməlisən” [33, 604].

Hebron protokolunun imzalanması hər iki tərəfin narazılığına gətirib çıxartmışdı. Belə ki, Fələstin tərəfini 80% bölgü qane etmədiyi halda, İsrail tərəfi protokolu B.Netanyahonun öz dəyərlərinə xilaf çıxması kimi dəyərləndirirdi. B.Netanyaho öz koalisiyasını itirməmək üçün 1997-ci il fevral ayının 26-da Har-Homa ərazisində yaşayış məskəninin salınması barədə qərar qəbul etdi. Qərara

əsasən, Şərqi Qüdsün ərəblərə məxsus hissəsində yəhudi ailələr üçün 6500-ə yaxın ev tikilməli idi. Beləliklə, Şərqi Qüdsün böyük bir hissəsi və burada məskunlaşmış fələstinlilər Qərb Sahilinin digər hissəsindən ayrılmış olurdular. B.Netanyahonun məqsədi bir tərəfdən öz koalisiyasının dəstəyini saxlamaq idisə, digər tərəfdən rəhbəri olduğu partiyanın ənənəvi siyasi xəttini davam etdirmək idi. Likud partiyasının iqtidarda olduğu vaxtlarda xüsusi əhəmiyyət verilən məsələlərdən biri də məhz yaşayış məskənlərinin salınmasıdır. Bu, həm Eretz İsrail (İsrail Torpağı) xəyallarının gerçəkləşdirilməsi ilə, həm də təhlükəsizliyin təmin olunması ilə əlaqədardır. Likud partiyasının bu siyasəti, hələ dövlət qurulmamışdan öncə mövcud olan Yeşivaların liderlərinin fikirlərinə əsaslanır. Bu səbəbdən də, Qərb Sahilində mümkün olan hər yerdə İsrailin təhlükəsizliyi üçün yaşayış məskənləri salınırdı [7].

Yaşayış məskənlərinin salınması siyasətini davam etdirən B.Netanyahonun bu addımı Fələstin tərəfdə nümayişlərin, terror aktlarının başlanmasına gətirib çıxartdı. ABŞ rəhbərliyi öz növbəsində hər iki tərəf arasında balansı qorumağa çalışırdı. BMT TŞ-nin Har-Homada yaşayış məskənlərinin salınmasını pisləyən qətnamələrinə ABŞ tərəfi veto qoysa da, Bill Klinton anlayırdı ki, B.Netanyahonun bu qərarı və üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirməməsi Y.Ərafatı narazı salır. Y.Ərafat çətin iqtisadi şəraitdə olan FAT-da öz nüfuzunu itirməyə başlamışdı və terrorçuların idarəsini artıq əlində saxlaya bilmirdi. Bütün ümidlər ABŞ-ın müdaxiləsinə idi.

Har-Homada məskənlərin salınmasının qarşısını almaq mümkün olmadı. Əvəzində Fələstin tərəfi 1997-ci ilin yazında İsrail ərazisində davamlı terror aktları törətməyə başladı. Elə həmin ilin sentyabr ayında İsrail və Fələstin Milli Muxtariyyatının xüsusi kəşfiyyat orqanları arasında terrorizmlə mübarizə və informasiya mübadiləsi üzrə əməkdaşlıq haqqında razılıq əldə olundu. Paralel olaraq, ABŞ Konqresi Fələstinə ayrılan yardımların dayandırılması barədə qərar qəbul etdi. Çünki konqress üzvləri inanırdılar ki, İsraildə törədilən terror aktlarını FAT və Fələstin Muxtariyyatının rəhbərləri təhrik edirlər [65].

ABŞ-ın münaqişənin tənzimlənməsində əsas rol oynaması 1997-ci ildən sonra da davam edirdi. Ağ Ev bir tərəfdən gah İsrailə öz mövqeyindən geri dönməsi üçün

təzyiq edir, gah da yəhudi lobbisinin təsiri ilə B.Netanyahonu dəstəkləyir, digər tərəfdən də ərəb müttəfiqlərinin dəstəyini itirməmək üçün Fələstinin maraqlarının təmin edilməsinə çalışırdı. İstənilən halda ABŞ-ın səyləri nəticəsində bir sıra müqavilələr, o cümlədən, Uay memorandumu imzalanmışdı. 1998-ci ilin oktyabrın 23-də İsrail və Fələstin arasında ABŞ-ın Merilend ştatının Uay plantasiyasında imzalanan memorandum 1995-ci il Qərb Sahili və Qəzza ilə bağlı əldə edilmiş müvəqqəti razılaşmanın tam icra edilməsi üçün nəzərdə tutulmuşdur.

Fələstin-İsrail münasibətlərində ABŞ-la yanaşı əsas vasitəçilərdən biri də İordaniya idi. İordaniya ərazisindəki qaçqınların sayına baxmayaraq, İsrailə qarşı digər ərəb dövlətləri ilə müqayisədə daha yumşaq davranırdı. Ərəb dünyasının reaksiyasını nəzərə alaraq İordaniya kralı balanslaşdırılmış siyasət yürütməyə çalışırdı. 1994-cü ildə İsraillə sülh müqaviləsi imzalamaqla İordaniya münaqişədən çıxmış oldu və tənzimləmə prosesinin kosponsorlarından birinə çevrildi.

B.Netanyaho da öz növbəsizdə İordaniya ilə əlaqələrin möhkəmləndirilməsinə tərəfdar idi. Bu ölkə ilə əməkdaşlıq daha çox terrorizmlə mübarizə istiqamətində aparılırdı. Terrorçular İordaniya ərazisindən İsrailə hücum etmək üçün istifadə edirdilər. Bunun qarşısını almaq üçün 1999-cu ildə İordaniya kralının göstərişi ilə ölkə ərazisində HƏMAS-a məxsus bütün terror qruplaşmaları bağlandı və onun üzvləri həbs edildilər. [10,12-24].

Təhlükəsizlik sahəsində əldə edilmiş nəticələr gələcək iqtisadi əməkdaşlığa təkan verirdi. İordaniya tərəfi İsraillə əməkdaşlığa əlavə valyuta axını kimi baxırdısa, İsrail tərəfi üçün İordaniya ucuz işçi qüvvəsi demək idi. Baxmayaraq ki, xüsusi ixtisaslaşma tələb edən sahələrdə hələ də yəhudilərin xidmətlərindən daha çox istifadə olunurdu.

1997-ci ildə tərəflər İrbid ərazisində azad iqtisadi zonanın yaradılması barədə müqavilə imzaladılar. İsrail tərəfi İrbiddə istehsal olunan malların ABŞ və Avropanın bir sıra bazarlarına çıxarılmasına nail ola bildi.

İordaniya ilə münasibətlərdə əsas yerlərdən birini su problemi tuturdu. 1994-cü il oktyabrın 26-da İsrail və Fələstin arasında imzalanmış barışıq müqaviləsinə

əsasən, Haşimilər Səltənəti bu müqavilə imzalananadək İsrail tərəfindən istifadə olunmuş suyun 215 mln.kub metrini (İordan və Yarmuk çaylarının birlikdə) və həmçinin, heç bir tərəfin istifadə etmədiyi və Təbəriyyə gölünə axan suyu utilizə etmək imkanı əldə edirdi. Müqavilənin imzalanmasına baxmayaraq, Likud partiyası 1996-cı ildə hakimiyyətə gəldikdən sonra İordaniya ilə əldə edilmiş 1994-cü il razılaşmasının şərtlərini rədd etdi. Bu da İordaniyada narazılığa səbəb oldu və bu barədə B.Netanyahonun Ammana səfəri zamanı ona bildirildi. 1996-cı ilin dekabr ayında su məsələsi üzrə İordan-İsrail komitələrinin növbəti görüşlərində razılığın əldə edilməsi mümkün oldu. Razılaşmaya əsasən, İsrail 50 mln.kub metr suyu duzlu, utilizə edilməmiş formada Tveriya və Bet-Şean rayonlarından İordan çayı vasitəsi ilə İordaniya ərazisinə ötürməli, duzdan təmizləmə kompleksi isə xarici və beynəlxalq investorların dəstəyi ilə hazırlanmalı idi [9,209-244].

İsrailin İordaniya ilə münasibətləri Kral Hüseynin ölümündən sonra hakimiyyətə gələn oğlu Kral Abdulla tərəfindən də davam etdirildi. Xüsusi prioritet təşkil edən məsələlələr sırasında fələstinli qaçqınlar problemi, iqtisadi sahədə əməkdaşlıq, su resurslarının qarşılıqlı paylanması dururdu.

İordaniya ilə qurulan normal münasibətlər Suriya və Livan ilə əlaqələrdə müşahidə olunmurdu.

B.Netanyaho 1996-cı il seçki öncəsi kampaniyasında Qolan təpələrini geri qaytarmaqdan imtina etdiyini və Qolan üzərində İsrailin suverenliyi təmin edilərsə Suriya ilə danışıqların mümkün olacağını vurğulamışdı. Baş Nazir seçildikdən sonra da güzəştə getməyəcəyini açıq şəkildə bildirən B.Netanyaho 1998-ci ilin əvvəllərindən başlayaraq sülh prosesinin mümkünlüyü barədə çağırışlar edirdi.

1998-ci ilin iyulun ortalarında Hafiz Əsad İsrail və Suriya arasında siyasi münasibətlərin qaydaya salınması üçün Parisə səfər edir. H.Əsadla eyni vaxtda, Suriya ilə münasibətləri tənzimləmək üçün B.Netanyahonun təyin etdiyi Uzi Arad da Parisə gəlir. Görüşlərdə İsrail tərəfi Qolan təpələrinin Suriya üçün əhəmiyyəti nəzərə alınaraq, məsələni müzakirə etməyə hazır olduğunu bildirdi, lakin hökumət daxilində Suriya ilə danışıqlara münasibət birmənalı deyildi. Belə ki, Avoda partiyasının

rəhbəri və gələcəkdə Netanyaho ilə “milli birlik” yaradacaq Ehud Barak bu tənzimləməyə müsbət yanaşsa da, Likud daxilində B.Netanyahoya müxalifətdə olan Ariel Şaron Qolan təpələrinin güzəştə gedilməsinə razı deyildi və partiyanın digər üzvlərini də Netanyahonun niyyətindən xəbərdar edərək, bu prosesə mane olmağa çağırırdı [55].

Təzyiqlər öz bəhrəsini verdi və 1998-ci ilin avqustunda Qolan təpələrində 5000-ə yaxın evin tikilməsi barədə Knesset qərar qəbul etdi. Suriyanın vitse-prezidenti bunu Qolanın anneksiyası və Madrid prinsiplərinin yerinə yetirilməsi yolunda növbəti maneə kimi qəbul etdiklərini bildirdi. 1999-cu ildə isə Knesset tərəfindən qəbul edilən “Qolan haqqında” qanuna əsasən , bu ərazidə ediləcək istənilən dəyişiklik haqqında qərar əvvəlcə parlamentin səsverməsindən keçməli, sonra isə referenduma çıxarılmalıdır [56].

Livanla münasibətlərdə isə əsas toqquşmalar BMT TŞ-nin 1978-ci ildə qəbul etdiyi 425 saylı qətnamə ətrafında oldu. Qətnaməyə əsasən İsrail öz ordusunu Livanın cənub bölgəsindən çəkməli idi və Livan tərəfi davamlı şəkildə bunun üzərində israr edirdi. Bu proses Suriya ilə münasibətlərin normallaşdırılması ilə eyni vaxtda getməli idi, lakin təəssüf ki, nə Suriya ilə münasibətlər normallaşır, nə də Livanla sərhəddə Hizbullah tərəfindən törədilən terror aktlarının ardı-arası kəsilirdi. 1999-cu ilin martında Hizbullah tərəfindən aparılan əməliyyat nəticəsində İsrail hərbçiləri həyatlarını itirdilər, buna cavab olaraq İsrail Cənubi Livanda Hizbullahın mövqelərini havadan atəşə tutdu. Qarşılıqlı ittihamlar vəziyyəti nəzarətdən çıxardı.

Livanla münasibətlərdə Rusiyanın fəal müdaxiləsini görmək mümkün idi. 1996-1999-cu illərdə Rusiya Xarici İşləri Naziri E.M.Primakovun Livana səfərləri olmuşdu. Bu səfərlər zamanı Livanın suverenliyi baxımından BMT TŞ 425 saylı qətnaməsinin yerinə yetirilməsinin vacibliyi qeyd olunmuşdu.

Rusiyanın Fələstin-İsrail münaqişəsində sülh prosesini bərpa etmək cəhdləri öz nəticəsini vermədi. Çünki İsrailin şimal sərhədlərinin davamlı atəşə məruz qalması, bitməyən terrorlar və insan itkiləri, həmçinin, infrastrukturun dağıdılması İsrailin

əkshücuma keçməsinə səbəb olurdu. Bu da qətnamənin yerinə yetirilməsi prosesini təxirə salırdı.

1998-ci il aprelin 1-də İsrail hökuməti 425 saylı qətnamənin şərtlərinə əməl edəcəyi barədə razılıq verdi, lakin, bu halda Livan hökuməti öz cənub sərhədlərindən İsrail üzərinə terror hücumlarının olmayacağına zəmanət verməli idi, əks halda İsrail terrorçuların bazalarını dağıtmaq siyasətini davam etdirəcəyi ilə hədələyirdi [14, 272-273].

SSRİ-nin varisi olaraq Rusiyanın Yaxın Şərq tənzimlənməsində iştirakı, həmçinin, İsrail hökumətinin öz xarici siyasət prioritetləri sırasında Rusiya ilə münasibətlərin inkişaf etdirilməsinin də olması Rusiyanı region üçün əhəmiyyətli ölkələrdən biri edirdi.

XX əsrin 90-cı illərində Rusiya və İsrail münasibətlərinin bərpa edilməsində İsrailin maraqları ilk növbədə yəhudi immiqrasiyası ilə bağlı idi. SSRİ-nin süqutundan sonra yəhudilərin kütləvi axını İsraildə ərəb əhali ilə müqayisədə yəhudilərin sayının artmasına gətirib çıxardı. Rusiyanın bu axına imkan yaratması münasibətlərin bərpası üçün ilk şərtlərdən biri idi. İkincisi, Rusiya hökuməti ilə birbaşa əlaqələrin qurulması qonşu ərəb dövlətlərinin müasir rus silahları ilə təchiz edilməsinə mane olmalı idi. Üçüncüsü, Rusiya İsraili xam almazla, metalla və ərzaq məhsulları ilə təmin edirdi. Nəhayət, ən vacibi, İsrail ümid edirdi ki, rusların ərəbləri dəstəklədiyi vaxtlar artıq geridə qalmış və Rusiyanın birbaşa təzyiqi ilə Suriya ilə sülh müqavilələrinin imzalanması mümkün olacaqdır.

Rəsmi münasibətlər tədricən inkişaf edirdi. 1995-1997-ci illərdə cinayətkarlıqla mübarizə, mülki aviasiya sahəsində təhlükəsizliyin təmin edilməsi və hərbi məsələlərlə bağlı əməkdaşlıq üzrə saziş və memorandumlar imzalanmışdı.

Artıq 90-cı illərin ortalarından başlayaraq İsrail-Rusiya münasibətlərində geriləmələr müşahidə olunurdu. Bunun müxtəlif səbəbləri vardı. Bir tərəfdən, 1996-cı ilin yanvarında ərəb meyilli və İsrailə qarşı düşmən mövqedə duran E.M.Primakov Rusiya xarici işlər naziri təyin edildi. İsrail bunu Rusiyanın Soyuq Müharibə dövründə SSRİ-nin yürütdüyü siyasi kursa qayıtması kimi qiymətləndirdi. Digər

tərəfdən isə, Rusiya ilə İran arasında hərbi-texniki sahədə əməkdaşlığın qurulması münasibətlərə mənfi təsir edirdi [19, 50-56].

Buna baxmayaraq, Rusiya Yaxın Şərqdə gedən proseslərdən kənarda qalmırdı. Fələstin-İsrail münasibətlərinin nizamlanması prosesində Rusiya vasitəçi kimi bir neçə istiqamətdə fəaliyyət göstərirdi: münaqişə tərəfləri ilə birbaşa dialoqlar qurur, BMT TŞ-nin daimi üzvü kimi bu təşkilat çərçivəsində fəaliyyət göstərir, ABŞ və beynəlxalq birliyin digər üzvləri ilə öz səylərini əlaqələndirirdi.

Fələstin və İsrail rəsmiləri arasında dialoqun qurulması məqsədi ilə E.M.Primakovun regiona səfərləri olmuşdu. 1997-ci ilin oktyabrında növbəti səfərlərin birində xarici işlər naziri tərəfindən, özündə 12 prinsipi birləşdirən “Yaxın Şərqdə sülh və təhlükəsizlik Kodeksi” adlı sənəd təqdim edildi. Bu sənədin əsas mahiyyəti region dövlətlərinin ektremist və terrorçu qruplarla mübarizədə “ümumi davranış qaydası” işləyib hazırlanmasından ibarət idi [11, 245-247].

## 2.2. Uay Memorandumu

ABŞ-ın B.Netanyahoya təzyiq etməsi, İsrailin Hebron protokolunun imzalanmasından sonra Har-Homada yəhudi yaşayış məskənlərini salması ABŞ-İsrail münasibətlərinə ciddi təsir edirdi. Doğrudur, Birləşmiş Ştatlar BMT TŞ-da yaşayış məskənləri ilə bağlı qətnamələrin qəbul edilməsinin qarşısını veto qoymaqla alırdı, ancaq B.Klinton hökuməti aşkar şəkildə B.Netanyahonun bu addımını pisləyən bəyanatlar verməkdən də çəkinmirdi.

B.Klintonun ikinci səlahiyyət müddəti başladıqdan sonra o, ilk olaraq Fələstin-İsrail probleminin tənzimlənməsi istiqamətində addımlar atmağa başladı, yanvar ayında əvvəl B.Netanyaho, ardınca Y.Ərafatla Ağ Evdə görüşlər keçirdi. Danışıqların sonunda xüsusi nailiyyət əldə edilməsə də, rəsmilər problemin tənzimlənməsinə yanaşmada nikbin qalırdılar. Hələ yanvar ayının 24-də (1997-ci il) İsrail hökuməti “İsrailin milli maraq konsepsiyası”-nı təsdiqləmişdi. Burada qeyd olunurdu ki, Fələstinlə bağlı istənilən yekun həll variantında Qərb Sahilinin yarıdan

çox hissəsi İsraildə qalacaq və ərazilərin boşaldılması ilə bağlı verilmiş qərarların icrası təxirə salınmalıdır. Fələstin isə daha çox ərazi iddiası irəli sürürdü. Bunun müqabilində İsrail tərəfi Y.Ərafat administrasiyasından terrorçu qruplara təzyiqlərin artırılmasını tələb edirdi. Y.Ərafatla baş tutan görüşdə prezident B.Klinton bildirmişdi ki, əgər İsrailin addım atmasını istəyirlərsə, o zaman terrorla mübarizəni gücləndirməlidirlər [35].

ABŞ-ın təklifinə əsasən, Qərb Sahilinin 13%-dən İsrail öz qoşunlarını geri çəkməli və Fələstinin təhlükəsizliyi təmin edəcəyi təqdirdə yaşayış məskənlərinin salınmasını dayandırmalı idi. B.Netanyaho yalnız 9-9.5% ərazinin boşaldılması ilə razılaşırdı. 1998-ci ilin mart ayında ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Denis Rossun regiona səfəri oldu. Səfərdə məqsəd hər iki tərəflə danışıqların aparılması və maksimal dərəcədə razılığa nail olunması idi. Daha çox Y.Ərafatın razılığının əldə olunmasını istəyən ABŞ analitikləri düşünürdülər ki, bu baş verərsə B.Netanyahonu güzəştə getməyə məcbur etmək olar, lakin mövqelərdə nəzərəçarpan dəyişiklik olmadı [14, 273].

İyun-iyul aylarında BMT TŞ və Aİ prosesin tənzimlənməsi üçün xüsusi sessiyalar təşkil etdilər. Fransa da sülh prosesində aktiv iştirak edən tərəflərdən idi. Yaranmış vəziyyətdən çıxmaq üçün Fransa hökuməti Misir hökuməti ilə birgə işləyirdi. 1998-ci ilin mayında prezident Jak Şirak Parisdə Hüsnü Mübarək ilə görüşdü. Görüş Yaxın Şərq sülh prosesi barədə birgə bəyannamənin qəbul edilməsi ilə nəticələndi. Birgə bəyannamədə hər iki dövlət rəhbəri beynəlxalq qüvvələrin, xüsusən ABŞ, Aİ və RF-nin öz səylərini davam etdirməsinin vacibliyi vurğulanırdı. Sonda sülh prosesinin yenidən bərpası üçün əlaqədar tərəflərin iştirakı ilə beynəlxalq konfransın çağırılması təklif olundu. Düzdür, beynəlxalq konfransın çağırılması barədə diplomatik cəhdlərin edilməsinə baxmayaraq, bu mümkün olmadı və ABŞ yenə əsas vasitəçi olaraq qaldı [68].

B.Netanyahoya ABŞ tərəfindən təzyiq olunmayacağı təqdirdə onun danışıqlara getməyəcəyinə inanan fələstinlilər ABŞ-dan daha da aktiv olmağı tələb edirdilər. Y.Ərəfat ABŞ-ın İsraili razılaşma imzalamağa məcbur edəcəyinə ümid edərək,

B.Klinton administrasiyasının 1998-ci ilin mart ayında İsrailin 12 həftə ərzində 13% ərazini boşaldacağı ilə bağlı verdiyi təklifi qəbul etdiyini bildirdi. Mayda ABŞ dövlət katibi Madelin Olbraytın ayrı-ayrılıqda həm B.Netanyaho, həm də Y.Ərafatla görüşləri keçirildi. Bu görüşlərdə M.Olbrayt açıqca İsraildən 13% formulasını qəbul etməyi tələb etdi. B.Netanyaho isə şərti qəbul edəcəyi təqdirdə gələcək yerdəyişmənin xərclərini qarşılayacaq miqdarda yardımın ABŞ tərəfindən təmin olunmasını tələb edirdi. Yardımın miqdarı 1.2 milyard dollar təşkil etməli idi. Avqust ayında ABŞ tərəfi yardım istəyi ilə bağlı tələbi qəbul etmədiyini İsrail rəsmilərinin nəzərinə çatdırdı [59, 98].

Hadisələrin bu cür inkişafı İsrail cəmiyyətində parçalanmaya gətirib çıxarmaya bilməzdi. B.Netanyaho hökumətinin sağ meyilli dini partiyaları Fələstin Muxtariyyatının hər hansı sahədə genişləndirilməsinə qarşı çıxırdısa, daha liberal yanaşanlar İsrail tərəfindən əvvəl götürülmüş öhdəliklərin tam icrasını tələb edirdilər.

Oktyabr ayında M.Olbrayt və D.Rossun aylarla davam edən səyləri nəhayət ki, öz bəhrəsini verdi. Hər iki tərəf çətinliklə də olsa danışıqlar masasına oturmağı qəbul etdi. Heç bir tərəf güzəştə getmək istəmirdi, lakin bilirdilər ki, HƏMAS-ın bu qədər aktivləşdiyi bir vaxtda əgər razılığa gəlinməsə vəziyyət nəzarətdən çıxa bilər. Hər iki tərəf öz ölkələrindəkı narazılıqlardan narahat idi. Oktyabrın 15-də sammitin Merilend ştatında Uay Riverdə keçirilməsi qərara alındı.

Sammitdə hər iki dövlətin nümayəndə heyəti, başda Benyamin Netanyaho və Yasir Ərafat olmaqla, ABŞ prezidenti Bill Klinton, Mərkəzi Kəşfiyyat Agentliyinin rəhbəri Georg Tennet , ABŞ dövlət katib Madelin Olbrayt, İordaniya kralı Kral Hüseyn iştirak edirdilər. Sammit öz işinə oktyabrın 20-də başladı, 23-də isə müqavilə imzalandı.

Tarixə Uay Memorandumu adı ilə düşmüş müqaviləyə əsasən, 21 dekabr 1998-ci il tarixinədək İsrail üç mərhələdə C zonasının 13% ərazisini boşaldaraq Fələstinin nəzarətinə verməli idi. Burada 1% A zonasına, 12% isə B zonasına verilməli idi. Fələstin tərəfi B zonasına məxsus 3% ərazidə “yaşıl zonalar” (qoruqlar) salacağını bildirir, İsrail də öz növbəsində həmin ərazilərdə yaşayan yəhudilərin

təhlükəsizliyinin təmin edilməsini öz üzərinə götürürdü. Birinci və ikinci mərhələlərin davamı olaraq 14.2% ərazi isə B zonasından A zonasına keçməli idi. Yerdəyişmənin üçüncü mərhələsi ilə bağlı komitənin yaradılacağı qeyd olunurdu.

Təhlükəsizlik məsələlərində hər iki tərəf bir-birlərinə məxsus ərazilərdə məskunlaşmış fiziki şəxslər və onların mülklərinə qarşı yönəlmiş istənilən növ terrorçuluq, cinayətkarlıq və digər hərbi əməliyyatların qarşısını almaqla bağlı bütün zəruri tədbirlərin görülməsinə razılıq verirdi. Hər iki tərəf terrorizmlə mübarizənin onlar üçün həyati vacib məsələ olduğunu qəbul edir və bu sahədə əməkdaşlığın qaçılmaz olduğunu anlayırdılar.

Terrorizmlə mübarizə sahəsində ABŞ-Fələstin komitəsi yaradılmalı idi. Komitənin əsas fəaliyyəti təhlükəsizlik sahəsində əməkdaşlığa mane olan məsələlərin aradan qaldırılmasına nəzarətin gücləndirilməsindən ibarət idi. Komitə çərçivəsində görüşlər iki həftədə bir dəfə keçirilməli idi. Fələstin şübhəli şəxslərin tutulub saxlanması istiqamətində tədbirlər həyata keçirməyi öhdəsinə götürürdü.

Qanunsuz silahlanmanın qarşısını almaq üçün Fələstin tərəfi effektiv hüquqi baza yaratmalı, ABŞ-ın dəstəyi ilə qanunsuz silahlara toplanmasını təşkil etməli, ABŞ, Fələstin və İsraildən ibarət üçtərəfli komitə Fələstinin yurisdiksiyasında olan silahların istifadəsinə nəzarət etməli idi. Müvəqqəti razılaşmanın 22-ci maddəsinə əsasən Fələstin terror və zorakılığa gətirib çıxaran bütün təhrikedici aktları qadağan etməli, üçtərəfli komitə prosesdə yaxından iştirak etməklə, müqavilənin şərtlərinin yerinə yetirilməsinə öz töhvəsini verməli idi.

Təhlükəsizlik sahəsində əməkdaşlıq əsasən üç istiqamətdə həyata keçirilməli idi: təhlükəsizlik üzrə davamlı və intensiv xarakterli ikitərəfli əməkdaşlıq; məhkəmə ekspertizası sahəsində təcrübə mübadiləsi ilə bağlı əməkdaşlıq və nəhayət, üçtərəfli komitə.

Əvvəlki razılaşmalara uyğun olaraq, Fələstin İsrailə öz polis qüvvələrinin siyahısını təqdim etməli, ehtiyac yaranarsa texniki yardım sahəsində ABŞ və digər donorlara əməkdaşlıq üçün müraciət etməli idi.

İsrailin Uay Memorandumuna razılaşarkən irəli sürdüyü tələblərdən biri məhz FAT-ın nizamnaməsində İsrailin dövlət kimi məhv edilməsini nəzərdə tutan bəndin silinməsi idi. Bu tələbin yerinə yetrilməsi ilə bağlı müqaviləyə ayrıca bənd əlavə edilmişdi. Həmin bəndə əsasən, FAT-ın İcraiyyə Komitəsi və Mərkəzi Şura Yasir Ərafatın 1998-ci ilin yanvarın 22-də prezident Bill Klintona ünvanladığı məktubu təsdiqləməli idi [61]. Bu məktubda, İsrailin məhvini nəzərdə tutan bəndin 1993-cü il sentyabrın 9-u və 10-da İsrail hökuməti və FAT arasında aparılan məktub mübadiləsinə uyğun olaraq 1996-cı ilin aprelində [78, 506-507] ləğv edildiyi göstərilmişdi. Fələstin Milli Şurasının, İcraiyyə Komitəsinin və Mərkəzi Şuranın üzvləri müvafiq dəyişikliyi təsdiqləmək və sülh prosesinə dəstəklərini nümayiş etdirmək üçün Bill Klintonun da iştirakı ilə dekabr ayında keçiriləcək görüşə dəvət olunurdular.

Tərəflər həmçinin Qəzza Sənaye Zolağının və Beynəlxalq hava limanının açılması barədə də protokol imzaladılar. İsrail və Fələstin tərəfi Fələstin iqtisadiyyatının inkişafı və ticarət əlaqələrinin genişləndirilməsində Qəzza hava limanının əhəmiyyətini təsdiq edirdilər. Bu səbəbdən, onlar ləngimədən əvvəllər əldə edilmiş razılaşmaların əsasında limanın tikilməsi və istismara verilməsinə şərait yaradan yeni müqavilənin bağlanması prosesinə başladılar. Hər iki tərəf Qəzza və Qərb Sahili arasında təhlükəsiz keçidin açılmasının da vacibliyini qəbul edərək, tez bir zamanda bunu həyata keçirəcəkləri barədə razılığa gəldilər. Daha bir vacib məqamlardan biri də Qəzza dəniz limanının 60 gün ərzində açılması ilə bağlı idi.

Bundan başqa, iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün Ad Hok komitə yaradılmalı idi. Komitə vergi, nəqliyyat, Fələstinin ödənilməmiş borcları və İsrail standartlarının ticarətə təsiri kimi məsələləri nəzərdən keçirməli idi.

Sonda tərəflər 1999-cu il mayın 4-dək bu müqavilə üzrə nəzərdə tutulmuş bütün bəndlərin icrası barədə öz üzərlərinə öhdəlik götürdülər. Müqavilə imzalandığı andan etibarən 10 gün ərzində qüvvəyə minməli idi [78, 507-513] .

Müqavilənin imzalanması asan olmadı. Sammitin gedişində B.Netanyaho danışıqları dayandıracağı ilə hədələyirdi, bir çox məsələlərdə razılığa gəlinməsi

mümkün olmurdu. Ən çox mübahisə mövzusu olan məsələlərdən biri məhbusların azad edilməsi idi. Y.Ərafat İsrail həbsxanalarında saxlanan 1000-ə yaxın məhbusun azad edilməsini tələb edirdi, B.Netanyaho isə yalnız 500-ə yaxın məhbusun azad ediləcəyini söyləyirdi. Prezident B.Klintonun və Kral Hüseynin səyləri nəticəsində məhbuslarla bağlı razılığa gəlinməsi mümkün olmuşdu. B.Netanyaho cinayətkarlardan kimlərin azad olunacağı qərarını özünün verəcəyi şərti ilə məhbuslar məsələsində razılığa gəldi. Bill Klinton həmin anları öz kitabında bu cür qeyd edirdi: "Mən bilirdim ki, biz qırılma nöqtəsindəyik, buna görə Hüseyndən bizə qoşulmağını xahiş etdim. O, öz dərin və ağrılı səsi ilə bildirdi ki,tarix buna görə bizi mühakimə edəcək... Biz övladlarımızın xatirinə də olsa sülhə nail olmalıyıq... Hüseynin otağı tərk etməsindən sonra biz müzakirələri davam etdirdik... Mən sona qədər qalmağı qərarlaşdırdım. Netanyaho və Ərafat da bilirdilər ki, ya indi, ya heç vaxt.." [33, 664-665].

ABŞ kəşfiyyatının keçmiş agenti, bir çox məxfi sənədləri İsrailə ötürmüş, 1987-ci ildə ömürlük həbsə məhkum edilmiş Amerika yəhudisi Conatan Pollardın azad edilməsi ətrafında gedən mübahisə sülh yolunda növbəti maneə idi. C.Pollard azad edilməyəcəyi təqdirdə B.Netanyaho danışıqları dayandıracağı ilə hədələyirdi. B.Netanyaho bildirirdi ki, C.Pollardın buraxılması onun koalisiyasının sağ qanadını sülh danışıqlarına razı salmaq üçün vacibdir, lakin bu ABŞ rəsmilərinin narazılığı ilə qarşılandı. ABŞ MKA-nin rəhbəri Georg Tennet Pollardın azad ediləcəyi halda vəzifəsindən istefa verəcəyini açıqladı. Sonda B.Klinton bu məsələni yenidən nəzərdən keçirəcəklərini bildirərək, B.Netanyahonu danışıqlar masasına qaytara bildi [82].

Bütün narazılıqlara baxmayaraq, B.Klinton administrasiyası nəticənin əldə edilməsində israrlı idi. İsrailin 13 faiz formulasını qəbul etməsi və Fələstinin İsrailin təhlükəsizlik və siyasi tələbləri ilə razılaşması üçün ABŞ hökuməti siyasi və iqtisadi sahədə hər iki tərəfə bir sıra təminatlar verdi. Siyasi təminatlar Fələstinin terrorizmlə mübarizəsinə və hər iki tərəfin müqavilənin şərtlərinə əməl edib-etməməsinə nəzarətlə bağlı idi. İqtisadi təminatlar isə, hər iki tərəfə ayrılan maddi yardımları

əhatə edirdi. İsrail nəhayət əvvəldə tələb etmiş olduğu 1.2 milyard dollarlıq yardım paketi ilə bağlı zəmanət ala bildi. Fələstinə isə B.Klinton iqtisadi yardımı artıracağı vədini verdi, həmçinin, donor ölkələrə növbəti beş il üçün yardım proqramının hazırlanması ilə bağlı müraciət etdi [59, 98].

Uay memorandumunun imzalanması istər İsrail, istərsə də Fələstin daxilində müsbət reaksiya ilə qarşılanmadı. Hələ Hebron protokolunun imzalanmasından sonra B.Netanyahonun koalisiyasında ona qarşı müxalifət formalaşmağa başlamışdı. Protokola qarşı çıxanlar onu güzəştə getməkdə, Oslo müqavilələrinin tərəfdarları isə tam əksinə, sülh yolunda addım atmamaqla günahlandırırdılar. B.Netanyaho iki zidd qütb arasında qalmaqla, ABŞ-ın təzyiqlərinə qarşı da müqavimət göstərirdi. B.Netanyaho öz koalisiyasını Uay memorandumu imzalananadək saxlaya bildi. Ancaq müqavilənin imzalanması hökumətdə parçalanmaya gətirib çıxartdı. İlk olaraq maliyyə naziri istefa verdi, müdafiə naziri isə istefa verəcəyi ilə hədələdi. B.Netanyaho hər iki tərəfi razı salmağa çalışsa da hökumətin buraxılmasının qarşısını ala bilmədi. Məhz B.Netanyahonun koalisiyası onun birinci səlahiyyət müddətində sülh prosesinin durğunluğuna səbəb olmuşdu. Onun koalisiya hökümməti, əsasən, Oslo prosesinə qarşı çıxan sağçı və dini partiyalardan ibarət idi. Onun tərəfdarları ümid edirdilər ki, B.Netanyaho sülh prosesini dayandıracaq, lakin sülh düşərgəsi onu yeni addımlar atmağa məcbur edirdi. Nəticədə, B.Netanyaho nə sülhə mane ola bildi, nə də götürülümüş öhdəlikləri yerinə yetirdi [40, 106-107].

Sammitdən sonra İsrailə qayıdan B.Netanyaho Qərb Sahilindəki yəhudi sakinlərin nümayişləri ilə qarşılaşdı. Nümayişçiləri sakitləşdirmək üçün B.Netanyaho bəyan etdi ki, müqavilənin imzalanması yeni yaşayış məskənlərinin salınması yolunda maneə deyildir və bunun sübutu olaraq, oktyabrın sonunda Har-Homada 1025 evin tikilməsi barədə göstəriş verdi. B.Netanyaho müqavilənin ratifikasiyasının qarşısını almağa çalışsa da, bir tərəfdən ABŞ-ın təzyiqləri, digər tərəfdən də Qüdsdə törədilən terror aktları onu müqaviləni Knessetin müzakirəsinə çıxartmağa məcbur etdi. Nəhayət, noyabrın 17-də Knesset Uay Memorandumunu ratifikasiya etdi. Artıq

noyabrın 20-də Qərb Sahilinin şimal sektorunda Cenin və Nablus şəhərləri arasındakı ərazidə ilk yerdəyişmələr başladı [100,550].

Ümumilikdə, memorandumla razılaşdırılmış bütün öhdəliklər tam yerinə yetirilmədi. Məsələn, Fələstin ərazisindəki bütün terror təşkilatları və onların qolları məhv edilmədi. Qanunsuz silahların hamısının müsadirəsi baş tutmadı, Fələstin ərazisində fəaliyyət göstərən polislərin siyahısı tam şəkildə deyil, müəyyən hissəsi İsrailə ötürüldü. Məhbuslardan isə təxminən 750 nəfər azadlığa buraxıldı. Qeyd edək ki, məhbusların azad edilməsinin üç mərhələdə həyata keçiriləcəyi razılaşdırılmışdı.

İqtisadi sahədə əməkdaşlıqla bağlı Uay Memorandumu ilə nəzərdə tutulan öhdəliklərin icra olunma vaxtı isə aşağıdakı kimi müəyyənləşir:

1.Qəzza Beynəlxalq hava limanı – 20 noyabrda müqavilə imzalanır və dekabrda hava limanının rəsmi açılışı olur

2. Qəzza Sənaye Zolağı – dekabrın 14-də Karni ticarət məntəqəsi öz işinə başlayır.

3. Qəzza dəniz limanı – İsrailin müxtəlif təkliflərinə baxmayaraq, Fələstin tərəfindən danışıqlar dayandırılmışdır.

4.Təhlükəsiz keçid – Memoranduma əsasən hər iki tərəf Təhlükəsiz keçidi təmin etmək üçün öz səylərini birləşdirməli idi, lakin bu sahədə gedən danışıqlar Fələstin tərəfindən donduruldu [109].

Vacib məqamlardan biri məhz FAT nazimnaməsindəki bəndin silinməsi ilə bağlı idi. Müqavilədə də razılaşdırıldığı kimi, dekabrın 14-də B.Klintonun bölgəyə tarixi səfəri başladı. Bu səfərdə B.Klinton, M.Olbrayt, S.Berger, D.Ross iştirak edirdilər. Səfər zamanı B.Klinton Qəzzada yeni hava limanının açılışında iştirak etdi və Y.Ərafatla görüşdü. Fələstin Milli Şurasında müvafiq bəndin silinməsinin ardından Amerika rəsmilərinin iştirakı ilə keçirilən tədbirdə B.Klinton öz tarixini çıxışını etdi. Səfərin sonunda müqavilənin növbəti mərələlərinin həyata keçirilməsinin müzakirəsi üçün Erez adlanan ərazidə B.Netanyaho, Y.Ərafat və B.Klintonun üçtərəfli görüşü keçirilsə də, nə B.Klintonun səfəri və üçtərəfli görüş, nə də FAT nizamnaməsinə edilən dəyişikliyin prosesə müsbət təsiri olmadı.

Knessetin müqaviləni ratifikasiya etməsinə baxmayaraq, B.Netanyaho hökumətinin parçalanmasının qarşısını almaq mümkün olmadı. Knessetdə ona etimadsızlıq göstərildi. Dekabrın 18-i əvvəlcə yerdəyişmənin növbəti mərhələsinin icra edilməyəcəyi, 20-də isə müqavilənin fəaliyyətinin dayandırıldığı elan edildi. Ardınca elə həmin gün Knesset qarşısında hökumətin özünü buraxması və yeni parlamet seçkilərinin keçirilməsi barədə qərar oxundu.

1999-cu ilin may ayında keçirilən seçkilərdə B.Netanyahonun əsas rəqibi Avoda partiyasından Ehud Barak İsrailin 10-cu baş naziri seçildi. B.Netanyaho isə siyasətdən uzaqlaşdığını bəyan etdi.

B.Netanyahonun hakimiyyətinin ilk dövrü sülh prosesinin durğunluğu ilə yadda qaldı. O, gah Y.Ərafata qarşı sərt mövqe sərgiləyir, gah da danışıqlar masasına otururdu. Müvəqqəti razılaşma ilə nəzərdə tutulan tarixədək Fələstin dövləti qurulmadı. Y.Ərafat dəfələrlə birtərəfli şəkildə dövləti quracağını elan etsə də, bunun yeni müharibəyə gətirib çıxaracağından ehtiyatlanaraq, bu addımı atmadı.

Seçki öncəsi çıxışlarında Oslo müqavilələrinin icrasını davam etdirəcəyini söyləməsinə baxmayaraq, B.Netanyaho hakimiyyətinin ilk günlərindən yaşayış məskənlərinin salınması prosesini davam etdirməsi ziddiyyətli məqam idi. Qüdsdəki tunelin açılışı, Har-Homa yaşayış məskəninin salınması, Hebronun boşaldılmaması bunlara nümunədir.

Ümumiyyətlə, öz siyasi xəttini dörd tezis əsasında formalaşdıran B.Netanyaho qatı şəkildə Fələstin dövlətinin qurulmayacağını, Qüdsün İsrail Dövlətinin paytaxtı kimi “vahid və bölünməz” qalacağını, Qolan təpələrinin güzəştə gedilməyəcəyini və Qərb Sahili və Qəzzada yəhudi yaşayış məskənlərinin salınması prosesinin davam edəcəyini bildirmişdi. Bunun da nəticəsində danışıqlar prosesi vaxtaşırı olaraq dayanırdı.

Bir tərəfdən koalisiya üzvlərinin, digər tərəfdən isə, ABŞ-ın təzyiqləri onun iki cəbhə arasında qalmasına gətirib çıxartmışdı. ABŞ-ın təsirindən çıxaraq müstəqil siyasət yürüdə bilməyən, Hebron protokolunu və Uay memorandumunu imzalamaqla koalisiya hökümətindən dəstək almayan B.Netanyaho sonda geri çəkilməli oldu.

# III FƏSİL. FƏLƏSTİN PROBLEMİ B.NETANYAHO HAKİMİYYƏTİNİN İKİNCİ DÖVRÜNDƏ

## 3.1.2010-cu ildə Vaşinqtonda ABŞ-İsrail və İsrail-Fələstin danışıqları

2008-ci ilin ortalarında İsrailin baş naziri Ehud Olmertə qarşı irəli sürülən rüşvətxorluq iddiaları ilə başlayan istintaq işi Kadima partiyasının rəhbərliyinin dəyişməsi ilə nəticələndi.Oktyabrın 26-da Kadima partiyasına rəhbər Tsipi Livni seçildi. Hökumət koalisiyasını formalaşdıra bilməyən Tsipi Livni prezident Ş.Peresə yeni hökumətin formalaşdırılması üçün müraciət etdi. Şimon Peres də növbədən kənar seçkilərin 2009-cu ilin fevral ayının 10-da keçirilməsinə qərar verdi [37,207].

Seçkilər nəticəsində Kadima partiyası 1 səslə Likud partiyasını qabaqlasa da, Ş.Peres hökuməti formalaşdırmağı məhz B.Netanyahoya tapşırdı. Bu təklifi qəbul edən B.Netanyaho milli birlik hökuməti yaratmaq üçün mərkəzçi Kadima partiyasının lideri Tsipi Livniyə və solçu Avoda partiyasının rəhbəri Ehud Baraka müraciət etdi. O bildirirdi ki, İsrailin üzləşdiyi çətinliklər qarşısında birgə mübarizə aparmaq üçün milli birliyin yaradılması vacibdir, lakin fələstinlilərlə sülh prosesini dəstəkləyən Tsipi Livni B.Netanyahonun koalisiya təklifini qəbul etmədi [53]. Ehud Barak isə öz növbəsində ilk əvvəl təklifi rədd etsə də, sonradan geniş koalisiyanın dövlətin xeyrinə olacağını bildirərək onu qəbul etdi.

İkinci dəfə hakimiyyət başına keçən B.Netanyaho ətrafında ultra-ortodoks (dini), qatı sağçı və sol-mərkəzçi partiyalardan ibarət koalisiya formalaşdıra bildi. Yeni koalisiyanın siyasi xəttində kardinal dəyişiklər olmasa da, aşırı sağ meyllər güclənmişdi. ŞAS partiyası, Aviqdor Libermanın rəhbəri olduğu Evimiz İsraildir partiyası B.Netanyahonun koalisiyasına daxil oldular.

B.Netanyahonun ikinci hakimiyyəti dövründə onun hökumətinə daxil olan partiyalar güzəştə getməyə meylli deyildilər. Nə A.Libermanın partiyası, nə dini

partiyalar, nə də Likudun öz ideologiyasında İsrailin bir qarış torpağının belə Fələstinə verilməsi qəbul edilməz idi. Bununla belə, B.Netanyaho tarixə münaqişəni İsrailin xeyrinə həll etmiş siyasətçi kimi düşmək istəyirdi.

Uzun müddət Oslo danışıqlarına qarşı çıxan B.Netanyaho "iki-dövlətin qurulması" təklifini rədd edirdi. Fələstin dövlətinin qurulmasını heç bir halda qəbul etmirdi, lakin "davamlı sülhün" bərqərar olmasını dəstəkləyən B.Netanyaho Fələstinlə sülh üçün, təhlükəsizlik üçün, Fələstin iqtisadiyyatının inkişafı üçün əməkdaşlıq etməyə hazır olduqlarını vurğulamışdı. Fələstinə torpaq güzəşti yerinə, onunla "iqtisadi sülh"ə nail olmağın vacibliyini bildirirdi. O, Ehud Olmert hökumətinin əraziləri boşaltmaqla bağlı öz üzərinə götürdüyü öhdəlikləri icra etməyəcəyini və yeni yaşayış məskənlərinin salınması prosesini davam etdirəcəyini Knesset qarşısındakı çıxışında açıq şəkildə bildirmişdi [66].

B.Netanyaho Fələstinlə münasibətlərin bərpa edilməsində gələcək üçün heç bir fayda görmürdü. O, bildirirdi ki, Fələstin də buna cəhd göstərməyənə qədər İsrailin birtərəfli şəkildə münasibətləri tənzimləmə cəhdləri öz faydasını verməyəcək. Münaqişənin tənzimlənməsi üçün iki yanaşma mövcud idi. Birincisi o idi ki, İsrail yəhudi yaşayış məskənlərini boşaltmaq və İordan çayının Qərb sahilini tərk etmək istəmir, buna görə də Fələstinlə hər hansı razılığa gələ bilmirdi. Digəri isə, iki xalq üçün iki dövlət prinsipi əsasında Fələstinlə müqavilənin imzalanması idi. Hökumət birinci yanaşmanı üstün tuturdu.

2008-ci ildə ABŞ-da prezident seçkilərinin nəticələri İsrail üçün də vacib idi. İsraildə qurulan hər yeni hökumət ABŞ-la münasibətlərin qorunub saxlanmasına xüsusi fikir verir. Buna görə də, ABŞ-da hakimiyyətdə baş verən istənilən dəyişiklik İsrailin bu dövlətlə münasibətlərinə təsir edir. 2008-ci il seçkilərində qalib gələn Barak Obamanın seçki öncəsi kampaniyasında əsas yerlərdən birini müsəlman dövlətləri ilə münasibətlərin bərpa edilməsi tuturdu. O, Amerikanın dünya liderliyini dialoq və diplomatiya yolu ilə bərpa etməyi hədəfləmişdi.

Prezident seçildikdən sonra B.Obamanın Yaxın Şərqlə bağlı ən böyük planlarından biri də danışıqlar yolu ilə Fələstin dövlətinin qurulmasına nail olmaq idi,

lakin B.Netanyaho bunun əleyhinə çıxış edirdi. B.Netanyahonun öz koalisiyasına solçu Avoda partiyasını daxil etməsi ABŞ-da gələcək danışıqlar üçün ümid yeri yaradırdı. Danışıqların tənzimlənməsi prosesində xüsusi narahat edici məsələlərdən biri də, İsrail hökumətinin yəhudi yaşayış məskənlərinin salınması istiqamətində yürütdüyü siyasətlə bağlı idi. Məhz bu məsələ 2009-cu ilin may ayında rəsmilər arasında keçirilən görüşdə müzakirə mövzusu olmuşdu. İsrailin yaşayış məskənləri ilə bağlı siyasətinə qarşı çıxan Corc Mitçelin ABŞ prezidentinin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi təyin edilməsi bu baxımdan B.Netanyahonu narahat edirdi. B.Netanyaho C.Mitçelin mövqeyinin ABŞ-ın rəsmi mövqeyi olacağından ehtiyatlanırdı. B.Obama ilk görüş zamanı B.Netanyahodan məhz bu prosesin tamamilə dondurulmasını istədi. B.Obama administrasiyasının fikrincə, Fələstin torpaqlarının İsrail ordusunun nəzarətində saxlanılması onların dövlət qurma şansını azaldırdı.

Görüşdə növbəti müzakirə mövzusu İranın nüvə proqramı məsələsi idi. İsraildə bütün siyasətçilərin birmənalı şəkildə konsensusa gəldikləri məsələlərdən biri də, heç şübhəsiz, İranın nüvə proqramıdır. İran kosmosa Avropa və yaxud İsrail üzərinə nüvə silahı atmaq iqtidarında olan süni peyk göndərib. Bu da İsrail üçün ən böyük hədələrdən biridir. Belə ki, İran rəsmiləri öz çıxışlarında dəfələrlə İsraili xəritədən siləcəkləri ilə hədələmişlər. Corc Buş hökuməti İranın bu proqramına qarşı ciddi bir addım atmamışdı [90, 5]. Buna görə də, B.Netanyaho İran məsələsində Barak Obamanı inandırmağa çalışırdı ki, İran rejiminə qarşı sərt mövqe Yaxın Şərqdə normal münasibətlərin qurulmasında, o cümlədən, Fələstinlə münasibətlərin nizamlanmasında vacib elementlərdən biridir. B.Obama da cavabında bildirirdi ki, əgər münaqişənin həlli istiqamətində proqres olarsa, onda İsrailin də iştirak edəcəyi və bir neçə ərəb dövlətinin də daxil olacağı regional koalisiya vasitəsi ilə İrana qarşı mübarizə aparmaq mümkün olacaq.

Görüşdən sonra hər iki tərəf anlayırdı ki, gələcək münasibətlər heç də əvvəlki axarda getməyəcək və kiçik problemlər öz miqyasını hər an dəyişə bilər. Prezident B.Obamanın Yaxın və Orta Şərqlə bağlı yeni siyasətinin əsaslarını elan etdiyi Qahirə

çıxışında (4 iyun 2009-cu il) Fələstin-İsrail münaqişəsinə də ayrıca yer vermişdir.İsrail Dövləti ilə tarixi dost münasibətlərini bir daha diqqətə gətirən B.Obama Fələstinin də maraqlarına etinasız yanaşmayacaqlarını bildirmişdi. Fələstin dövlətinin qurulmasının vacibliyini vurğulayan prezident, münaqişənin tənzimlənməsi üçün HƏMAS-ın öz terrorçu mövqeyindən geri çəkilməli olduğunu bildirirdi. İsrail də öz növbəsində üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməli, yaşayış məskənlərinin salınmasını dayandırmalı idi [81].

B.Obamanın Qahirə çıxışına münasibət birmənalı olmadı. Maagar Mochot araşdırma İnstitutunun apardığı sorğuya əsasən əhalinin yarıdan çox faizi B.Obamanın siyasətinin İsraildən çox Fələstin və ümumilkdə ərəb dünyasına meyilli olduğunu və B.Netanyahonun öz mövqeyindən geri çəkilməli olmadığı fikrində idi [60]. İyunun 14-də B.Netanyaho B.Obamaya cavabı olaraq Bar-İlan Universitetindəki çıxışında sülhün vacibliyini vurğulamışdı. Həm ərəb dövlətlərinə, həm də Fələstinə müraciət edərək danışıqlara hazır olduqlarını elan etmişdi. HƏMAS terroru dayandırmalı, fələstinlilər ya sülh, ya da HƏMAS arasında seçim etməlidirlər. Fələstin tərəfindən İsrailin dövlət kimi tanınması, İsrailin təhlükəsizliyi üçün Fələstin ərazisinin hərbsizləşdirilməsi, Qüdsün İsrailin vahid və bölünməz paytaxtı olaraq qalması baş nazirin çıxışının əsas məqamlarından idi [42]. Bu çıxış iki illik fasilədən sonra sülh yolunda atılmış ilk addım hesab olunurdu.

B.Netanyahonun Bar-İlan çıxışı ABŞ-İsrail münasibətlərində gərginliyin azalmasına gətirmədi. 2009-cu ilin sentyabrında BMT BA iclasında münaqişə tərəflərinin görüşü keçirildi. B.Obamanın səylərinə və təzyiqlərinə baxmayaraq görüş heç bir nəticə vermədi. Noyabrın 25-də B.Netanyaho hökuməti İordan çayının Qərb Sahilində yaşayış məskənlərinin salınmasının 10 ay müddətinə dondurulması barədə qərar qəbul etdi. Bu, hökumətin sülhə nail olmaq istəyi ilə izah olunurdu. Dondurulma prosesi Şərqi Qüdsə, infrastruktura, məktəblərə, sinaqoqlara və artıq tikintisi başlanan mənzil və binaların tamamlanmasına aid edilmirdi [94].

2010-cu ilin əvvəllərində İsrail və Fələstin tərəfləri ABŞ-ın təzyiqi və Mitçellin iştirakı ilə birbaşa danışıqların başlanmasına razılıq verdilər. Vitse president Cozef

Baydenin İsrailə səfəri zamanı İsrailin daxili işlər naziri Eliyahu Yişainin (Şas) Ramat Şlomoda (Şərqi Qüds) 1600 yeni evin tikintisi haqqında elan verməsi iki ölkə arasında diplomatik qalmaqala səbəb oldu. Dövlət katibi Hillari Klinton B.Netanyaho ilə telefon danışığında narazılığını gizlətməyərək, tikintinin dərhal dayandırılmasını tələb etdi. Bunun ardından, daxili işlər naziri səbəb olduğu insidentə görə üzr istədi.

Mart ayında liderlərin Vaşinqtonda keçirilən görüşü B.Obama və B.Netanyaho arasındakı gərginliyin pik həddə olmasının göstəricisi idi. Heç bir foto çəkilişə, bəyanata, hətta salamlama çıxışına belə yer verilməyən görüş B.Obamanın C.Bayden insidentinə münasibətinin göstəricisi idi. B.Obama görüşü yarıda saxlayaraq zalı tərk etmiş və bu görüşdə də tərəflər qarşılıqlı anlaşmaya nail ola bilməmişdilər [105].

Bir çoxları danışıqların nəticəsiz qalmasında Amerika prezidentini günahlandırırdı. Bu iki liderin xarici siyasətə yanaşması da fərqlənirdi. B.Obama yumşaq gücə əsaslanan liberal siyasət yürüdürdü. O, Fələstin Milli Administrasiyası və İsrail arasındakı danışıqlar prosesindən maximum nəticə əldə etməyə çalışırdı. B.Netanyaho isə əksinə, münaqişəyə daha konservativ yanaşırdı. O, İsrailin hər hansı güzəşt etməsinə qarşı çıxırdı.

Aprelin sonunda ABŞ dövlət katibi Hillari Klinton Ərəb Liqasının növbəti görüşündə danışıqları bərpa edəcəyi barədə açıqlama verdi. Görüş may ayının 9-da baş tutdu və Ehud Olmertin istefasından bu yana keçirilən ilk rəsmi görüş idi. Görüşdə hər iki tərəf öz mövqeyində qətilik nümayiş etdirirdi. Mahmud Abbas Qərb Sahili və digər işğal olunmuş ərazilərdə daha çox güzəştə nail olmaq istəyirdi, B.Netanyaho isə terrorun dayandırılmasını tələb edirdi. Mavi Mərmərə gəmisində yaşananlar danışıqların kəsilməsinə səbəb oldu. Danışıqlar prosesindən çıxarılmış Qəzzaya yardım daşıyan və Türkiyəyə məxsus Mavi Mərmərə gəmisi ilə bağlı insident İsrailin beynəlxalq nüfuzuna ciddi təsir etmişdi. Qəzzanın 2005-ci ildən sonra İsrail tərəfindən blokadaya alınması Qəzzada humanitar və iqtisadi vəziyyəti pisləşdirmişdi. 2010-cu ilin may ayının 30-dan 31-nə keçən gecə Qəzzaya humanitar yardım daşıyan altı gəmidən ibarət karvana İsrail Müdafiə Qüvvələrinin

hücumu nəticəsində 9 nəfər öldürülmüş, 30 nəfər isə yaralanmışdır. Hadisə beynəlxalq aləmdə İsrailə qarşı etirazların meydana gəlməsi ilə nəticələnmişdi. Baxmayaraq ki, ABŞ bu insidentlə bağlı verilən bütün qətnamələrə veto qoyurdu, İsrail beynəlxalq arenada təcrid olunmuş vəziyyətdə idi, bu da onun "güzəştə getməmək" mövqeyinin yumşalmasına gətirib çıxartdı.

Öz növbəsində Mahmud Abbas da iyulda B.Obama ilə görüşündə razılığa gələ biləcəyinə ümid edirdi. O, Fələstində 1967-ci il sərhədləri əsasında dövlət qurulacağı halda Qərb Sahilinin 2,3 % ərazisindən ərəb yaşayış məskənlərinin boşaldılmasına razı olacağını bildirmişdi. Razılığa əsasən, Quş Etzion, Pisqat Zeev və Modiun şəhərlərindəki yaşayış məskənlərinin əvəzinə Qərb Sahilinin cənubunda, eyni ölçüyə uyğun ərazini Fələstin Administrasiyası geri alacaq, Şərqi Qüdsdə Qədim Şəhərin qalan hissəsi isə qurulacaq Fələstin dövlətinin paytaxtı olacaqdı [51].

Əvvəllər qəbul edilmiş öhdəliklər əsasında birbaşa danışıqlara getməyəcəyini bildirən B.Netanyaho mövqeyini dəyişdi. Danışıqların keçirilməsi sentyabr ayına planlaşdırıldı. Bu, ABŞ və İsraildə hakimiyyət dəyişikliyindən sonra münaqişənin tənzimlənməsi istiqamətində keçirilən ilk birbaşa danışıqlar olacaqdı. Danışıqlar vacib məsələlər üzrə kompromisin əldə edilməsi məqsədi daşıyırdı və bir il ərzində davam etməli idi.

2010-cu il sentyabrın 2-də Vaşinqtonda danışıqların ilk mərhələsi öz işinə başladı. Birbaşa danışıqların başlaması Hebron şəhərinin yaxınlığında dörd israillinin ölümü ilə nəticələnən qətllə kölgə altına alındı. Hər iki lider öz nitqində baş vermiş qətl hadisəsini pisləyir və bunun danışıqları dayandırmağa çalışan ekstremistlərin fəaliyyəti olduğunu bildirdilər. Bu cür hadisələrin prosesə mane olmasına imkan vermək olmazdı. Tərəflər arasındakı birbaşa danışıqlar zamanı, hər ikisi üçün vacib olan əsas məsələləri vurğuladılar: Fələstin üçün bu, yaşayış məskənləri və sərhədlər məsələsi idi; İsrail üçün isə, təhlükəsizliklə yanaşı İsrailin Yəhudi dövləti kimi tanınması məsələsi idi.

Danışıqların ikinci mərhələsi sentyabrın 14-də Şarm əl-Şeyxdə keçirildi. Bu görüş zamanı torpaq mübadiləsi üzrə razılıq əldə olundu. Ancaq 2009-cu ilin

noyabrın 25-də İsrail hökumətinin İordan çayının Qərb Sahilində yaşayış məskənlərinin salınması prosesini 10 aylıq müddətə dondurması ilə bağlı verdiyi qərarın qüvvədə olma müddətinin bitməsinə az vaxt qalmışdı və İsrail bu prosesi uzatmayacağının siqnallarını əvvəldən vermişdi. Mahmud Abbas əgər B.Netanyaho prosesi uzatmasa danışıqları dayandırıcağı ilə hədələyirdi [47]. Amerika administrasiyası hər iki tərəfə təzyiqlər etməkdə davam edirdi. B.Obama 3 milyard dollar hərbi yardım paketi və BMT TŞ-də veriləcək istənilən qətnaməyə veto qoymaq qarşılığında B.Netanyahodan dondurma prosesini daha 3 aylıq müddətə uzatmağı istədi [34, 328]. Fələstinin, ABŞ-ın və beynəlxalq qüvvələrin təzyiqinə baxmayaraq, B.Netanyaho dondurma prosesini uzatmadı. Bununu müxtəlif səbəbləri var idi. Birincisi, əvvəldə də qeyd olunduğu kimi nə B.Netanyaho, nə də onun koalisiyasına daxil olan hər hansı bir partiya buna qəti şəkildə razı deyildi. Onlar bu cür addımları antiyəhudi addım hesab edirdilər. İkincisi isə, Knessetin sentyabrın 22-də bu ərazilərin statusu ilə bağlı verdiyi qərar idi. Bu qərara əsasən, Şərqi Qüds və Qolan təpələrinin İsrailin nəzarətindən çıxarılması üçün ümumxalq referendumu keçirilməli və Knessetin 60-dan çox üzvünün razılığı olmalı idi.

B.Netanyahonun məskunlaşma prosesini dayandırmaması beynəlxalq ictimaiyyət tərəfindən də tənqid olunurdu. Aİ-nin xarici işlər üzrə rəhbəri Katerin Eşton sülh prosesinin durğunluq vəziyyətindən çıxması üçün B.Netanyahonun dondurma prosesini uzatmağın vacib olduğunu bildirdi [67]. BMT də öz növbəsində sülh danışıqlarının dayandırılmasından təəssüfləndiyini bildirirdi. BMT Baş Katibinin siyasi məsələlər üzrə assistenti Oskar Fernandez Taranko İsrailin Şərqi Qüdsdəkı Ramos və Pisqat Zeevdə yəhudi yaşayış məskənlərində 238 yeni evin tikintisinə başlamasını beynəlxalq hüququn pozulması kimi qiymətləndirir və BMT, Aİ, ABŞ və Rusiyanın Yaxın Şərq münaqişəsinin həlli üçün göstərdikləri cəhdlərə təzad təşkil etdiyini vurğulayırdı [38].

Oktyabrın 2-də Fələstin prezidenti Mahmud Abbas İsrailin yaşayış məskənlərinin salınması prosesini dayandırmadığı müddətdə sülh prosesinin davam etməyəcəyini bildirdi. Bu, faktiki olaraq danışıqlar prosesinin bitməsi demək idi.

2010-cu il Fələstin-İsrail danışıqları gözlənilən nəticələri vermədi. B.Netanyahonun birinci hökumətində olduğu kimi, ikinci hökumətinə də Fələstinlə danışıqlara qarşı çıxan sağçı partiyalar daxil olmuşdular. Onların mövqeyi B.Netanyaho üçün çox vacib idi. 10 aylıq dondurma prosesini uzatmaması da məhz koalisiyanın dağılması ehtimalından irəli gəlirdi.

Digər bir səbəb isə, B.Netanyaho İsrailin Fələstin tərəfindən tanınmasını istəyirdi. Bunu əsas şərtlərdən biri kimi irəli sürmüşdü, lakin Fələstin hər bir halda İsrailin tanınmasını rədd edirdi, çünki tanınma məcburi köçkünlərin öz torpaqlarına qayıtması ehtimalını heçə endirirdi.

Yaşayış məskənlərinin salınması isə danışıqlarda əsas dönüş nöqtəsi idi. B.Obama hökuməti də məhz B.Netanyahodan bu prosesin dayandırılmasını tələb edirdi. B.Netanyaho isə əvəzində şərt qoyurdu: əgər Fələstin İsraili "yəhudi dövləti kimi tanısa, o zaman, bu məskunlaşma prosesi tamamilə dayandırılacaq." Öz növbəsində, Fələstin də, 1967-ci il sərhədləri çərçivəsində Fələstin dövləti qurularsa İsraili yəhudi dövləti kimi tanıyacağını bildirirdi. Hər iki tərəf bir-biri üçün ən qəbuledilməz şərtləri irəli sürürdü.

Barak Obamanın hakimiyyəti illəri ABŞ-İsrail münasibətlərinin ən gərgin illəri olaraq xarakterizə edilə bilər. B.Netanyahonun ABŞ-dan asılılığı azaltmaq cəhdləri B.Obamanın təzyiq imkanlarını məhdudlaşdırırdı. Öz xarici siyasətində müsəlman dövlətləri ilə münasibətlərin bərpa edilməsini əsas prioritet görən B.Obamanın münaqişəni həll etməyə çalışması səbəblərindən biri də, ərəb dövlətləri ilə olan əlaqələri idi. Ərəb dövlətləri ABŞ-ın İsrailə təzyiq etməsi üçün B.Obamaya müraciət edirdilər.

ABŞ prezidentinin İsrailə qarşı , xüsusən də, baş nazirə qarşı sərt mövqeyi İsrail cəmiyyətində ikili münasibətlərə yer açmışdır. ABŞ üçün Fələstin dövlətinin qurulması İsrailin təhlükəsizliyindən daha vacib kimi görünürdü. Bir çox analitiklər B.Obamanın fələstinlilərə olan xoş münasibətini inkar etmirdilər. Onun amerika-ərəb tarixçisi E.Səidlə və Fələstin-İsrail tarixçisi R.Xalidi ilə dost münasibətləri bunu sübut edirdi. Bu isə ABŞ-ın İsrail qarşısında götürdüyü öhdəliklərin icrasından

dönməsi mənasına gəlirdi. Digər tərəfdən, onu dəstəkləyən və İsrail hökumətinin siyasətini sərt tənqid edən yəhudi əsilli köməkçiləri də az deyildi. Misal üçün, Obamanın yaxın məsləhətçisi, D.Akselrod Baydenin səfəri zamanı 1600 evin tikilməsi barədə verilən qərarı ABŞ üçün "təhqir" hesab etmişdi.

Təbii ki, terror faktı da danışıqların baş tutmamasında az rol oynamırdı. İstər B.Netanyaho, istərsə də B.Obama administrasiyası terror aktlarının dayandırılmasını tələb edirdilə, lakin Fələstinin daxilində FƏTH və HƏMAS arasında gedən qarşıdırma Mahmud Abbasın manevr imkanlarını azaldırdı.

## 3.2. "Buludlu sütun" əməliyyatı

Terror faktoru istər münaqişənin gedişində, istərsə də tənzimləmə prosesində həll edilməsi ən vacib amillərdən biri idi. B.Netanyaho hələ birinci hakimiyyəti dövründə öz siyasi platformasını müəyyənləşdirərkən, İsrail və onun vətəndaşlarının təhlükəsizliyini prioritet olaraq götürmüşdü. İlk dəfə, "təhlükəsizlik müqabilində sülh" tezisini irəli sürən B.Netanyaho bildirirdi ki, əgər sülh danışıqlarında real nəticəyə nail olmaq istəyiriksə, o zaman terrora qarşı birgə mübarizə aparmalıyıq. Onun üçün daimi statusun müəyyənləşməsində əsas şərtlərdən birincisi, məhz İsrailin terror və müharibə qarşısında maksimal təhlükəsizliyinin təmin olunması idi. Bu da Fələstinin üzərinə götürdüyü terrorla mübarizə öhdəliklərinin yerinə yetirilməsi ilə mümkündür. Fələstinlə aparılan bütün sülh danışıqlarında terrordan əziyyət çəkən yəhudi ailələri nümunə göstərən B.Netanyahoya görə, terrorla mübarizə müvəqqəti, şərti olmalı deyil, İsrail və onun ərəb tərəfdaşları arasında qarşılıqlı inamın əsasını qoymuş olmalıdır. Məhz terrorla mübarizəyə səsləməsi, terrorun dəf edilməsinin vacibliyini bütün seçki öncəsi çıxışlarında vurğulaması B.Netanyahonun 1996-cı ildə Ş.Peres üzərində qələbə çalmasının səbəblərindən biri olmuşdu.

B.Netanyahonun terror mövzusunda həssas olmasının əsas səbəblərindən biri, onun da ailəsində terror qurbanının olmasıdır. 1976-cı ildə məşhur Entebbe əməliyyatında İsrail Müdafiə Qüvvələrinin podpolkovniki, Benyamin Netanyahonun

böyük qardaşı Yonatan Netanyaho terrorçular tərəfindən öldürülmüşdü. "Fələstin Xalq Azadlıq Cəbhəsi" və "İnqilab Hüceyrələri" təşkilatlarının terrorçuları tərəfindən əsir götürülmüş "Air France" hava yolları şirkətinə məxsus təyyarənin azad edilməsi zamanı Yonatan Netanyaho öldürülən yeganə İsrail hərbçisi idi. B.Netanyaho özü də dəfələrlə terrora qarşı sərt olmasının səbəbini qardaşı Yonatanın ölümü ilə əlaqələndirmişdir. Qardaşının ölümündən təsirlənən baş nazir, Yonatanın xatirəsinə həsr olunmuş "Beynəlxalq terrorizmlə mübarizə" adlı iki konfrans təşkil etmişdi. İlk konfrans 1979-cu ildə Qüdsdə keçirilmişdir. "Bir dövlətin digər dövlətə qarşı açıq müharibə əvəzinə vasitəçi müharibə etməsi beynəlxalq terrorizm adlanır. Beynəlxalq terrorizmin aradan qaldırılmasının bu qədər çətin olmasının səbəbi, müasir dövlətlərin həmin terrorçuları lazımi vəsaitlərlə təmin etməsidir... Terrorizmlə mübarizəyə mane olan iki böyük əngəldən birincisi hədənin təbiəti, digəri isə onun necə dəf edilməsinin anlaşılmasıdır.." [95, 115].

Bu istiqamətdə B.Netanyaho "Beynəlxalq terrorizm: çağırış və cavab" (1981), "Terrorizm: Qərb dünyası necə qalib gələ bilər?" (1987), "Terrorizmlə mübarizə: demokratiya necə daxili və beynəlxaq terrorizmin üzərində qalib gələ bilər?" (1995), "Davamlı sülh: İsrail və onun xalqlar arasındakı yeri" (1999) adlı kitablarını yazmış, 1978-ci ildə isə "Yonatan Netanyaho adına Anti-Terror İnstitutu"-nun əsasını qoymuşdur. Terrorla mübarizədə heç bir zaman təslim olmaq olmaz deyən B.Netanyaho, güclü kəşfiyyat orqanı, yaxşı təşkil olunmuş xəbərdarlıq sistemləri və düzgün təlim görmüş şəxslərin köməyi ilə terrorun qarşısını almağın mümkün olduğunu bildirir. Terrora yalnız əməliyyat sahəsində deyil, psixoloji olaraq da qalib gəlmək lazımdır. Beynəlmiləlləşmiş terrora qarşı beynəlxalq səviyyədə də mübarizə aparılmalıdır [70].

1984-cü il Vaşinqtonda Yonatan İnstitutu tərəfindən, B.Netanyahonun rəhbərliyi altında Beynəlxalq terrorizm mövzusuna həsr olunmuş ikinci konfrans təşkil olundu. Konfransın məqsədi diqqəti beynəlxalq terrorizmin demokratik cəmiyyətlərə təsiri üzərinə cəlb etmək, müasir terrorun əsl təbiətini öyrənilmək, beynəlxalq terror hərəkatlarının məğlub edilməsi üçün təkliflər irəli sürülməkdən

ibarət olmuşdur. Konfransda ABŞ dövlət katibi Georg Şultz, İsrail Baş Naziri İshaq Rabin, ata Corc Buş, Daniel Patrik Moynikan kimi rəsmilərin iştirak etməsi bu tədbirlərin əhəmiyyətini daha da artırırdı [108].

Terror mövzusu B.Netanyaho hökumətinin Fələstinlə danışıqlar prosesində hər zaman irəli sürdüyü əsas şərtlərdən biri olub. 2009-cu ildə B.Netanyaho yenidən baş nazir seçildikdən sonra da terrora qarşı mübarizəni davam etdirmişdir. Bunu həm Uay memorandumunda, həm də 2010-cu il danışıqlar prosesində görmək olar. İranın nüvə proqramına qarşı çıxan B.Netanyaho İranı HƏMAS və Hizbullah kimi terror təşkilatlarından İsrailin məhv edilməsi üçün istifadə etməkdə günahlandırırdı. İranın Qəzza və Livan ərazilərində, İsraili davamlı atəşə tutan terror təşkilatları üçün siyasi sığınacaq yaratması fikri də B.Netanyahoya məxsusdur. Həm region, həm də dünya üçün təhlükə hesab etdiyi İranın nüvə proqramının qəbul edildiyi halda, bunun İsrailin gələcək təhlükəsizliyi üçün hədə olacağını da vurğulayırdı [92].

B.Netanyahonun da qeyd etdiyi kimi, İran həqiqətən HƏMAS-ı dəstəkləyən ölkələrdən biridir və onlar arasında əlaqələr mövcuddur. Bu əlaqələrin başlanğıcı 90-cı illərə gedib çıxır. HƏMAS lideri 1990-cı ilin dekabrında İrana etdiyi rəsmi səfər zamanı Tehranın Birinci İntifadada Fələstini dəstəklədiyini elan etmişdi. 1987-ci ildə fələstinlilərin İsrailə qarşı dinc mübarizə vasitəsi olaraq başlayan Birinci İntifada 1993-cü il Oslo müqavilələri imzalananadək davam etmişdir. İranın İsraili məhv etmək istəyi və HƏMAS-a ayırdığı maliyyə yardımları sayəsində onlar arasında əlaqələr getdikcə inkişaf etmişdir. İranın dəstəyi yalnız maliyyə yardımı ilə kifayətlənmir, o, həmçinin, maddi silah-sursatla da HƏMAS-ı təmin edir. HƏMAS İrandan aldığı dəstəklə İsrail ərazisində terror aktları törədir.

Qəzzada terror təşkilatlarının əsaslı fəaliyyəti İsrailin 2005-ci ildə birtərəfli şəkildə buradan geri çəkilməsi və bir il sonra HƏMAS-ın burada hakimiyyəti ələ almasından sonra başladı. HƏMAS Qəzzada keçirilən seçkilər nəticəsində hakimiyyətə gəldi. HƏMAS-ın Qəzzada hakimiyyətin başına keçməsindən sonra 2007-ci il sentyabrın 19-da İsrail buranı “düşmən ərazi” adlandırdı və Qəzzanı

iqtisadi və siyasi blokadaya aldı. Bu da, Qəzzada iqtisadi və humanitar problemlərə gətirib çıxartdı [93].

Əsas qayəsi Fələstin torpaqları üzərində siyasi nəzarəti əldə etmək və müqavimət hərəkatını davam etdirmək olan HƏMAS, Qəzzada hakimiyəti ələ keçirdikdən sonra, İsrailə qarşı 2000-ci ildən bu yana davam etdirdiyi hücumlarını intensivləşdirdi. Havadan raket hücumları, minatanlardan edilən hücumlar İsrailin mülki vətəndaşlarına və Silahlı qüvvələrinə, xüsusən də , ölkənin cənub bölgələrinə yönəlmişdi. İsrail illərlə davam edən basqınlardan öz vətəndaşlarını qorumaq üçün müxtəlif vasitələrə əl atsa da, nəticə əldə olunmurdu.

Qəzzadan geri çəkildikdən sonra İsrailin burada həyata keçirdiyi hərbi əməliyyatların məqsədi arası kəsilməyən hücumların qarşısını almaq idi. Havadan raket hücumlarının kəskinləşməsi 2008-ci ilin dekabrında İsraili "Tökmə qurğuşun" əməliyyatını keçirməyə vadar etdi. Ümumilikdə, HƏMAS Qəzzada hakimiyyəti ələ keçirdikdən sonra İsrail tərəfindən burada geniş miqyaslı üç əməliyyat keçirilmişdi. Onlardan ikisi Netanyahonun hakimiyyətdə olduğu dövrdə baş vermişdi.

"Tökmə qurğuşun" əməliyyatı zamanı HƏMAS İrandan yardım alırdı. İran onun qaçaqmalçılıq yolu ilə silah əldə etməsinə kömək edirdi, ərazisində təlimlər keçirmək üçün yer ayırırdı, partlayıcı maddələrin hazırlanması üçün texnoloji sahədə biliklərlə təmin edirdi və ən əsası maddi yardımını əsirgəmirdi. "Tökmə qurğuşun" əməliyyatı Qəzzada İsrail, HƏMAS və digər qruplaşmalar arasında baş verən ilk toqquşma idi. "Tökmə qurğuşun" əməliyyatı 1500-ə yaxın fələstinlinin və 13 israillinin ölümü və Qəzzanın infrastrukturuna zərər vurulması ilə nəticələnmişdi. İsrailin, ardınca da HƏMAS-ın atəşkəs elan etməsi ilə əməliyyat bitmiş oldu. İki tərəf arasında formal atəşkəs elan edilsə də, heç bir tərəf buna əməl etmirdi və bu da silahlı toqquşmaların davam edəcəyinə işarə idi.

İsrail və HƏMAS arasında gərginlik davam edirdi. Hər iki tərəf qarşılıqlı şəkildə bir-birinin ərazisini atəşə tutur və hər iki tərəfdə itkilərin sayı getdikcə artırdı. 2012-ci ilin oktyabrına olan hesabatda HƏMAS tərəfindən İsrail ərazisinə 92 fərqli hücumun

edildiyi qeyd olunmuşdu. Aramsız atışmalar növbəti iri miqyaslı əməliyyatın keçirilməsini qaçılmaz edirdi.

"Buludlu sütun" adını almış növbəti genişmiqyaslı əməliyyat 2012-ci il noyabrın 14-də HƏMAS-ın hərbi qanadının rəhbəri Əhməd Cəbarinin öldürülməsi ilə başladı. İsrail tərəfi bildirirdi ki, bu əməliyyat 24 saat ərzində dayanmadan İsrail ərazisinə atılan 100-dən çox raket zərbəsinə cavabdır.

İsrailin bu əməliyyatı başladarkən qarşısına qoyduğu məqsədlər bəlli idi. Müdafiə naziri Ehud Barakın qeyd etdiyi kimi, məqsəd ilk olaraq İsrailin HƏMAS və Qəzzadakı digər qruplaşmalara qarşı müqavimətini gücləndirmək, bir sıra strateji imkanlara çıxışı HƏMAS və digərləri üçün bağlamaq və ən əsası, İsrail vətəndaşlarının normal yaşayışını bərpa etmək idi. Baş nazir B.Netanyaho kabinet qarşısındakı çıxışında bildirmişdi ki, HƏMAS-ın törətdiyi əməllərə qarşı İsrailin cavabı kəskin olacaq. B.Netanyaho əlavə olaraq qeyd edirdi ki, İsrail Müdafiə Qüvvələri (İMQ) Qəzzadakı terror təşkilatlarının fəaliyyətinə qarşı amansız davranacaq və dünya İsrailin üzləşdiyi bu terror hücumları qarşısında onun boş durmayacağını anlamalıdır.

Növbəti əməliyyata başlamazdan öncə hərbi və təhlükəsizlik orqanlarının rəhbərləri ilə, o cümlədən Ehud Barak və İsrail Müdafiə Qüvvələrinin rəhbəri Gen. Benni Qantzla məsləhətləşmələr aparan B.Netanyaho eyni zamanda beynəlxalq dəstəyi əldə etmək üçün xarici ölkələrin İsraildə akkreditasiya olunmuş səfirləri ilə də görüşlər keçirirdi [58].

İsrail Müdafiə Qüvvələri (İMQ) əməliyyatın ilk beş günündə HƏMAS-ın Qəzzadakı 800-yə yaxın hədəfini, o cümlədən, İran istehsalı olan uzaqmənzillli Fajr-5 raketlərini, yeraltı reaktiv qurğularını məhv etmişdi. Qəzzadakı silahlı qüvvələr də İsrailin Beerşeva, Aşdod, Ofakim şəhərlərini atəşə tutmuş, o cümlədən, Tel-Əviv və Qüds şəhərlərini də hədəfə almışdılar. Fələstin tərəfdə isə itkilərin sayı İsraillə müqayisədə daha çox idi. Misal üçün, İsrail tərəfdən üç mülki şəxs öldürülmüş və üç əsgər yaralanmışdısa, Fələstində həlak olanların sayı 60-a çatmışdı. Onların da yarıdan çoxu HƏMAS-ın üzvləri idi.

İsrailin "Dəmir günbəz" raketdən müdafiə sistemi 130-a yaxın hücumun qarşısını ala bilmişdi. Bu da İsrailin müdafiə sisteminin güclü təşkil olunduğunu göstərirdi. İsrail çalışırdı ki, HƏMAS-ı tamamilə məhv etsin, lakin Misir və Tunisin siyasi dəstəyi ilə HƏMAS mövqeyindən geri çəkilmirdi. Əməliyyat sırasında Misirin baş naziri Hişam Qandil Fələstin xalqı ilə həmrəylik nümayiş etdirmək üçün əraziyə səfər etmişdi. Baş nazirin səfəri ilə əlaqədar üç saatlıq atəşkəs elan olunmuşdu. Əməliyyat davam etdiyi bir vaxtda Qahirədə HƏMAS və Fələstində İslami Cihadı təşkilatlarının əməkdaşlığı barədə və Misirin rəhbərliyi ilə atəşkəsə nail olmaq üçün mexanizm hazırlanmağa başlanmışdı [71].

İsrailin hücumları zamanı jurnalistlərin məskunlaşdıqları iki binanın vurulması və yeddi ərəb jurnalistin yaralanması etirazlara səbəb olmuşdu. Bununla bağlı, Sərhədsiz Jurnalistlər BQHT hücumları pisləyən bəyanat yaymışdı. Sərhədsiz Jurnalistlər BQHT-nin direktoru Kristof Deloir hücumları informasiya azadlığına hədə kimi qiymətləndirmiş, hətta məqsəd HƏMAS terror qruplaşması qüvvələrinin vurulması olsa belə, bunun hücumlara haqq qazandırmadığını bildirmişdi. Qeyd edək ki, İMQ bu hücumun jurnalistlərin məskunlaşdıqları binaların damında yerləşən və HƏMAS-a məxsus olan rabitə qurğularının vurulması məqsədi ilə həyata keçirildiyini bildirmişdi [76].

HƏMAS tərəfindən daha çox İsrailin cənub bölgələri atəşə tutulurdu. Aşkelon şəhərinə atılan iki raketdən biri məhv edilsə də, digəri açıq sahəyə düşmüşdü. Beerşevaya atılan raket zərbələrindən biri məktəb həyətinə düşmüşdü. Ümumilikdə, HƏMAS-ın hədəfləri daha çox mülki vətəndaşlar olduğu üçün müharibənin gedişatında bu şəhərlərdə yerləşən məktəblər və digər təhsil ocaqlarının fəaliyyəti müvəqqəti olaraq dayandırılmışdı. B.Netanyaho noyabrın 20-də BMT Baş Katibi Pan Gi Munla görüşündə məktəblərin, universitetlərin atəşə tutulmasına toxunaraq bildirmişdi ki, mülki vətəndaşları hədəfə almaq və onların arxasında gizlənmək müharibə cinayətkarlığını ikiqat artırır. Beynəlxalq ictimaiyyət bu fəaliyyətin qanunsuz olduğunu göstərmək istəyirsə, o zaman İsrailin haqlı hücumlarını dəstəkləməli və bu istiqamətdə həlledici addımlar atmalıdır [72].

"Buludlu sütun" əməliyyatı 8 gün davam edərək, 2012-ci il noyabrın 21-də İsrail və HƏMAS silahlı qüvvələri arasında hərbi əməliyyatların dayandırılması haqqında atəşkəs razılaşmasının əldə edilməsi ilə sona çatdı. Atəşkəs Misirin vasitəçiliyi və ABŞ-ın iştirakı ilə baş tutdu. Razılaşmanın bəndləri Misirin xarici işlər naziri Məhəmməd Kamal Əmr tərəfindən ABŞ dövlət katibi Hillari Klintonun iştirakı ilə keçirilən birgə mətbuat konfransında açıqlandı. Gəlinən razılığa əsasən, İsrail və HƏMAS bir-birinə qarşı düşmən münasibətlərini dayandırmalı və 24 saat ərzində daha geniş anlaşmanın əldə edilməsi üçün danışıqlar prosesinə başlamalı idilər. Danışıqlar prosesində isə Qəzzanın blokadadan çıxarılması müzakirə olunmalı idi. Qəzzada insanların və əmtəənin yerdəyişməsi yüngülləşdirilməli, sərhədyanı rayonlardakı sakinlərin sərbəst hərəkəti mümkün olmalı idi. Misir tərəflərin atəşkəsə əməl edəcəklərinə dair onlardan zəmanət almalı idi. Sonda həm İsrail Dövləti, həm də HƏMAS və Fələstində İslami Cihad terror təşkilatları hərbi əməliyyatları dayandırdıqları barədə məlumat verdilər.

Baş nazir Benyamin Netanyaho İsrail hökumətinin mətbuat bürosunda verdiyi açıqlamada "Buludlu sütun" əməliyyatının bitdiyini və İsrailin əməliyyat zamanı əldə etdiyi nailiyyətləri sadaladı. Əməliyyat sırasında terror təşkilatlarının yüksək rütbəli komandirlərinin öldürülməsi, İsrailin cənubuna və mərkəzinə istiqamətlənmiş raketlərin məhv edilməsi, HƏMAS-ın iqamətgahlarının dağıdılması, ABŞ və beynəlxalq ictimaiyyətin dəstəyi İsrailin uğurları sırasında idi. Ağ ev hökuməti, öz növbəsində, atəşkəs haqqında razılaşmanın əldə edilməsindən öz məmnunluğunu bildirərək, İsrailin dövlət təhlükəsizliyinin təmin edilməsi məqsədilə ehtiyacların qarşılanacağı xəbərini vermişdi.

"Buludlu sütun" əməliyyatı zamanı İsrail ərazisinə 1400-dən çox raket buraxılmışdı, onlardan 845-i İsrail ərazisində yerə düşmüş, 6 israilli həlak olmuş, 500-ə yaxın isə xəstəxanalara yerləşdirilmişdi. Fələstində isə 161 ölü, 1200-ə yaxın yaralı olmuşdu. Qəzzaya atılan 1500 raket infrastruktura xeyli ziyan vurmuşdu.

Burada digər bir məqam, HƏMAS və Fələstində İslami Cihad təşkilatlarının da əməliyyatın nəticələrini uğurlu hesab etmələri idi. 2012-ci ilin noyabrın 21-də

HƏMAS lideri Xalid Maşal tərəfindən Qahirədə keçirilən mətbuat konfransında, İsrailin döyüş qabiliyyətinin onun mərkəzinə edilən raket hücumları vasitəsi ilə məğlub edilməsi və bunun nəticəsi olaraq, atəşkəsə razılıq verməsi hər iki təşkilatın qələbəsi kimi görülürdü. Bundan başqa, İsrailin atəşkəs haqqında razılaşmaya əməl edəcəyi halda, istər HƏMAS, istərsə də Fələstində İslami Cihad təşkilatlarının da razılaşmanın şərtlərinə riayət edəcəkləri vurğulanmışdı. Konfransda həmçinin İranın maliyyə yardımı göstərməsi və Misirin fəaliyyəti yüksək qiymətləndirilmişdi [13].

İsrail ona qonşu ərəb dövlətləri ilə hərbi əməliyyatlar apararkən, beynəlxalq faktorları da nəzərə almalıdır. "Buludlu sütun" əməliyyatına münasibətlər fərqli oldu. Qərb dünyası İsraili dəstəkləsə də, Misir, İordaniya, Türkiyə güc tətbiqini qeyri-mütənasib və hədsiz aqressiv hesab etdilər. Ümumilikdə, H.Mübarək rejimi Misirdə devrildikdən bu yana İsraillə Misir arasındakı münasibətlər yalnız iki ölkənin təhlükəsizlik sistemləri səviyyəsində aparılırdı. HƏMAS kimi terror təşkilatlarının mənəvi lideri Müsəlman qardaşlarının Misirdə hakimiyyəti ələ alması isə mövcud münasibətləri daha da pisləşdirdi. ABŞ "Buludlu sütun" əməliyyatı sırasında İsrailin özünü müdafiə məqsədi ilə hərbi əməliyyat aparmasını dəstəkləyirdi. İlk dövlət idi ki, İsraillə bu məsələdə həmrəy idi və dəstəyini inkar etmirdi. İsrail də öz növbəsində, onun həyati vacib maraqlarına daxil olan İranın nüvə proqramı məsələsində ABŞ-la kompromissə gələ bilmək üçün qısa zaman kəsiyində atəşin dayandırılmasına razılıq vermişdi. HƏMAS-la İsrail arasında hərbi toqquşmalar davam etdikcə, Müsəlman qardaşları tərəfindən İsraillə münasibətlərinə görə İordaniyaya təzyiqlər artırdı. Əməliyyatın başladığı gün, İordaniyanın informasiya naziri İsrailin aqressiv siyasətinin regionu yenidən qeyri-stabil bölgəyə çevirdiyini vurğulamışdı. Türkiyədə isə o vaxtkı baş nazir R.T.Ərdoğan İsrailin HƏMAS-ın raket hücumlarına verdiyi qarşılığı pisləyirdi. Türkiyənin birtərəfli yanaşmasına isə İsrail tərəfi reaksiya vermirdi. Aİ-nin 19 noyabr 2012-ci il tarixində verdiyi bəyanatda İsrailə edilən havadan raket hücumları kəskin şəkildə pislənirdi və İsrailin öz vətəndaşlarını müdafiəsi hüququ tanınırdı [39]. "Buludlu sütun" əməliyyatı ilə bağlı dünyanın bir

çox ölkələrində hər iki tərəfin qınaq obyektinə çevrildiyi nümayişlər keçirilmişdi. Malaziya, İndoneziya, Pakistan Türkiyə, Misir kimi dövlətlərdə keçirilən nümayişlərdə İsrailin fəaliyyəti pislənsə də, ABŞ, Birləşmiş Krallıq, Argentina, Fransa, İsveç kimi dövlətlərdə İsrailin başlatdığı əməliyyatlar dəstəklənirdi.

"Buludlu sütun" əməliyyatı Qəzzadakı terror təşkilatlarının İsrailə qarşı etdikləri silahlı hücumlara cavab olaraq başladıldı. Bu hücumlar əsasən İsrailin mülki vətəndaşlarına yönəlmişdi. İsrail əhalisini və ərazisini terror hücumlarından qorumaq üçün başlatdığı hərbi əməliyyatlar özünü müdafiə əsasında həyata keçirilirdi. Digər tərəfdən, HƏMAS və digərlərinin mülki vətəndaşları hədəfə alması artıq beynəlxalq humanitar hüququn fundamental prinsiplərinin pozulması idi. Eyni zamanda, İsrail tərəfindən də atılan raketlər nəticəsində Fələstin tərəfindən xeyli sayda mülki vətəndaşın həlak olması da artıq humanitar hüquqa zidd idi. Hər iki tərəfin bu əməliyyat zamanı fəaliyyəti BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı tərəfindən sərt şəkildə tənqid edilmişdi.

Baş nazir Ariel Şaronun 2005-ci ildə Qəzzanı tərk etməsi qərarından sonra dəfələrlə İsrailin ərazisi HƏMAS tərəfindən törədilən terrorlara məruz qalmışdı. A.Şaronun məqsədi fələstinlilərə güzəşt etməklə İsrailin təhlükəsizliyini təmin etmək idi, lakin həmin vaxtdan bu yana İsraildə vəziyyət daha da təhlükəli hal alırdı. İsrail yalnız HƏMAS-la deyil, HƏMAS-ı dəstəkləyən İranla da üz-üzə qalıb, çünki HƏMAS bu terrorları yalnız deyil, İranın dəstəyi ilə həyata keçirir. Buna görə də, Netanyaho dəfələrlə istər ABŞ-ı, istərsə də BMT-ni İranın nüvə proqramına qarşı sanksiyaların tətbiqinə çağırırdı.

Atəşkəsin əldə edilməsinə baxmayaraq, hər iki tərəfdən atışmalar davam edir. Noyabrın 21-də Tel-Əvivdə avtobusun partladılması əslində vəziyyətin nə qədər kritik olduğunun göstəricisi idi.

## 3.3. 2013-2016-cı illərdə B. Netanyaho hökumətinin Fələstin siyasəti

2010-cu il danışıqları Netanyahonun yaşayış məskənləri ilə bağlı siyasətini davam etdirməsi səbəbindən dayandırıldı. Qərb Sahili və Şərqi Qüdsdə yeni məskənlərin salınması danışıqların yarıda saxlanılmasına səbəb olmuşdu. 2012-ci ildə Qəzzada vəziyyətin gərginləşməsi isə münaqişənin gedişatında yeni danışıqlara ehtiyac yarandığını göstərirdi. Danışıqların növbəti mərhələsi Netanyahonun üçüncü hökuməti dövrünə təsadüf etdi.

Netanyahonun üçüncü hökuməti 2013-cü ilin yanvarın 22-də keçirilən seçkilərdən sonra, martın 18-də öz işinə başladı. Bu hökumətə sağ dini və sekulyar partiyalar daxil olmuşdu. “Likud-İsrail Evimizdir”, “Yəhudi Evi”, ŞAS, “Birləşmiş Tövrat Yəhudiliyi”, Tsipi Livninin başçılıq etdiyi mərkəz-solçu “Hatnuah” partiyalar üçüncü hökumətdə yer aldılar. Netanyahonun seçki öncəsi platformasında birinci yerdə İranın nüvə silahı məsələsi dayanırdı, çünki İran İsraili məhv edəcəyi ilə bağlı dəfələrlə hədələmişdi. İsrailə münasibətdə aqressiv davranan İranın nüvə silahı əldə etməsi İsrail üçün arzuolunmaz idi. İkinci əsas məsələ isə, təbii ki, Fələstin problem idi. Qərb 2010-cu ildə ABŞ-ın rəhbərliyi ilə aparılan danışıqların uğursuzluqla nəticələnməsindən sonra İsrailin Fələstinə qarşı getdikcə barışmaz xarakter alan siyasətindən narahat idi. 2010-cu ildən bu tərəfə danışıqlar prosesində hər hansı irəliləyiş olmamışdı. Əsas səbəb, İsrailin yaşayış məskənlərinin sayını artırması ilə bağlı olmuşdu. 2013-cü ilə aid olan statistik məlumatlara görə, Qərb Sahilində yaşayan yəhudilərin sayı 350 min və Şərqi Qüdsdəki yəhudilərin sayı isə artıq 300 min nəfərə çatmışdı. Fələstin tərəfi öz dövlətini qurmaq istəyirdi, lakin İsrailin Şərqi Qüdsdəki yəhudilərin sayını artırma siyasəti buna mane olan səbəblərdən biri idi. Bundan başqa, ABŞ-la münasibətlər, Hizbullah və HƏMAS tərəfindən gələn təhlükə və qonşu ərəb dövlətlərində gedən siyasi dəyişikliklər də İsrailin yeni liderinin gələcək siyasi xəttinin məzmununa təsir edirdi.

İsrail və Fələstin ictimaiyyəti, eləcə də, münaqişəni yaxından izləyənlər baş nazir Benyamin Netanyaho və prezident Mahmud Abbasın, ABŞ Dövlət Katibi Con

Kerri və prezident Barak Obamanın köməyi ilə də olsa, belə danışıqlarda irəliləyiş əldə edə biləcəklərinə skeptik yanaşırdılar. Təəssüf ki, onlar öz gümanlarında haqlı çıxdılar. Danışıqlar 2014-cü ilin aprelində dayandırıldı. Danışıqların bitməsindən sonra Qərb Sahilində əvvəlcə üç yəhudi yeniyetmənin oğurlanaraq öldürülməsi, onun ardından, buna cavab olaraq, bir fələstinli yeniyetmənin öldürülməsi 2 ay davam edən və 2000-ə yaxın fələstinlinin və 70-ə yaxın yəhudinin ölümü ilə nəticələnən "Qoruyucu sərhəd əməliyyatının" keçirilməsinə gətirib çıxartdı.

2013-cü ilin martın 20-də, ABŞ-da ikinci dəfə prezident seçilən Barak Obamanın İsrailə səfəri baş tutdu. Üç günlük səfər zamanı prezident Şimon Peres, baş nazir B.Netanyaho ilə keçirilən görüşlərdə ABŞ dövlət katibi Con Kerrinin təşəbbüsü ilə yeni danışıqlara başlanılacağı barədə məlumat verildi. Kerri danışıqların növbəti mərhələsi üçün regiona dəfələrlə səfərlər etmişdi. Nəhayət, Con Kerrinin aylarla sürən cəhdi öz bəhrəsini verdi və danışıqların iyul ayında başlanacağı barədə hər iki tərəfin razılığının alınması mümkün oldu. Danışıqlar 9 ay ərzində aprelin 29-u 2014-cü ilədək aparılmalı idi.

Fələstin bu danışıqların sonunda İsrail tərəfdən yaşayış məskənlərinin salınmasının tamamilə dondurulmasını istəyirdi, Con Kerri isə yalnız azaldılmasına çalışacağını bildirmişdi. İkincisi, sərhədlər məsələsinin tənzimlənməsi idi ki, Fələstin 1967-ci il müharibəsinədək mövcud olan sərhədlər çərçivəsində dövlətin qurulmasını tələb edirdi və danışıqların da bu sərhədlər ətrafında aparılmasını istəyirdi. Kerri isə öz növbəsində, bu istiqamətdə addımlar atacağını bildirmişdi. Digər məsələ isə, 1993-cü il danışıqlarınadək həbs edilmiş 104 fələstinlinin azad edilməsi ilə bağlı idi. Bu məsələdə də C.Kerri əlindən gələni edəcəyini Fələstin liderinin nəzərinə çatdırmışdı. Fələstin administrasiyasının daxilində aparılan uzun müzakirələrdən sonra qeyd olunan üç tələbdən biri, məhbusların azad edilməsi barədə razılıq əldə edə bilmişdilər.

C.Kerri 2013-cü ilin iyun ayında B.Netanyaho ilə görüşü zamanı məhbusların azad edilməsi məsələsini qaldırmış, B.Netanyaho buna qəti şəkildə etirazını bildirmişdi. Eyni zamanda, Aİ da B.Netanyaho hökumətinin yaşayış məskənləri ilə

bağlı yürütdüyü siyasətə etiraz əlaməti olaraq, İsrail təşkilatları ilə əlaqələri kəsəcəyini elan etmişdi. Bundan sonra, B.Netanyaho anlayırdı ki, danışıqları dondurduğuna görə onu daha böyük iqtisadi sanksiyalar gözləyə bilər. Ona görə də C.Kerriyə zəng vuraraq bəzi tələblər yerinə yetirildiyi halda, danışıqlara başlamaq barədə razılığa gələcəyini bildirmişdi. Bunlardan birincisi, məhbusların 9 aylıq danışıqlar prosesi müddətində dörd mərhələdə azad olunacaqları barədə idi. İkincisi isə, öz koalisiyasını bütöv şəkildə saxlaya bilməsi üçün daha 2000-ə yaxın yaşayış evinin tikilməsinə razılığın verilməsi ilə bağlı olmuşdu. C.Kerri B.Obamanın 2009-cu il Qahirədəki çıxışı zamanı yaşayış məskənlərinin salınması ilə bağlı mövqeyini bilirdi, lakin münaqişənin birdəfəlik həlli üçün 2000 evin tikilməsinə razı olmaq olardı. Buna baxmayaraq, ABŞ-ın mövqeyinin dəyişməyəcəyini B.Netanyahoya bildirdi [29].

İsrail və Fələstin arasında birbaşa danışıqların növbəti mərhələsi 29 iyul 2013-cü ildə Vaşinqtonda başladı. İsrail nümayəndə heyətinə ədliyyə naziri Tsipi Livni, Fələstin nümayəndə heyətinə isə, 1991-ci ildən bu tərəfə danışıqlar prosesində iştirak etmiş Saeb Erekat başçılıq edirdi. Tsipi Livnini danışıqlarda Netanyahonun şəxsi nümayəndəsi İshaq Molho, Saeb Erekatı isə Mohammad Ştayyeh müşayiət edirdi. ABŞ tərəfdən isə Martin İndyk danışıqlara nəzarət edirdi. İki həftə davam edən danışıqların sonunda 26 məhbus azad edildi, lakin yeni yaşayış məskənlərinin salınması gərginliyin yaranmasına gətirib çıxardı. Mahmud Abbas dəfələrlə öz çıxışlarında Fələstin ərazisində hər hansı İsrail ordusunun mövcudluğuna razı olmayacağını, fələstinlilərin “geri qayıdış hüququ”-nu, yaşayış məskənlərinin salınmasının mümkünsüzlüyünü vurğulamışdı.

Oktyabr ayında B.Netanyaho qəti şəkildə fələstinlilərin “geri qayıdış hüququ”-nu rədd etdi və Qüdsün bölünməz qalacağını bildirdi. Məhbusların azad edilməsinin ikinci mərhələsi baş tutduqdan, sonra noyabr və dekabr aylarında Fələstin heyəti İsrailin İordaniya vadisinin anneksiyası barədə qanun layihəsinə etiraz əlaməti olaraq, danışıqlardan çıxacaqlarını açıqladı. Saeb Erekat bildirirdi ki, İsrail

öz gündəlik fəaliyyəti ilə iki dövlət prinsipini dağıtmaq istəyir [106]. Dekabrın sonunda məhbusların azad edilməsinin növbəti - üçüncü mərhələsi baş tutdu.

Danışıqların getdiyi bir vaxtda B.Netanyahonun koalisiyasında narazılıqlar getdikcə artırdı. Əsas problem "Yəhudi Evi" partiyasının lideri Naftali Bennetlə bağlı idi. Yəhudilərin Fələstinin idarəsi altında yaşaya bilməyəcəklərini qeyd edən N.Bennet hər fürsətdə B.Netanyahoya təzyiq etməyə çalışırdı. Əgər N.Bennetin partiyası koalisiyanı tərk edərsə , onları Avoda partiyası əvəz edəcəkdi, lakin Fələstin dövlətinin şəxsi zəminlər əsasında qurula bilmə ehtimalı tərəfləri ortaq məxrəcə gəlməyə məcbur edə bildi

2014-cü ilin yanvar ayında uzunmüddətli danışıqlardan sonra B.Netanyaho C.Kerrinin hazırladığı çərçivə razılaşmasının bəzi bəndlərinə dair razılığa gəlinməsinin mümkünlüyünü bildirdi. Qaçqınlar məsələsinin yeni Fələstin dövləti çərçivəsində həll ediləcəyi və onlara pul təzminatının ödəniləcəyi qərara alındı. Qarşılıqlı razılaşdırılmış yerdəyişmələr olduğu halda isə, yeni sərhədlərin 1967-ci ilədək mövcud olan hüdudlarda həll edilə biləcəyi vurğulandı. Qüdslə bağlı Ehud Barak və Ehud Olmertin qəbul etdikləri yəhudi kvartalları İsrail üçün, ərəb kvartalları Fələstin üçün prinsipi ilə razılaşmayacaqlarını B.Netanyaho bir daha vurğuladı.

Məhbusların azad edilməsinin növbəti mərhələsi İsrail tərəfindən uzadılırdı. Bu isə Fələstinin narazılığına səbəb olurdu. Hələ danışıqlar başlamazdan əvvəl Fələstin BMT-nin konvensiyalarına, o cümlədən, Beynəlxalq Cinayət Məhkəməsinə müraciət edəcəyini bildirmişdi. B.Netanyaho isə buna qəti şəkildə etiraz edirdi. Con Kerrinin davamlı israrlarına baxmayaraq, B.Netanyaho məhbusların azad edilməsinin dördüncü mərhələsini səsverməyə çıxartmırdı, çünki daxildə N.Bennet başda olmaqla digər sağçı partiyalar koalisiyanı tərk edəcəkləri ilə hədələyirdilər. Daxili koalisiyanı razı salmaq üçün hökumət Şərqi Qüdsdə daha 708 evin tikiləcəyi barədə qərar qəbul etdi. Bu qərarın ardından, martın 26-da Fələstin rəhbərliyi BMT-nin 15 konvensiyasına və beynəlxalq müqavilələrə qoşulacağını elan etdi [80].

Kerri danışıqları xilas etmək üçün bütün mümkün variantlara əl atırdı, hətta, İsrail baş nazirləri üçün vacib olan Conatan Pollardın azad edilməsindən sövdələşmənin əldə edilməsi üçün istifadə etməyə çalışırdı. Təklifin Obama tərəfindən narazılıqla qarşılanmasına baxmayaraq C.Pollardın azad edilməsi məsələsi müzakirə obyekti oldu.

Fələstinin beynəlxalq konvensiyalara qoşulmaq barədə qərarından sonra T.Livni S.Erekata bundan imtina olunacağı halda danışıqların uzadılmasının mümkünlüyünü bildirdi, lakin artıq gec idi.

C.Kerri və onun komandasının dəfələrlə T.Livni, İ.Molho, S.Erekat və Məcid Fərəclə (Fələstin kəşfiyyat xidmətinin rəhbəri) görüşlər keçirməsinə baxmayaraq, aprelin 23-də Fələstin rəhbərliyinin verdiyi qərar danışıqlar prosesinin sonunu müəyyənləşdirdi. 2014-cü ilin aprelin 23-də HƏMAS və FƏTH partiyası Birlik Hökumətinin yaradılması barədə razılaşdılar. Növbəti gün B.Netanyaho Fələstindən ya sülh, ya da HƏMAS-la birləşmə arasında seçim etməyi tələb etdi. Bunun Fələstinin daxili məsələsi olduğunu bildirən rəsmilər, danışıqlarla barışıq arasında əlaqənin olmadığını qeyd etdilər. İsrail hökuməti HƏMAS tərəfindən dəstəklənən Fələstinlə heç bir danışıqlar aparmayacağını bildirərək, prosesin dayandırıldığını elan etdi [45]. Beləliklə, Con Kerrinin sülh missiyası sona yetdi.

Sülh prosesinin dayandırılmasına reaksiyalar müxtəlif oldu. Bəziləri İsraili, digərləri isə Fələstini günahlandırırdı. Nəticədə, hər iki tərəfin bir-birinə güvənsizliyi danışıqların növbəti mərhələsinin də uğursuzluqla bitməsinə səbəb oldu. B.Netanyaho yaşayış məskənlərinin salınmasını davam etdirirdi, bununla da daxili koalisiyasını razı salırdı, Fələstin isə qəhrəman adlandırdığı məhbusların müəyyən hissəsinin azad edilməsinə nail ola bildi. Martin İndyk öz müsahibələrində bildirirdi ki, İsrail üçün fələstinlilər kabus olublar. Onların razılığa gələcəklərinə skeptik yanaşan İndyk Con Kerrinin əzmi qarşısında uğurlu nəticənin əldə edilə biləcəyinə inanmışdı, lakin hər iki tərəfdə mövcud olan inamsızlıq, güzəştə gedəcəkləri halda daxili hakimiyyətlərinin tənəzzülə uğrama ehtimalı onları addım atmaqdan çəkindirirdi. Sonradan İsrail, Qərb Sahili və Qəzzada baş verənlər isə münaqişənin

həll olunmadan hər hansı status-kvonun əldə edilməsinin mümkünsüzlüyünü göstərirdi [48].

İyunun 2-də Birlik Hökumətinin andiçmə mərasimi oldu. B.Netanyaho Nazirlər Kabinetində keçirdiyi iclasda yeni hökuməti tanımadığını bildirdi və Fələstin Muxtariyyatına qarşı yeni sanksiyaların tətbiq ediləcəyi barədə qərarını açıqladı. O, bildirirdi ki, bu barışıq İsrail və Fələstin arasında gedən danışıqlar prosesinə ciddi təsir edəcək və Fələstin sülh və ya HƏMAS arasında seçim etməlidir. Mahmud Abbasın HƏMAS-la barışıq imzalaması məhz B.Netanyahonun siyasətinin nəticəsisi idi. Yaşayış məskənlərinin salınması, məhbusların azad edilməsinin dördüncü mərhələsinin təxirə salınması Abbası bu addımı atmağa vadar etdi. B.Netanyaho barışıqdan Fələstinin tənqid edilməsi üçün istifadə edirdi. O, beynəlxalq ictimaiyyəti buna qarşı çıxmağa çağırırdı, lakin tam əks reaksiya ilə qarşılaşdı. İstər Avropa, istərsə də ABŞ bu əməkdaşlığa razılıqla yanaşırdılar [88].

İyunun 12-də üç haredi (ultra ortodoks) israilli gəncin Qərb Sahilində oğurlanması B.Netanyahoya imkan verdi ki, barışıq haqqında fikirlərini təsdiqlətsin. Baxmayaraq ki, israilli gənclərin oğurlanmasının məsuliyyətini HƏMAS öz üzərinə götürmürdi, B.Netanyaho bütün günahı bu terror təşkilatının üzərinə atırdı. B.Netanyaho Mahmud Abbas başda olmaqla Fələstin Muxtariyyatının digər rəsmilərindən üç gəncin axtarışlarına yardımçı olmağı tələb edirdi. İsrail ordusu və xüsusi təyinatlılarının başlatdığı və iyunun 13-dən 30-dək davam edən "Qardaşları geri qaytarmaq" əməliyyatı zamanı Fələstin müqavimət hərəkatının 419 fəalı, HƏMAS-ın onlarla döyüşçüsü həbs edildi, 2218 evdə, tunellərdə, mağaralarda axtarışlar aparıldı, lakin axtarışlar heç bir nəticə vermədi. İyunun 30-da isə oğurlandıqları ərazidə gənclərin cəsədləri tapıldı. Onların dəfn mərasimində Ş.Peres və B.Netanyaho iştirak etdilər [18, 13-14].

Növbəti gün Fələstinli gəncin israillilər tərəfindən öldürülməsindən sonra B.Netanyaho "cəmiyyətimizdə cinayətkarlara yer yoxdur deyərək" qatillərin cəzalandırılacaqlarını bildirdi. O, həm ərəbləri, həm də israilliləri təmkinli olmağa və

vəziyyəti gərginləşdirməməyə səslədi, lakin bu hadisədən sonra Qüdsün bir çox rayonlarında ərəb gənclərlə İsrail polisi arasında toqquşmalar səngimək bilmədi.

Axtarışların getdiyi bir vaxtda həm Qəzzadan, həm də cavab olaraq İsraildən raket hücumları başladı. İlk həftələr HƏMAS raket hücumlarında aktiv iştirak etmirdi, yalnız iyunun 30-dan başlayaraq İsrail ərazisini bombalamağa başladı. HƏMAS hələ də gənclərin oğurluğunda iştirakını inkar edirdi və özünün 2012-ci il noyabr razılığına əməl etdiyini bildirirdi. Vəziyyət getdikcə gərginləşirdi. B.Netanyaho nəzarəti itirməyə başlamışdı. İsrail tərəfi atəşkəs əldə etməyə çalışdı, lakin HƏMAS-ın Şalit razılaşmasına əsasən azad edilmiş, buna baxmayaraq, lakin son əməliyyatdan sonra yenidən həbs edilmiş məhbusların buraxılması və 2007-ci ildən bu yana Qəzzaya tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması barədə HƏMAS-ın tələbi ilə razılaşmırdı. Şalit razılaşması 2011-ci ildə İsrail və HƏMAS arasında imzalanmışdı. HƏMAS tərəfindən tutulmuş İsrail Müdafiə Qüvvələrinin əsgəri Gilad Şalitin qaytarılması qarşılığında İsrail tərəfindən həbs edilmiş 1027 fələstinlinin azad edilməsini nəzərdə tuturdu.

İyulun 5-dən etibarən HƏMAS qruplaşması tərəfindən İsrail ərazisinin bombalanması kəskin şəkildə artdı. İsrail də cavab olaraq Qəzzanın atəşə tutulmasına davam edirdi. İyulun 7-də İsrail hökuməti Qəzza sektorunda kod adı “Qoruyucu sərhəd” olan antiterror əməliyyatının başlanması haqqında qərar verdi və əməliyyat iyulun 8-nə keçən gecə başladı. Əməliyyatı başlayarkən İsrailin ilk məqsədi əhalisinin raket və minatanlardan qorunması və HƏMAS-ın hücum mənbəyi olaraq istifadə etdiyi tunel infrastrukturunun məhv edilməsi idi. Bu məqsədlərə nail olmaq İsrail üçün həyatı vacib idi. B.Netanyaho İsrailin cənubunda sakitliyin “bərpa edilməsini”, Moşe Yaalon “raketlərin sıfırlanmasnıı”, Aviqdor Liberman isə “əməliyyatın məqsədinin İMQ-nin Qəzzada nəzarəti ələ keçirməsi” olduğunu bildirirdi.

İyulun 14-də Misir atəşkəs bağlanmasını təklif etdi. İsrail bu təkliflə razılaşsa da, HƏMAS qəbul etmədi. Bu arada İsrail hökuməti daxilində B.Netanyahonun atəşkəs razılaşmasını qəbul etməsi kəskin tənqid olundu. Bu addımın İsrailin

məğlubiyyətinə səbəb olacağını bildirən müdafiə nazirinin müavini Dani Danon, bundan sonra HƏMAS-ın daha da güclənəcəyini qeyd edirdi. D.Danonun tənqidləri onun B.Netanyaho tərəfindən vəzifəsindən azad edilməsinə səbəb oldu.

BMT tərəfindən təklif olunan beş saatlıq atəşkəsin bitməsindən sonra İMQ İsrail sərhədlərindəki tunellərin məhvi üçün hücumlara başladı. İyulun 18-nə keçən gecə İsrail ordusu ehtiyatda olan 18 min hərbçinin orduya çağırılması haqqında qərar verdi. Beləcə, əməliyyatda iştirak edən ümumi hərbçilərin sayı 60 minə çatdı. Hər iki tərəf istər canlı, istərsə də infrastruktur baxımından itkilər verirdi.

Fələstin kəşfiyyatının rəhbəri Məcid Fərəc iyulun 21-də uzunmüddətli atəşkəs haqqında razılaşmanın ilkin variantı ilə Misirə gəldi. Burada o, sənədi ABŞ dövlət katibi Con Kerriyə təqdim etməyi düşünürdü. Eyni zamanda, BMT-nin baş katibi Pan Gi Mun növbəti humanitar atəşkəsin elanı haqqında təklif vedi. HƏMAS liderləri barışığın şərtlərinin atəşkəs elan edilənədək müəyyənləşməsini tələb edirdilər. İsrail nümayəndələri isə Misirin təklifini əsas götürərək atəşkəsin dərhal elan edilməsini, danışıqların sonradan davam etdirilməsini istəyirdi. İyulun 26-da B.Netanyaho 12 saatlıq növbəti atəşkəs elan etdi. Müvəqqəti atəşkəsi hərbi əmliyyatların ilk mərhələsinin sonu kimi qiymətləndirən BMT nümayəndələri və amerikalılar İsrail hökumətinə təzyiqlər etməyə başladılar. Əməliyyatın ilk iyirmi günündə Qəzzada həlak olan fələstinlilərin sayı 1000-ə çatmışdı.

Bu sırada B.Obama tərəfindən B.Netanyahoya birtərəfli şəkildə bütün hərbi əməliyyatların dayandırılması üçün təzyiqlər edilirdi. B.Netanyaho qarşılığında İsrailin nə qazanacağını soruşduğunda isə, B.Obama HƏMAS-ın raket atışlarını dayandıracağını bildirməsi ilə kifayətləndi. B.Netanyaho 2 avqust tarixində keçirdiyi brifinqdə İsrail rəhbərliyinin ordu qarşısında qoyduğu məqsədlərin tam şəkildə yerinə yetirildiyi barədə bildirdi [18, 76].

Avqustun ilk günlərindən başlayaraq İsrail öz ordularını Qəzzadan geri çəkməyə başladı. Həmin vaxtadək təxminən 32 tunel məhv edilmişdi [98]. Avqustun 8-də İsrailin ordusunu geri çəkməsindən sonra HƏMAS əməliyyatlara yenidən başladı. Növbəti günlərdə dəfələrlə qısa müddətli atəşkəsin elan edilməsinə baxmayaraq,

hərbi əməliyyatlar davam edirdi. Nəhayət, avqustun 26-da B.Netanyaho Misirin qeyri-məhdud vaxtadək atəşin dayandırılması təklifini qəbul etdi. 50 gün müddətinə davam edən əməliyyat zamanı 2200-dən çox fələstinli həlak olmuş (onlardan 1500-dək mülki vətəndaş idi), 10 mindən çoxu isə yaralanmışdı. 520 min nəfər qaçqın düşmüş, 273 min nəfər isə BMT-nin məktəblərində məskunlaşmışdılar. İsrail tərəfdən isə 67 əsgər öldürülmüş, 800-dən çox mülki vətəndaş isə şok keçirərək xəstəxanalara yerləşdirilmişdi.

"Qoruyucu sərhəd" əməliyyatının sonunda İsrail tam şəkildə məqsədlərinə çata bilmədi. Baxmayaraq ki, əsas məqsəd olaraq, qarşıya tunellərin məhv edilməsi qoyulmuşdu, İsrailin əldə etmək istədikləri sırasında Qəzzanın tamamilə hərbsizləşdirilməsi də var idi, lakin buna nail ola bilmədi. Öz növbəsində HƏMAS da tələblərinin yerinə yetirilməsinə nail ola bilmədi. Müharibə istər daxildə, istərsə də beynəlxaq ictimaiyyət tərəfindən etirazla qarşılandı. Qüvvələr nisbətinin pozulması göstərirdi ki, HƏMAS və İslami Cihad təşkilatları heç bir zaman İsrail üzərində qələbə qazana bilməyəcəklər, ancaq İsrail də bu müharibədən qələbə ilə ayrılmadı.

Koalisiya daxilində yaranan narazılıqlar, 2014-cü il Qəzza müharibəsi yeni seçkilərin keçirilməsi üçün yol açdı. Rəqiblərini keçə bilmək üçün seçki öncəsi kampaniyasında "Mən seçilsəm, Fələstin dövləti olmayacaq" deyən B.Netanyaho 2009-cu ildə Bar-İlan çıxışı zamanı dəstəklədiyi "iki dövlət" prinsipini də inkar etmiş oldu [79]. Qərb Sahili üzərində təhlükəsizlik üzrə nəzarətin məhz İsraildə olacağını və seçiləcəyi halda yaşayış məskənlərindən əhalinin köçürülməyəcəyini də vurğulayırdı.

2015-ci il martın 17-də keçirilən seçkilərdə B.Netanyaho mərkəz-sol Sionist Birliyini qabaqlayaraq qalib gəldi və prezident Reuven Rivlixin göstərişi ilə mayadək yeni hökuməti formalaşdırdı.

Fələstin dövlətini tanımayacağı barədə etdiyi çıxış gələcək sülh danışıqları prosesini təhlükə altına alırdı. Yenidən nazir seçildikdən sonra öz dediklərinə düzəlişlər etməyə çalışan B.Netanyaho, siyasətinin dəyişmədiyini, iki dövlətin yaradılmasını dəstəklədiyini bildirir, lakin bunun üçün mövcud reallığın dəyişməli

olduğunu qeyd edirdi. Eyni zamanda Fələstin Muxtariyyatının prezidenti Mahmud Abbas B.Netanyahonun "iki dövlət" prinsipindən imtinası qarşısında Fələstinin tanınması üçün BMT-yə müraciət edəcəyini və İsrailin müharibə-cinayətləri üzrə məsuliyyətə cəlb olunması üçün Beynəlxalq Cinayət Məhkəməsinə müraciət edəcəyini bildirirdi [83].

2015-ci ilin sentyabrında "Məbəd dağının" statusu ətrafında israillilərlə fələstinlilər arasında başlayan növbəti "Terror dalğası" 2016-ci ilin ilk yarısınadək davam etdi. Münaqişənin növbəti mərhələsinin başlanmasını müxtəlif cür şərh edirdilər. Bir çoxları bu hiddəti İsrailin danışıqlar prosesində nümayiş etdirdiyi durğunluqla izah edir, bəziləri isə işğalın davam etməsi və burada yaşayanların insan hüquqlara tam təmin olunmaması ilə izah edirdilər. Əsas səbəb məhz Əl-Əqsa məscidinə girişin məhdudlaşdırılması ilə bağlı idi. Qatı dindar yəhudilərin Əl-Əqsa məscidi ətrafında Məbəd Dağında öz ibadət hüquqlarının genişləndirilməsi üçün kampaniyalara başlaması və onları B.Netanyaho hökumətinə daxil olan sağçı partiyaların dəstəkləməsi məscid ətrafında vəziyyətin gərginləşməsinə gətirib çıxartmışdı.

Yaranmış vəziyyətdə hər iki lider öz cəbhələrində tənqid olunurdular: B.Netanyaho Fələstinin öhdəsindən gələ bilmədiyinə görə, M.Abbas isə İsrailin yaşayış məskənləri salınması və sülh prosesinin olmamasına görə. Buna görə də hər iki lider gələcək gərginliyin qarşısını almaq üçün balans yaratmağa çalışırdılar: M.Abbas fələstinli qruplaşmaların İsrailə qarşı mübarizəyə cəlb olunmasına çalışırdı, B.Netanyaho isə daha sərt tədbirlərin görülməsi ilə hədələyirdi [26].

Təəssüf ki, gərginliyin açıq münaqişəyə keçməsinin qarşısını almaq mümkün olmadı. Fələstinlilər mübarizələrini daş atmaq və molotov kokteyllərindən istifadə etməklə aparırdılar. 2015-ci ilin sentyabrın 24-də B.Netanyaho hökuməti üsyançılara qarşı yeni qanun qəbul etdi. Qanuna əsasən, təhlükəli əşya atan şəxslər üç illik həbs olunmalı idi. İsrail tərəfindən işğal olunmuş torpaqlarda insan hüquqları üzrə pozuntuları qeydə alan B`Tselem qeyri-kommersiya təşkilatı B.Netanyahonu

fələstinliləri öldürən İsrail polisinə qarşı heç bir tədbir görmədiyinə görə tənqid etmişdi [31].

2016-cı ilin fevral və mart aylarında hər iki tərəf çoxlu insan itkisi verdi. Şəhər və rayonların infrastrukturuna zərər dəydi. Nəhayət, iyun ayından sonra vəziyyət normallaşmağa başladı.

2015-ci ilin sentyabrında Fələstin Muxtariyyatının BMT Baş Assambleyasında bayrağının ucadılması İsrailin narazılığına səbəb olmuşdu. Hələ qərar qəbul edilməzdən əvvəl, İsrailin BMT-dəki səfiri Ron Prosorun BMT Baş Katibi Pan Gi Muna və BA-nın prezidenti Sam Kutesaya qərarın qəbul edilməməsi üçün müraciət etmiş və bunun "sülh və dövlətçiliyə aparan yol olmadığını" bildirmişdi. İsrailin cəhdlərinə baxmayaraq, sentyabrın 10-u (2015-ci il) Baş Assambleya Fələstin bayrağının qaldırılması ilə bağlı qətnaməni qəbul etdi. Sentyabrın 30-da Fələstin bayrağı BMT-nin 193 tam hüquqlu üzv dövlətlərinin bayraqlarının yanında ucaldıldı. Mərasimdə çıxış edən Mahmud Abbas İsrailin 1993-cü il Oslo müqavilələrinin şərtlərini icra etmədiyini, işğalçı dövlət olduğunu, bir gün bu bayrağın Fələstin dövlətinin paytaxtı Şərqi Qüdsdə ucalacağını bildirdi. Mahmud Abbasın bu çıxışını yalan adlandıran B.Netanyaho öz bəyanatında İsrailin Məbəd Dağı ilə bağlı status-kvoya ciddi şəkildə riayət etdiyini və bütün müqavilələrə uyğun olaraq öhdəliklərini icraetməyə davam edəcəyini vurğuladı [86].

Bir il sonra, 2016-cı ilin sentyabrında B.Netanyahonun Fələstinin ünvanına "etnik təmizləmə" apardıqlarını söyləməsi fikir ayrılıqlarına səbəb olmuşdu. Özünün "yəhudilərə yox" adlı 2 dəqiqəlik video çıxışında B.Netanyaho Fələstin rəhbərliyini yəhudilərdən azad dövlət qurmaq istəklərində günahlandırırdı. Bunu "etnik təmizləmə" adlandıran B.Netanyaho Fələstindən fərqli olaraq İsraildə yaşayan iki milyona yaxın Fələstin ərəblərinin sülhə maneə olmadığını xüsusi vurğulayırdı. ABŞ Dövlət Departamenti baş nazirin bu çıxışı zamanı istifadə etdiyi ifadələri uğursuz olaraq dəyərləndirmişdi [52].

Benyamin Netanyahonun siyasi xəttinin əsasını təşkil edən yaşayış məskənlərinin salınmasına etiraz əlaməti olaraq BMT TŞ tərəfindən dəfələrlə

qətnamələrin qəbul edilməsinə cəhd olunmuşdu. Buna baxmayaraq, ABŞ hər səfərində qərarı veto edərək qətnamənin qəbul edilməsinin qarşısını ala bilmişdi. 2016-cı il dekabrın 23-də BMT TŞ tərəfindən qəbul edilən 2334 saylı qətnamədə işğal edilmiş Şərqi Qüdsdə İsrailin fəaliyyəti pislənirdi. Burada salınan yaşayış məskənlərinin heç bir hüquqi əsasının olmadığı vurğulanan qətnamədə İsraildən bu fəaliyyəti dərhal və tam şəkildə dayandırmaq tələb olunurdu. İlk dəfə olaraq ABŞ qətnamənin qəbuluna veto qoymadı. Qətnamaənin qəbuluna reaksiya verən Benyamin Netanyaho həm BMT-ni, həm də ABŞ administrasiyasını sərt tənqid edərək, Şərqi Qüdsün işğal olunması fikrini cəfəngiyat adlandırmışdı. Bu, B.Obama administrasiyası ilə B.Netanyaho hökuməti arasında narazılıqların ciddiliyini göstərirdi.

2017-ci ilin əvvəllərində İsrail BMT-ni maliyyələşdirməkdən imtina etdiyi bildirdi. Eyni zamanda, qətnamənin lehinə səs vermiş Seneqal və Yeni Zelandiyadan səfirlərini geri çağırdı. Ukraynanın baş nazirinin İsrailə səfəri təxirə salındı. Hökumət daxilində isə qətnaməyə reaksiyanın daha da sərtləşdirilməsi tələb edilirdi. Məsələn, Aviqdor Liberman vətəndaş hüquqları sahəsində Fələstin Muxtariyyatı ilə istənilən istənilən əməkdaşlığı dayandırmağa, İsrail suverenliyinin Qərb Sahilində “C” zonasına bütünlüklə aid etməyə çağırırdı.

2009-cu ildə yenidən baş nazir seçilməsindən sonra B.Netanyaho Fələstin dövlətinin qurulmasına müsbət yanaşsa da, HƏMAS və FƏTH-in Milli Birlik hökuməti yaratmasından sonra qəti şəkildə bu fikirə qarşı çıxdı və hər dəfə bu barışığı tənqid edirdi. Bunun da əsas səbəbi FƏTH-in beynəlxalq miqyasda terror qruplaşması sayılan HƏMAS-la birləşməsi idi. HƏMAS-ın Qəzzada hakimiyyəti ələ keçirəndən sonra davamlı şəkildə İsrail ərazisini atəşə tutması və İsrail ərazisində terror aktları törətməsi məhz Fələstin dövlətinin qurulması fikrinin B.Netanyaho tərəfindən geri çevrilməsinə səbəb olmuşdu.

B.Netanyaho hökumətinin 2009-cu ildən bu yana davam edən ikinci hakimiyyəti illərini İsrailin təhlükəsizliyi üçün əhəmiyyətli olan antiterror əməliyyatlarının keçirilməsi və yaşayış məskənlərinin salınmasının genişləndirilməsi ilə xarakterizə

etmək olar. Bu dövrlərdə B.Netanyaho xüsusilə bu iki xəttə fikir vermiş və İsrailin maraqları naminə əsaslı güzəştlərdən çəkinmişdir. Məhz yaşayış məskənlərini genişləndirmə siyasəti ABŞ-la münasibətlərində narazılıqların yaranmasında aparıcı rol oynamışdır. ABŞ-ın təzyiqlərinə baxmayaraq, 2010-cu ildə yaşayış məskənlərini dondurma prosesini uzatmaması danışıqların həmin mərhələsinin nəticəsiz bitməsinə səbəb olmuşdu.

# NƏTİCƏ

XXI əsrdə öz həllini tapmayan ən uzunmüddətli münaqişələrdən biri məhz ərəb-İsrail münaqişəsidir. Münaqişənin davam etməsi beynəlxalq siyasi münasibətlərə təsirsiz qalmır. Buna görə də, problemin tez bir zamanda ədalətli həlli həm region üçün, həm də ümumi beynəlxalq münasibətlər sistemi üçün əhəmiyyətlidir.

Region dövlətlərinin rəhbərlərinin yürütdükləri siyasət, onların problemə yanaşmaları, barışıq cəhdləri münaqişənin həlli üçün vacib amillər sırasına daxildir. Bu baxımdan, Benyamin Netanyahonun hakimiyyəti illərində apardığı siyasi xətt münaqişənin perspektivlərinin müəyyənləşməsinə təsir edir.

Münaqişənin həllinə nail olmaq üçün onu törədən təməl səbəblərin aradan qaldırılması mütləqdir. Fələstin-İsrail münaqişəsində 1947-ci il bölgüsünə əsasən, İsrail dövləti ilə yanaşı, Fələstin dövləti də yaradılmalı idi. Həmin tarixdən 70 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Fələstin hələ də öz dövlətini qurmaq üçün İsrailə qarşı mübarizə aparır.

Münaqişənin aradan qaldırılması üçün dəfələrlə cəhdlər edilsə də, əldə edilmiş razılaşmalar tam şəkildə icra olunmayıb. 1991-ci il Madrid konfransından başlayaraq, 1993-cü il və 1995-ci il Oslo müqavilələrinədək, ABŞ başda olmaqla Aİ, RF münaqişənin tənzimlənməsinə çalışsalar da, 1996-cı ildə İsraildə baş verən hakimiyyət dəyişikliyi ilə proseslər yeni mərhələyə daxil oldular.

1996-cı ildə baş nazir seçilən B.Netanyahonun siyasi xəttinin əsasını terrorla mübarizə və İsrail üçün vacib olan təhlükəsizliyin təmin olunması təşkil edir. 2012-ci ildə keçirilən "Buludlu sütun", 2014-cü ildə keçirilən "Qoruyucu sərhəd" əməliyyatları terrorla mübarizənin B.Netanyaho üçün vacibliyini göstərir. Terrorun davam etməsi danışıqlar prosesinin də dayanmasının əsas səbəblərindən biridir.

B.Netanyaho öz hakimiyyəti dövründə ABŞ-dan asılılığı azaltmağa çalışmışdır. ABŞ münaqişənin həlli üçün hər iki tərəfə təzyiqlər edir, danışıqlar üçün regiona amerikalı rəsmilərin müxtəlif səfərləri olur, lakin bu səfərlər hər dəfə münaqişə tərəflərinin qarşılıqlı inamsızlığı səbəbindən nəticəsiz qalırdı. Bəzən

B.Netanyaho höküməti ifrat güc tətbiq edərək, danışıqlardan çəkinməyə çalışır, bəzi vaxtlarda isə, ABŞ-ın təzyiqi ilə güzəştə gedirdi.

B.Netanyaho danışıqlar prosesində iki əsas tələb irəli sürür: birincisi, yaşayış məskənlərinin salınması dayandırılmayacaq, bu məskənlər İsrailin təhlükəsizliyinin təminatıdır. İkincisi isə, İsrail Fələstin Muxtariyyatı tərəfindən yəhudi dövləti olaraq qəbul edilməlidir.

Münaqişənin həllini çətinləşdirən amillər sırasında yaşayış məskənlərinin salınması əsas yerlərdən birini tutur. Yaşayış məskənlərinin salınmasının genişləndirilməsi məhz B.Netanyahonun dövründə baş vermişdi. İlk dəfə baş nazir olduğu illərdə o, yaşayış məskənlərinin genişləndirilməsində, ümumiyyətlə, güzəştə getmirdi, lakin ikinci hakimiyyəti illərində hətta prosesin dondurulmasına belə razı olmuşdu (2010-cu sentyabrınadək 10 aylıq dondurma) və sonradan bu prosesdən bir təzyiq vasitəsi kmi istifadə etməyə başladı. 2016-cı il dekabrın 26-da BMT-nin qəbul etdiyi qətnamədən sonra yaşayış məskənlərinin salınmasını genişləndirmək barədə hökumət qərar qəbul etdi.

Qüds məsələsi tərəflər arasında hər zaman ən həssas müzakirə obyekti olmuşdur. B.Netanyaho ilk dəfə baş nazir seçildikdən sonra ABŞ-a səfəri zamanı Qüdsün bir daha bölünməsinə icazə verməyəcəyini bildirmişdi. Fələstin isə Şərqi Qüdsü öz dövlətinin paytaxtı olduğunu qeyd edir. Ümumiyyətlə, Qüds hər zaman istər yəhudilər, istərsə də ərəblər üçün müqəddəs olduğundan onun statusunun müəyyənləşdirilməsi daim narazılıqlara səbəb olmuşdur. B.Netanyaho da Qüds məsələsində güzəştə getməyəcəyini və bunun müzakirə mənbəyi olmayacağını dəfələrlə təkrar etmişdi.

Fələstin siyasəti B.Netanyaho hökümətinin xarici siyasətinə, onun regional və beynəlxalq nüfuzuna, həmçinin, xarici dövlətlərlə münasibətlərinə təsir edən amillər sırasındadır. İlk olaraq, ərəb dövlətləri, eləcə də, digər müsəlman dövlətləri ilə əlaqələrinin qurulmasında Fələstin məsələsi həmişə özünü biruzə verir.

Sülhə nail olmaq üçün daha əhəmiyyətli, daha fundamental dəyişikliklər olmalıdır. Bunun üçün hər iki tərəf ortaq məxrəcə gəlməli, güzəştə getməlidir, lakin

hazırkı şəraitdə hər iki tərəfdə hökm sürən sağ meyillər sülhün əldə edilməsini daha da çətinləşdirir.

Sonda yazılanları ümumiləşdirsək qeyd edə bilərik ki, İsrail-Fələstin münasibətləri Yaxın Şərqdə mövcud vəziyyəti müəyyənləşdirən əsas faktorlardan biridir. Bu günkü gün sülh prosesində irəliləyişin olmamasının müxtəlif səbəbləri mövcuddur ki, bunlardan tərəflərin Şərqi Qüdsün statusuna dair razılığa gələ bilməməsini və İsrail hökumətinin fələstinlilərə güzəştə getməyə hazır olmamasını xüsusi qeyd etməliyik. Daimi sülh yalnız tərəflərin və onların rəhbərlərinin qarşılıqlı güzəştləri nəticəsində mümkündür.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Abbasbəyli A.N. Dünya siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri). Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. 584 s.
2. Benyamin Netanyahunun Azərbaycana səfəri başlayıb, 13 Dekabr 2016 // http://apa.az/xarici_siyaset/
3. Ekspert: Benyamin Netanyahunun Azərbaycana səfəri bütün region üçün müsbət haldır, 13 Dekabr 2016 // http://az.trend.az/

**Türk dilində**

4. Armaoğlu F. 20`inci Yüzyıl Siyasi Tarihi (Cilt 1-2:1914-1995). Alkım Yayınevi, 2004. 1006 s.
5. Balcı A. İsrail sorunu: Ortadoğunun Gordion düğünü // Dünya Çatışmaları Çatışma Bölgeleri ve Konuları, Cilt 1, Ankara: Nobel Yayınları, 2010, 99-146.
6. İsrail hakkında gerçekler. Kudüs, İsrail: Keter Pres, 2008. 352 s.
7. Ulutaş U., Bölme S.M., Demir N.G., Torlak F., Ziya S. İsrail Siyasetini Anlama Kilavuzu, Ankara: SETA Yayınları XIX, I. Baskı : Aralık 2012. 202 s.

**Rus dilində**

8. Анализ основных документов палестино-израильского переговорного процесса после подписания Норвежских соглашений (1996 –2001 гг.). Москва: Институт международных исследований МГИМО (У) МИД России, 2011. 82 с.
9. Ближний Восток и современность, Выпуск Третий , Москва: Типография КТ РФ, 1997. 251 с.
10. Востоковедный Сборник , Выпуск Второй, Москва: Типография ГНЦ РФ «НИОПИК», 2001. 374 с.

11. Востоковедный Сборник, Выпуск Пятый, Москва: Типография ЗАО «АСТИ-ИЗДАТ», 2003. 456 с
12. Даян М., Тевет Ш. Арабо-израильские войны 1956, 1967. — М.: «Изографус», «ЭКСМО», 2003. 496 с.
13. Операция "Облачный столб" . Центр разведывательной и антитеррористической информации им. генерала Меира Амита (при Израильском центре разведки и увековечивания памяти) , 22 ноября 2012 г
14. Звягельская И. История Государства Израиль. Москва: Аспект Пресс, 2012. 359 с.
15. Кузнецов Д.В., Арабо-Израильский конфликт: история и современность. очерк событий. документы и материалы: учебное пособие, Благовещенск: Издательство БГПУ, 2006. 289 с.
16. Истоки и история проблемы Палестины (1917-1988). Часть IV. 1984–1988 годы // http://maxpark.com/
17. Перес Ш. Новый Ближний Восток. Москва: Издательство "Прогресс", 1994. 240 с.
18. Эпштейн А.Д., От антитеррористической операции – к войне: Израиль и Исламистское вооруженное сопротивление летом 2014 года. Москва: Институт Ближнего Востока, 2014. 103 с.
19. Эпштейн А.Д., Кожеуров С. Россия и Израиль: трудный путь навстречу. Москва: Мосты культуры, 2011. 240 с.

**İngilis dilində**

20. 4 Address in the Knesset by Prime Minister-elect Netanyahu presenting his government- 18 June 1996 // http://mfa.gov.il/MFA/ForeignPolicy/
21. Agreement on the Gaza Strip and the Jericho area, May 4, 1994 // http://mfa.gov.il/MFA/ForeignPolicy/

22. American Jewish Year Book Vol. 69 (1968) , The Arab Israel War of 1967, pp. 113-229 // http://www.ajcarchives.org/
23. A/RES/194 (III), 11 December 1948 // https://unispal.un.org/
24. A/RES/ 1001 (ES–I) ,7 November 1956 https://unispal.un.org/
25. Balfour Declaration November 2, 1917 // http://www.thenagain.info/
26. Beaumont P. Violence in Israel and the Palestinian territories – the Guardian briefing, Jerusalem Friday 9 October 2015 // https://www.theguardian.com/
27. Beinin J., Hajjar L. Palestine, Israel and the Arab–Israeli Conflict, A Primer. Merip, 2014. 16 p.
28. Benjamin Netanyahu, Prime Minister of İsrael, Foreign Minister // http://www.mfa.gov.il/
29. Birnbaum B., Tibon A. The Explosive, Inside Story of How John Kerry Built an Israel-Palestine Peace Plan—and Watched It Crumble , July 21, 2014 // https://newrepublic.com/
30. Broyles M. The Six-Day War, The Rosen Publishing Group,Inc. 2004. 63 p.
31. B'Tselem to PM: Your silence permits street executions , Published: 25 Nov 2015 // http://www.btselem.org/
32. Bush Before a Joint Session of Congress on the End of the Gulf War (March 6, 1991) // https://www.youtube.com/
33. Clinton B. My Life. New York: Knopf: 1st Edition edition, 2004. 1008 p.
34. Clinton H.R. Hard choises. Great Britain: A CBS COMPANY 2014. 635 p.
35. Clinton, Netanyahu meet again Tuesday night, January 21, 1998 // http://edition.cnn.com/
36. Declaration of Establishment of State of İsrael // http://www.mfa.gov.il/mfa/foreignpolicy/
37. Dowty A. İsrael/Palestine, Third edition , Polity Press , 2012. 280 p.
38. DPA, UN: Settlement Building Contradicts Efforts to Achieve Mideast Peace, Oct 18, 2010 8:42 PM // http://www.haaretz.com/

39. Eran O. International Aspects of Operation Pillar of Defense , INSS Insight No. 386, November 21, 2012. 3 p.
40. Farley R. Parties, Coalitions, and Peace: Applying the Veto Player Theory to the Arab-Israeli-Palestinian Peace Process, 1992-2001 . Critique: A worldwide journal of politics, Carleton College, Spring 2005, pp.93-123
41. Fisk R. The Legacy Of Ariel Sharon - The Butcher Of Sabra And Chatila, The Independent (UK), 2000 // http://www.rense.com/
42. Full Text of Netanyahu's Foreign Policy Speech at Bar Ilan, Jun 14, 2009 // http://www.haaretz.com/
43. Gilbert M. Israel: A history , Great Britain: Black Swan, 2008 , p.595
44. Golani M. Israel Studies: An Anthology - The Sinai War and Suez Crisis, 1956-7, July 2010. 13 p.
45. Hamas and Fatah unveil Palestinian reconciliation deal , 23 April 2014 // http://www.bbc.com/
46. Herzl T. Jewish State. 49 p. // http://www.mideastweb.org/jewishstate.pdf
47. Heller J., Irish J. Israeli settlement freeze ends, peace talks in balance, Jerusalem/Paris, Mon Sep 27, 2010 // http://www.reuters.com/
48. Indyk: Talks failed due to 'skepticism' between Israelis, Palestinians, Ynetnews / Published: 04.07.14 // http://www.ynetnews.com/
49. Israeli-Palestinian Interim Agreement on the West Bank and the Gaza Strip Washington, D.C., September 28, 1995 // www.mfa.gov.il/mfa/foreignpolicy/
50. Israel-Palestinian Peace Process: Letters of Mutual Recognition (September 9, 1993) // https://www.jewishvirtuallibrary.org/
51. Issacharoff A., Mozgovaya N., On Eve of Obama-Netanyahu Meeting, Abbas Offers Jerusalem Compromise , 04.07.2010 01:12 Updated: 3:19 AM // http://www.haaretz.com/
52. Kershner I. Benjamin Netanyahu Draws Fire After Saying Palestinians Support ‘Ethnic Cleansing’ , Sept.12, 2016 // https://www.nytimes.com/

53. Kershner I. Netanyahu to Form New Israel Government , The New York Times , Feb. 20, 2009 // https://www.nytimes.com/
54. King Hussein . Address to the Nation, July 31, 1988// http://www.kinghussein.gov.jo/
55. Kipnis Y.The Golan Heights: Political History, Settlement and Geography since 1949 , Routledge Studies in Middle Eastern Politics, 1st Edition , 2013. 288 p.
56. Knesset passes Golan law, Wednesday, January 27, 1999// https://www.radioislam.net/
57. Lahav P. The Suez Crisisof 1956 and itsaftermath: A Comparative Study of Constitutions, use of Force, Diplomacy and International Relations ,Boston University of LawVolume 95, Number 4 – July 2015, pp. 1297-1354
58. Lappin Y., Lazaroff T . Gaza groups pound Israel with over 100 rockets, Published: The Jerusalem Post - Israel News, November 12, 2012 // http://www.jpost.com/
59. Lasensky S. Underwriting peace in the Middle East:U.S.. foreign policy and the limits of economic inducements, Middle East Review of International Affairs, Vol. 6, No. 1 (March 2002), p.89-105
60. Lerner A. Maagar Mochot Poll finds Israelis want PM Netanyahu to reject President Obama's demands , Independent Mmedia Review Analysis,Thursday, June 11, 2009 // http://www.imra.org.il/
61. Letter from Yasser Arafat Regarding Nullification of PLO Charter Provisions January, 1998 // http://www.mideastweb.org/
62. 1996 Likud party platform //http://dev.jewishvirtuallibrary.org/
63. Lochery N. The Resistible Rise of Benjamin Netanyahu, Bloomsbury USA, 2016 // https://www.amazon.com/
64. Main Points of the Declaration of Principles September 13, 1993 // http://mfa.gov.il/MFA/ForeignPolicy/

65. Mark C. Palestinians and Middle East Peace: Issues for the United States, Foreign Affairs, Defense, and Trade Division , April 26, 2005
66. McCarthy R. No territorial concessions to Palestinians, says Netanyahu, Jerusalem , First published on Wednesday 4 February 2009 // https://www.theguardian.com/
67. Mozgovaya N., Haaretz Service , EU's Ashton: Israel Must Extend Settlement Freeze to Give Talks a Chance, Sep 29, 2010 8:24 PM // http://www.haaretz.com/
68. Müller P. EU Foreign Policymaking and the Middle East Conflict: The Europeanization of national foreign policy (CSS Studies in Security and International Relations) Hardcover – 14 Oct 2011. 184 p.
69. Netanyahu B. The founding fathers of Zionism. Balfour Books; 1 edition, 2012. 232 p.
70. Netanyahu B. International Terrorism Challenge and Response. The Jonatan Institute, Jerusalem: Routledge, 1981. 383 P.
71. Operation Pillar of Defense – Update No. 2 (November 18, 1300 Hours) , The Meir Amit Intelligence and terrorism information center (at the Israeli Intelligence Heritage and Commemoration Center). 22 p.
72. Operation Pillar of Defense-Selected statements 20 Nov 2012 // http://www.mfa.gov.il/MFA/PressRoom/
73. Palestine Royal Commission Text of Official Summary of Its Report., p. 504 // http://www.ajcarchives.org/
74. Pallis E. "The Likud Party: A Premier," Journal of Palestine Studies, Vol.21,(1992), s.41-60 // https://www.jstor.org/
75. Protocol on Economic Relations between the Government of the State of Israel and the P.L.O., representing the Palestinian people Paris, April 29, 1994 // www.mfa.gov.il/MFA/ForeignPolicy/

76."Reporters Without Borders condemns Israeli strikes on building housing media outlets". The Associated Press. 19 November 2012. Retrieved 20 November 2012. // http://www.haaretz.com/
77.Quigley J. The Six-Day War and Israeli self-defense : questioning the legal basis for preventive war. New York, Cambridge University Press, 2013.266 p.
78.Rabinovich I., Reinharz J. , Israel in the Middle East: Documents and Readings on Society, Politics, and Foreign Relations, Pre-1948 to the Present (The Tauber Institute for the Study of European Jewry Series) 2nd Edition, 2007. 626 p.
79.Ravid B. Netanyahu: If I'm Elected, There Will Be No Palestinian State , Mar 16, 2015 // http://www.haaretz.com/
80.Ravid B., Khoury J. Israel Freezes Fourth Prisoner Release; Palestinians Demand Capital in East Jerusalem, Apr 03, 2014 // http://www.haaretz.com/
81.Remarks by the President at Cairo University, 6-04-09 // https://obamawhitehouse.archives.gov/
82.Risen J., Erlanger S. C.I.A. chief vowed to quit if clinton freed İsraeli spy , New York Times, Published Nov 11, 1998 // http://www.nytimes.com/
83.Rudoren J.,Shear D.M.Israel’s Netanyahu Reopens Door to Palestinian State, but White House Is Unimpressed , March 19, 2015 // https://www.nytimes.com/
84.S/RES/242 (1967) 22 November 1967 // https://unispal.un.org/
85.S/RES/338(1973) 22 October 1973 // https://unispal.un.org/
86.Sanchez R. Historic raising of Palestinian flag at United Nations, CNN, September 30, 2015 // http://edition.cnn.com/
87.Shaw commission. Encyclopedia of the Modern Middle East and North Africa Copyright 2004 The Gale Group, Inc. // http://www.encyclopedia.com/
88.Sharon A. Failure in Gaza, september 25, 2014 // http://www.nybooks.com/articles/

89. Siniver A. The October 1973 War: Politics, Diplomacy, Legacy. London: Hurst & Company, 2013. 320 p.
90. Sorko-Ram Sh. Israeli Politicians try to put together a coalition, Maoz Israel Report, Monthly Report: March 2009, p.5 // http://www.maozisrael.org/
91. Speech by Prime Minister Benjamin Netanyahu to a Joint Session of the United States Congress Washington D.C., July 10, 1996 // https://www.c-span.org/
92. Speech by Prime Minister Benjamin Netanyahu to the UN General Assembly's General Debate 27 September 2012 // http://mfa.gov.il/MFA/PressRoom/
93. Spelman E. 'The Legality of the Israeli Blockade of the Gaza Strip', (2013) 19(1) Web JCLI // http://webjcli.org/
94. Statement by PM Netanyahu on the Cabinet Decision to suspend new construction in Judea and Samaria, 25 Nov 2009 // http://mfa.gov.il/MFA/
95. Stav A. Israel and a Palestinian State: Zero Sum Game?, Zmora-Bitan Publishers; 1st edition (2001). 531 p.
96. Survey of Palestinian Refugees and Internally Displaced Persons 2008 - 2009, BADIL Resource Center for Palestinian Residency & Refugee Rights // http://www.badil.org/
97. The British White Paper of 1939, pp.7–11 // http://www.alliedpowersholocaust.org/
98. The 2014 GAZA conflict, 7 july-26 august 2014 / Factual and Legal aspects, MFA of State of İsrael, may 2015 // http://mfa.gov.il/
99. The Madrid Conference, 1991// https://history.state.gov/
100. The Middle East and North Africa 2004 50th Edition , Europa Publications, London and New York , 2004. 1370 p.
101. The plan of partition and end of the British mandate , p. 0 // http://www.un.org/
102. The PLO and Yasser Arafat—From Terrorism to statesmanship to Terrorism // http://www.encyclopedia.com/

103. The question of Palestine before the United Nations , pp.6–7 // http://www.un.org/
104. The Shamir four-point plan // http://www.palestine-studies.org/
105. Tibon A., Shalev T., Scenes from a marriage // http://highline.huffingtonpost.com/
106. Toameh A.K. Erekat: Peace talks have failed, PA should seek statehood recognition, December 30, 2013 // http://www.jpost.com/
107. Truman H. Memoirs, Volume two: Years of Trial and Hope. N.Y.: Doubleday & Company, 1956. 594 p.
108. Washington Conference on International Terrorism // https://wikispooks.com/wiki/
109. Wye River Memorandum – Status of Implementation Communicated by the Israeli Ministry of Foreign Affairs, April 27, 1999 // http://likud.nl/